# Xalq qəzeti

Xalqın qəzeti!

№ 214 (30330) 3 oktyabr 2023-cü il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqaæ ti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresi ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafına və onun müasirləşdirilməsinə mütləq yeni təkan verəcəkdir. Əminəm ki, qonaqlarımızın konqresdəki işlərindən əlavə, Azərbaycanı, onun xalqını, tarixini və mədəniyyətini daha yaxından tanımaq imkanı olacaqdır.**

# Dünya astronavtikasının nəbzi Bakıda döyünür

## Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi

***Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər***



**Oktyabrın 2-də Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi keçirilib.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev tədbirdə iştirak ediblər.

Əvvəlcə birgə foto çəkdirildi.

Açılış mərasimində səhnələşdirilmiş musiqili tamaşa, 1973-cü ildə Bakıda keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresi və Azərbaycan haqqında videoçarxlar nümayiş etdirildi.

Sonra Beynəlxalq Astronavtika Federasiyasının tanıtım videoçarxı təqdim olundu.

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Kley Mouri açılış mərasimində çıxış edərək dedi:

– Təşəkkür edirəm. Zati-aliləri Prezident Əliyev, Zati-aliləri Birinci vitse-prezident Əliyeva.

Hörmətli nazirlər, səfirlər, təşkilat rəhbərləri, kosmik ictimaiyyət, mötəbər qonaqlar, sabahınız xeyir.

74-cü Beynəlxalq Astronavtika Konqresinə xoş gəlmisiniz və bu gözəl şəhər Bakıda bizimlə bir arada olduğunuz üçün çox sağ olun.

Beynəlxalq Astronavtika Federasiyasının (IAF) prezidenti olaraq bu əlamətdar gündə qarşınızda çıxış etmək mənim üçün böyük şərəfdir.

**(ardı 2-ci səhifədə)**

# BMT: Qarabağda mülki əhaliyə qarşı zorakılıq olmayıb

**Missiyaya dinc əhaliyə qarşı zorakılıq halları ilə bağlı nə yerli əhalidən, nə də digər həmsöhbətlərdən şikayət daxil olmayıb. Bu barədə Qarabağa səfər edən BMT missiyasının yekun bəyanatında deyilir.**

Bəyanatda daha sonra bildirilir ki, Azərbaycan hökuməti Xankəndidə səhiyyə və digər məişət xidmətlərinin bərpasına hazırlaşır.

Missiya burada yerli əhali və digər şəxslərlə söhbət edib, eləcə də səhiyyə və təhsil müəssisələrindəki vəziyyətlə yerindəcə tanış olublar. Missiya üzvlərinin Xankəndi şəhərində getdikləri yerlərdə mülki və ictimai infrastruktura, o cümlədən, xəstəxana, məktəb, yaşayış binaları, mədəni və dini obyektlərə heç bir ziyan dəyməyib. Kənd təsərrüfatı sahələrinə və heyvanlara zərər verilməyib.

BMT-nin Azərbaycandakı nümayəndəliyi regiona müntəzəm səfərlərini davam etdirməyi planlaşdırır.

**XQ**

# "Azərkosmos" kosmik ailənin fəal üzvüdür




**Azərbaycanda son 10 il ərzində müasir texnologiyaların geniş tətbiqi, rəqəmsal inkişaf və kosmik sənaye quruculuğu sahəsində mühüm nailiyyətlər əldə edilib. Ötən müddətdə hərtərəfli dövlət dəstəyi ilə ölkədə kosmik sənaye üzrə müasir infrastruktur yaradılıb, informasiya təhlükəsizliyinin vacib komponenti olan telekommunikasiya peykləri orbitə buraxılıb, xarici dövlətlərin peyklərindən asılılıq aradan qaldırılıb və peyk xidmətlərinin ixracına başlanılıb.**

Mövcud peyk şəbəkəsi ölkəmizin suverenliyinin qorunması ilə bərabər, onun sosial-iqtisadi inkişafına da mühüm təsir göstərib. Uğurlu peyk layihələri sayəsində Azərbaycan dünya kosmik ailəsinin fəal üzvünə çevrilərək beynəlxalq kosmik icmada böyük nüfuz sahibi kimi tanınıb. Kosmik sənaye və peyk xidmətləri sahəsində əldə edilən təcrübənin, formalaşan yeni insan kapitalı və etibarlı tərəfdaş imicinin təzahürü olaraq, Azərbaycan 2023-cü ildə Beynəlxalq Astronavtika Konqresinə evsahibliyi etmək hüququ qazanıb.

**(ardı 6-cı səhifədə)**

# Qətnamələr icra olunub, separatizmin kökü kəsilib

Səhifə ⇨ 10

# "Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik"

**"Əlbəttə, sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni, artıq "boz" zonalar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir və bu, yaxşı siqnaldır, – bəziləri hələ də qisasçılıq, revanşist ideyalarla yaşayırlar, – bu, onlara güclü siqnaldır ki, bu fikirlərdən daşınsınlar". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) və Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə keçirilən "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində sentyabrın 29-da Zəngilanda 2-ci Milli Şəhərsalma Forumunun açılış mərasimindəki çıxışında bildirib.**

(ardı 8-ci səhifədə)



# Orta Dəhlizin tərəfdaşları çoxalır

**Bu gün Orta Dəhliz səmərəli fəaliyyət göstərir və infrastrukturun inkişafı məqsədilə müəyyən layihələr həyata keçirilir. Bir müddət bundan əvvəl Polşanın Karpaç şəhərində reallaşan iqtisadi forumda Orta Dəhlizin nadir coğrafi mövqeyi yüksək dəyərləndirilərək onun Avropa və Asiyanı birləşdirən həyati körpü rolunu oynadığı vurğulanıb. Bununla yanaşı, dəhlizin Mərkəzi Asiyanın resursla zəngin regionlarını Avropanın sənaye mərkəzləri ilə əlaqələndirdiyi və bu nəqliyyat platformasından regiondakı bütün ölkələrin faydalandığı diqqətə çatdırılıb.**

(ardı 11-ci səhifədə)

# Fransanın Cənubi Qafqaz pozuculuğu



Səhifə ⇨ 9



# Kamal Abdulla: "Mən yazanda dincəlirəm"

Səhifə ⇨ 14

# Bədii "Qarabağnamə"nin əbədiyaşar müəllifi

Səhifə ⇨ 13

# Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi




(əvvəli 1-ci səhifədə)

Beynəlxalq Astronavtika Konqresi kosmik ictimaiyyətin nümayəndələri olaraq hamımız üçün unikal bir hadisədir. Bir çoxlarımız işini paylaşmaq, həmkarlarımızı salamlamaq və dünyanın hər yerindən çoxşaxəli və entuziazmla dolu olan cəmiyyətlə yeni əlaqələr yaratmaq üçün yalnız ilin bu vaxtı bir araya gələ bilirik. Prezident Əliyevin möhtəşəm dəstəyi olmasaydı, əlli ildən sonra Bakıya qayıda bilməyəcəkdik. Təşəkkür edirəm, cənab Prezident.

İndi isə bu Konqresə və tədbirə davamlı dəstək olan tərəfdaşlarımızın adlarını çəkmək istəyirəm. Beynəlxalq Astronavtika Akademiyasını, Kosmos Hüquq üzrə Beynəlxalq İnstitutu və Kosmik Nəslin Məşvərət Şurasını, eyni zamanda, "premium" sponsorumuz olan Çinin Astronavtika Cəmiyyətini, "platin" sponsorumuz olan Səudiyyə Ərəbistanının Kosmik Agentliyini, "SpaceX" və Türk Kosmik Agentliyini, "qızıl" sponsorumuz olan "Israel Aerospace Industries" şirkətini, Birləşmiş Ərəb Əmirliklərinin Muhammed Bin Rəşid Kosmik Mərkəzini, "gümüş" sponsorlarımız olan "Airbus", "Axiom Space", "Intesputnik", "ispace" kompaniyalarını, Hindistanın Kosmik Tədqiqatlar Təşkilatını, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyini, "Northrop Grumman", "Plan-S" və "Vast" şirkətlərini və "bürünc" sponsorlarımız olan "Asgardia", "BlackSky", "Blue Origin", JGC Holdings Corporation", "Lockheed Martin" korporasiyalarını qeyd etmək istəyirəm. Beynəlxalq Astronavtika Konqresinin bu buraxılışını dəstəkləyən bütün digər sponsorlara da təşəkkürümüzü bildiririk.

Sizin dəyərli dəstəyiniz sayəsində Beynəlxalq Astronavtika Konqresi kimi inanılmaz tədbir hər il keçirilir. Sonda hamınıza buraya gəldiyiniz üçün təşəkkürümü bildirmək istəyirəm, bizim müəlliflərimizi, natiqlərimizi, sərgi iştirakçılarımızı, komitələrimizi nəzərdə tuturam, – onların hamısı könüllü olaraq fəaliyyət göstərir, – hər birinizə gəldiyiniz üçün təşəkkür edirəm. Siz dünyanın ən böyük və ən çoxşaxəli kosmik təşkilatı olan IAF-ın bir hissəsisiniz.

Bayaq nümayiş etdirilən videoçarxda gördüyünüz kimi, federasiya 1951-ci ildə mürəkkəb geosiyasi münasibətlər dövründə təsis olunub. Federasiyanın yaradılmasında məqsəd kosmik sahədə fəaliyyət göstərən bütün insanları birləşdirmək üçün qeyri-siyasi neytral platformanı təmin etmək idi. Bu gün 70 ildən də artıq müddətdən sonra biz yenə də mürəkkəb beynəlxalq proseslərin şahidi oluruq. IAF-ın rolu isə daha da zəruri olaraq sülhsevər əməkdaşlıq ruhunda artmaqda olan kosmik ictimaiyyəti bir araya gətirməkdir. Federasiyanın davamlı inkişaf və innovasiya tarixi var. İlkin olaraq, federasiya Parisdə on təşkilat tərəfindən təsis edilmişdi. Bu gün IAF-ın dünyanın 75 ölkəsindən 468 üzvü var. Sizə hətta bir sirri də aça bilərəm. Bu həftənin sonunadək üzvlərimizin sayı 500-ə çatacaq.

IAF qərar verənlərə fəzanın iqtisadi, sosial, siyasi və elmi dəyərini anlamağa kömək etmək üçün fəaliyyət göstərir. Konqreslər, konfranslar, nəşrlər və araşdırmalarımızla kosmik texnologiyanın gündəlik həyatımızı necə təkmilləşdirə bilməsi ilə əlaqədar biliklərə daha da dərindən yiyələnirik və onları paylaşırıq. IAF tədbirlərinin şəbəkəsi, investisiya qoyuluşu və innovasiyalar vasitəsilə biz dünya miqyasında olan təşkilatları əlaqə yaratmağa, əməkdaşlıq etməyə, elmi və texniki biliyi öz ölkələrində daha da inkişaf etdirməyə sövq edirik. Tədbir və fəaliyyətlərimizdə biz xüsusilə üç mövzuya əsas diqqəti yetiririk. Mənim IAF gündəliyimdə bu məsələlər dayanıqlılıq, investisiya qoyuluşu və təhlükəsizlikdir. Ötən dəfə Parisdə bir araya toplandığımızdan bəri kosmos çox məşğul sahədir desəm, mübaliğəyə yol vermərəm. "James Webb" teleskopundan möhtəşəm təsvirləri görmüşük. Çin öz Orbital Kosmos Stansiyası olan "Tianqonq"un tikintisini tamamlayıb. Hazırda bu kosmik stansiya heyətlə təchiz olunaraq orbitdə tam fəaliyyətdədir. NASA, ESA və onların təchizatçıları bizi Aya aparacaq "Artemis-1" missiyasını müvəffəqiyyətlə başa vurublar. Hindistanın Kosmik Tədqiqatlar Təşkilatı "Çandrayaan-3" peykini ayın səthinə endirib. IASS kommersiya operatorları ilə üzərimizdə beynəlxalq tərəfdaşlıq apararaq uğurla fəaliyyət göstərməyə davam edir. "Space Industries" şirkəti bəşəriyyətin iddialı planları olan Aya qayıtmaq, Marsa və ondan o tərəfə getmək üçün texnologiyanı müvəffəqiyyətlə inkişaf etdirir. Bu, sadəcə, ötən ilin bir neçə əlamətdar hadisəsidir. Kosmos sahəsində çoxlu işlər görülür və bundan sonra bu sahə daha da məşğul olacaq. Bu maraqlı həftə ərzində öyrənəcəyiniz kimi, bu sahə çox sürətlə irəli gedir.

74-cü Beynəlxalq Astronavtika Konqresində iştirak etdiyiniz üçün IAF adından sizə təşəkkürümü bildirirəm. Hərəkətə keçin, işinizi paylaşın, əlaqələr yaradın, həm də əylənin. Ümid edirəm ki, yerli mədəniyyətlə və Xəzər dənizinin gözəl sahilində yerləşən Bakı şəhəri ilə tanış olmaq imkanınız olacaq.

İndi Çinin Kosmik Stansiyası "Tyanqonq"dan bu xüsusi videonu sizinlə paylaşmaq istəyirəm. Buna görə Çinin Milli Kosmik Administrasiyasına, Çinin Astronavtlar Cəmiyyətinə və CMSE təşkilatına dərin təşəkkürümü bildirirəm.

***

Sonra Çinin Milli Kosmik Stansiyasının astronavtlarının videomüraciəti oldu.

**Çinli astronavtlar:** 74-cü Beynəlxalq Astronavtika Konqresinin iştirakçıları, biz sizi Çinin Kosmik Stansiyasından salamlayırıq. Mən Çin astronavtı Cinq Haipenqəm. Mən Çin astronavtı Ju Yanqjuyam, mən də Çin astronavtı Qui Haiçaoyam. Biz hazırda "Şencou" kosmik gəmisinin 16-cı uçuş missiyasını həyata keçiririk. Ötən iki il ərzində Çinin Kosmik Stansiyası orbitdaxili konstruksiya işlərini tamamlayıb və yeni utilizasiya və inkişaf mərhələsinə qədəm qoyub.

Azərbaycanın paytaxtı Bakı şəhərində Beynəlxalq Astronavtika Konqresinin uğurla təşkil edilməsi münasibətilə heyət adından təbriklərimizi çatdırıram. Ötən 70 il ərzində Beynəlxalq Astronavtika Konqresi dünya miqyaslı mötəbər kosmik mütəxəssisləri davamlı olaraq bir araya gətirib və burada əsas məqsəd qlobal kosmik sənayedə əlaqələri gücləndirmək, bütün bəşəriyyət naminə qətiyyətli ismarış olan birlik, sülh və əməkdaşlığı çatdırmaqdır.

Beynəlxalq Astronavtika Federasiyasının kosmik tədqiqata sadiq və bir olan icma daxilində dostluq üçün körpülərin aşılması kimi irsi var. Bu il sonuncu dəfə yarım əsr bundan əvvəl – 1973-cü ildə keçirildikdən bəri Beynəlxalq Astronavtika Konqresi Bakıya qayıdır. 24-cü Beynəlxalq Astronavtika Konqresi Azərbaycanın hazırkı Prezident İlham Əliyevin atası Heydər Əliyevin rəhbərliyi dövründə Bakıda müvəffəqiyyətlə keçirilib. Bu tarixi şəkildə gənc İlham Əliyev atasını konqresdə müşayiət edir və onun kosmik tədqiqat sahəsində tanınmış mütəxəssislərlə fotosu çəkilir. Azərbaycan Prezidenti İlham Əliyev 74-cü Beynəlxalq Astronavtika Konqresinin yenidən Bakıda keçirilməsi üçün mühüm dəstək göstərib.

Şəkildə də təsvir olunduğu kimi, insanların kosmik missiyanı irəli aparması ardıcıl nəsillər tərəfindən davamlı dəstək tələb edir. Bəşəriyyətin sülhü sarsılmaz təqib etmək istəyi dəyişməz qalmaqla, yarım əsrin bir anda keçməsi ilə qlobal kosmik sənayedə sürətli transformasiyalar baş verib. Biz səmimi-qəlbdən ümid edirik ki, iştirakçı heyətlər bir həftə boyunca davam edən tədbirdə təcrübə və informasiya mübadiləsi aparacaq, tərəfləri əməkdaşlığa sövq edəcək və qlobal kosmik sənayenin genişlənməsinə şərait yaradacaqlar.

Gəlin, kainatı kəşf etmək və qlobal kosmik sənayenin çiçəklənməsini və tərəqqisini təşviq etmək üçün birlikdə işləyək. Gəlin, kosmosla bağlı bəşəriyyətin gələcəyinə dair ortaq baxışın, eyni zamanda, yerdə də insanlıq üçün gözəl vətənin yaradılması ideyasının irəlilədilməsi naminə səylərimizi birləşdirək. Əziz dostlar, sizə uğurlar arzulayıram, sağ olun.

***

**Klay Mouri:** Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə kiçik bir sürprizimiz var. Onun və atasının hələ də kosmosda olan şəkli Çinin "Tianqonq" kosmik stansiyasından nümayiş olundu. Bununla belə, NASA-nın böyük dəstəyi sayəsində Beynəlxalq Kosmik Stansiyaya göndərilmiş və Yerə qaytarılmış ikinci bir şəkil də var. Dörd digər atributla birlikdə olan bu hədiyyəni cənab Prezidentə təqdim edəcəyik. Hazırda gördüyünüz həmin dörd atributun təsviridir. Zati-aliləri cənab İlham Əliyevi səhnəyə dəvət etmək istəyirik.

***

Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Klay Mouri 1973-cü ildə Bakıda keçirilmiş 24-cü Beynəlxalq Astronavtika Konqresində ulu öndər Heydər Əliyevin və oğlu İlham Əliyevin astronavtlarla çəkdirdiyi, kosmosda nümayiş edildikdən sonra geri gətirilən fotoşəkil və digər atributlardan ibarət xatirə hədiyyəsini Azərbaycan Prezidentinə təqdim etdi.

***

**Klay Mouri:** Qonaqpərvərliyə görə Zati-alinizə bir daha təşəkkür edirəm. İndi isə NASA tərəfindən göndərilmiş qısa videoçarxı böyük məmnuniyyətlə sizə təqdim etmək istəyirəm.

***

**Amerikalı astronavtlar:** Sizi Beynəlxalq Kosmik Stansiyadan salamlayırıq. Mən NASA astronavtı Casmin Moqbeliyəm, bu da həmkarım NASA astronavtı Loral Oharadır və yeddi nəfər ekipaj üzvləridir. Orbitdəki bu möhtəşəm laboratoriyada missiyamızın erkən mərhələsindəyik və biz Yer üzərindən 260 mil məsafədə uçuruq. Kosmik stansiya bəşəriyyətin vacib tədqiqat mərkəzidir, mən və ekipaj üzvlərim bütün bəşəriyyətin faydası üçün dünya səviyyəli tədqiqatla məşğuluq. Beynəlxalq Kosmik Stansiya növbəti iki ay ərzində iki əlamətdar hadisəni qeyd edəcək. Noyabrın 2-də biz insanın fəzada daimi mövcudluğunun 23-cü ildönümünü qeyd edəcəyik. Dekabrın 6-da isə kosmik stansiyanın tərəfdaşları bu gün nəhəng kompleksin ilk iki elementi olan "Zarya" və "Unity" modullarının birləşməsinin 25-ci ildönümünü qeyd edəcəklər. Ekipajımız hər gün Yer kürəsində həyatı yaxşılaşdırmaq üçün birlikdə işləyən Beynəlxalq Kosmik Stansiyanı fərqləndirən xüsusiyyət olan qlobal tərəfdaşlığı təcəssüm etdirir. Bakıda bu tədbirdə iştirak edən hər birinizə məhsuldar Konfrans keçirilməsini arzulayırıq. Bu gecə səmaya baxanda biz sizə əl edəcəyik.

***

Dövlətimizin başçısı konqresin açılış mərasimində çıxış etdi.



## Prezident İlham Əliyevin çıxışı

– Beynəlxalq Astronavtika Federasiyasının hörmətli prezidenti.

Hörmətli xanımlar və cənablar.

Əziz qonaqlar.

Azərbaycana, Bakıya xoş gəlmisiniz. Əlli ildən sonra Konqres burada yenidən keçirilir. İlk olaraq, Konqresin Azərbaycanda təşkil edilməsi şərəfinə layiq görüldüyümüz üçün Beynəlxalq Astronavtika Federasiyasına dərin minnətdarlığımı bildirmək istəyirəm. Eyni zamanda, mütəmadi dəstəyə görə Beynəlxalq Astronavtika Akademiyasına və Kosmos Hüququ üzrə Beynəlxalq İnstitutuna təşəkkür edirəm.

Belə bir mühüm qlobal tədbirə ev sahibliyi etmək bizim üçün şərəfdir. Bu gün burada 100-dən artıq ölkəni təmsil edən 5000-dən çox iştirakçı var. Əminəm ki, qonaqlarımızın Konqresdəki işlərindən əlavə, Azərbaycanı, onun xalqını, tarixini və mədəniyyətini daha yaxından tanımaq imkanı olacaqdır.

Azərbaycan on ildən artıq müddət əvvəl beynəlxalq kosmik ailənin üzvü olub. Bu gün ikisi telekommunikasiya, biri isə Yer səthinin müşahidəsi peykinə malik olaraq biz Azərbaycanda kosmik sənayenin inkişafını davam etdiririk. Onu da bildirim ki, bu üç peyk azərbaycanlı mütəxəssislər tərəfindən idarə olunur və onlar təkcə Azərbaycana deyil, 45-dən artıq ölkəyə xidmət göstərirlər.

Bakıda keçirilən bu Konqres ölkəmizin kosmik sənaye, müasir texnologiya və innovasiya sektorlarının inkişafına və onun müasirləşdirilməsinə mütləq yeni təkan verəcəkdir. Müasirləşdirilmə sözü bizim gələcəklə bağlı baxışımızı, gündəliyimizi və planlarımızı səciyyələndirir.

Müstəqillik dövründə Azərbaycan beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrilib. Bizim siyasətimiz hər zaman aydın, şəffaf və birmənalı olub və dostlar qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə yönəlib. Beynəlxalq ictimaiyyətin fəal üzvü kimi Azərbaycan çoxsaylı siyasi, iqtisadi və regional inkişaf layihələrində iştirak edir. Dördüncü ildir ki, biz BMT-dən sonra ikinci ən böyük beynəlxalq təsisata – Qoşulmama Hərəkatına sədrlik edirik və belə bir təşkilata sədrlik etmək şərəfinə biz 120 dövlətin yekdil qərarı ilə layiq görülmüşük. Bu, həqiqətən də Azərbaycanın geniş beynəlxalq dəstəyə malik olmasının göstəricisidir.

Bununla yanaşı, bizim Avropa institutları ilə də əməkdaşlığımız uğurla inkişaf edir. Azərbaycan Avropa İttifaqının 9 üzvü ilə strateji tərəfdaşlıq haqqında bəyannamə imzalayıb. Bu, bizim xarici siyasət gündəliyimizi nümayiş etdirir. Bu, tam açıq gündəlikdir və artıq qeyd etdiyim kimi, əməkdaşlığa və daha geniş regional iştirak və inklüzivliyə yönəlib.

Azərbaycan iki mühüm beynəlxalq təsisatın – İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvüdür. Biz eyni vaxtda hər iki təşkilata üzv olan azsaylı ölkələrdənik və bu iki təşkilatın yüzdən artıq üzvü var. Bu, yalnız bizim coğrafiyamız və mədəniyyətimizin deyil, həm də siyasi niyyətlərimizin göstəricisidir. Çünki Azərbaycanın Avropa ilə Asiya arasında yerləşməsi və iki qitəni birləşdirən, təbii olaraq mədəni, nəqliyyat və hazırda iqtisadi körpü rolunu oynaması bizə regionumuzda geniş beynəlxalq əməkdaşlıq qurmaq imkanı verir.

Hesab edirəm ki, dünyanın hər bir ölkəsi üçün coğrafi yerləşmə böyük əhəmiyyət kəsb edir. Bizim üçün isə coğrafiya fürsət deməkdir. Əsrlər boyu birgə yaşayış və tərəfdaşlıq tarixinə malik qonşularımız ilə yaxşı münasibətlər sayəsində biz coğrafi yerləşməmizi müsbət ssenariyə çevirə bilmişik. Bu gün biz üfüqlərimizi genişləndiririk. Bu mühüm beynəlxalq tədbirin keçirilməsinin bizə həvalə olunmasını ölkəmizə olan etimadın və fəaliyyətimizə dəstəyin göstərici hesab edirik.

Əlbəttə, qitələrarası körpü olmağımız cəmiyyətimizin inkişafında mühüm rol oynamışdır. Azərbaycan əsrlər boyu çoxmədəniyyətli və çoxkonfessiyalı cəmiyyətə malik olub. Otuz ildən artıq müstəqillik dövründə biz həyat tərzimizin bu faktorunu gücləndirmişik. Biz bunu sabitliyin, proqnozlaşdırmanın və Azərbaycanda yaşayan bütün etnik qrupların və bütün dini konfessiyaların dinc birgə yaşayışı üçün əhəmiyyətli faktor hesab edirik. Biz həqiqətən də bir ailə kimi yaşayırıq və bir sıra beynəlxalq təşkilatlar bunu qeyd edib və bu, onların qərarlarında öz əksini tapıb. BMT Azərbaycanın multikulturalizmin təşviqi sahəsindəki səylərini tam dəstəkləyir. Yeri gəlmişkən, ölkəmizin təşəbbüsü ilə mütəmadi olaraq keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu müxtəlif sivilizasiyaların nümayəndələri arasında təmasların daha nəticəyönümlü olması üçün unikal platformadır.

Azərbaycan on ildən çoxdur ki, Bakı Prosesinin təşəbbüskarıdır. Tarixdə ilk dəfə idi ki, Avropa Şurası və İslam Əməkdaşlığı Təşkilatı vahid platforma çərçivəsində bir araya gətirildi və burada qlobal siyasət, mədəniyyətlərarası dialoq və dinc inkişafa dair vacib məsələlər müzakirə edildi.

Azərbaycan, həmçinin dünyada ilk dəfə - XIX əsrin ortalarında neftin hasil edildiyi ölkə kimi tanınır. O zaman dünyada neft hasilatının yarısı Azərbaycanın payına düşürdü. Bir çoxları bəlkə də bunu bilmir, ancaq XX əsrin ortalarında dünyada ilk dəfə dənizdə neft məhz Azərbaycanda – Xəzər dənizində azərbaycanlı neftçilər tərəfindən hasil edilib.

Bu gün müstəqil ölkə olaraq, bizim təbii sərvətlərimiz xalqımızın mənafeyinə xidmət edir. Müstəqillik illərinin sürətli transformasiyası bizim təbii sərvətlərimizin düzgün istifadəsinin təzahürüdür. Neftlə zəngin olan bəzi ölkələr üçün neft lənət deməkdir. Bizim üçün isə bu inkişaf etmək, müstəqilliyimizi gücləndirmək, milli kimliyimizi qorumaq və güclü iqtisadiyyat qurmaq üçün vasitə idi.

Bu gün enerji və nəqliyyat marşrutlarının, o cümlədən boru kəmərlərinin xəritəsinə nəzər salsanız, orada Azərbaycanın dəst-xəttini görərsiniz. Bizim təşəbbüskarı olduğumuz, qonşularımız və tərəfdaşlarımızla uğurla həyata keçirdiyimiz layihələr təkcə bizim regionun enerji təhlükəsizliyinə töhfə vermir. Bu gün hər kəsə məlumdur ki, enerji təhlükəsizliyi hər bir ölkənin milli təhlükəsizliyinin tərkib hissəsidir. Bu gün Azərbaycan beynəlxalq bazarlarda enerji ehtiyatlarının etibarlı təchizatçısıdır və Avropa İttifaqı tərəfindən etibarlı pan-Avropa təchizatçısı hesab edilir.

(ardı 3-cü səhifədə)

# Bakı Konqres Mərkəzində 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimi

(əvvəli 2-ci səhifədə)



Lakin tərəfdaşlarımız arasında müxtəlif qitələrdə yerləşən onlarla ölkə var və bütün səylər beynəlxalq əməkdaşlığa, proqnozlaşdırmaya və eyni zamanda, ölkəmizin uğurlu iqtisadi inkişafına xidmət edir.

Üç il əvvəl biz, təxminən, 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik. Biz təcavüzdən, işğaldan və etnik təmizləmədən əziyyət çəkdik və bu, millətimiz üçün böyük faciə, böyük humanitar fəlakət idi. 1990-cı illərin əvvəlində torpaqlarımız işğal olunanda, bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşdü və o vaxt əhalimizin sayı 8 milyon idi. Bu rəqəm hər hansı ölkə ilə müqayisədə, bəlkə də adambaşına olan ən yüksək qaçqın sayı idi. Həmin vaxt, biz çox yoxsul idik. Biz öz təbii sərvətlərimizin istismarına hələ başlamamışdıq. Açıq dənizə çıxışı olmayan ölkəmizdə hərc-mərclik hökm sürürdü və gələcək üçün perspektivlər o qədər də aydın görünmürdü.

Lakin xalqımız güclü siyasi iradəsini nümayiş etdirdi. Biz uzun illər münaqişənin sülh yolu ilə həllini tapmağa və işğala dinc yolla son qoymağa çalışdıq. 28 il ərzində biz danışıqlar prosesinə qəti surətdə sadiq qaldıq, lakin əfsuslar ki, biz anladıq: bunu sülh yolu ilə etmək mümkünsüzdür. Biz özünümüdafiə hüququmuzdan istifadə etdik. Biz BMT nizamnaməsinin hər bir ölkəyə verdiyi hüquqdan, özünümüdafiə hüququndan istifadə etdik və üç il əvvəl öz ərazilərimizi azad edərək işğala son qoyduq. Bir aydan da az müddət əvvəl biz ölkəmizin suverenliyini tam bərpa etdik.

Əfsuslar olsun ki, işğala son qoymaq öhdəliyini üzərinə götürmüş beynəlxalq təşkilatlar hər hansı nəticəyə nail olmadı. BMT Təhlükəsizlik Şurası erməni qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul etdi. Lakin həmin qətnamələr 27 il icra olunmadı. Biz həmin qətnamələri insanlarımızın həyatını qurban verərək özümüz icra etdik. ATƏT kimi beynəlxalq təşkilatların da danışıqlarda vasitəçilik etmək mandatı var idi, lakin nəticə sıfır oldu və Azərbaycan cəmiyyətində tam məyusluq və narazılıq yaratdı.

Ərazi bütövlüyünün və suverenliyin bərpasında əldə etdiyimiz təcrübə müəyyən formada unikal oldu. Zorakılıqla üzləşdiyimiz münaqişəyə son qoyduq. Biz ləyaqətimizi qoruduq. Biz ədaləti və beynəlxalq hüququ bərpa etdik. İndi isə Qafqazda sülh üçün vaxt yetişib. Bu, bizim gündəliyimizdir. Gündəliyimiz Qafqazda sülhün, regionda sülhün, əməkdaşlığın qurulmasıdır və hamı üçün faydanın gətirilməsidir.

Bu gün biz göstəririk ki, həqiqətən müstəqil ölkə olmaq üçün güclü iqtisadiyyat lazımdır. Biz aydın şəkildə anlayırıq ki, bütün əsas səylərimiz özünü təmin edən iqtisadiyyatın necə qurulmasına yönəlmişdir. Yəni, biz hər hansı qlobal güc mərkəzindən və ya hər hansı maliyyə təsisatından asılı vəziyyətə düşməyək. Biz buna nail olduq.

Nəzərə alsaq ki, qonaqlarımızın əksər hissəsi Azərbaycana ilk dəfədir səfər edir, mən sizə bəzi rəqəmlərlə bağlı məlumat vermək istərdim. Hesab edirəm ki, həmin rəqəmlər Azərbaycanda son zamanlarda əldə olunmuş nailiyyətləri aydın şəkildə nümayiş etdirir. Beləliklə, son 20 il ərzində, ümumi daxili məhsul dörd dəfə artıb, büdcə gəlirlərimiz 30 dəfədən çox artıb, xarici ticarət dövriyyəsi on dəfədən çox artıb. Biz birbaşa xarici borcun həcmini azalda bildik və hazırda o, ümumi daxili məhsulun təxminən 10 faizini təşkil edir. 2024-cü ilin sonuna qədər, planlarımıza uyğun olaraq, onun həcmi ümumi daxili məhsulun təxminən 7-7,5 faizini təşkil edəcək. Azərbaycanın xarici valyuta ehtiyatları birbaşa xarici borcumuzu on dəfə üstələyir. Başqa sözlə, əgər lazım gələrsə, biz bütün borclarımızı bir neçə ay ərzində ödəyə bilərik. Biz çox müsbət sərmayə mühitini nəinki enerji, o cümlədən digər sektorlarda yaratmışıq. Beləliklə, son 20 il ərzindəki sərmayələrin ümumi həcmi 300 milyard ABŞ dollarından çoxdur və onlardan 190 milyard dolları qeyri-enerji sektoruna yatırılmışdır.






Müstəqilliyimizin əvvəlində üzləşdiyimiz böyük çağırışlardan biri məlum olan yoxsulluq idi. 20 il əvvəl yoxsulluq şəraitində yaşayan insanların sayı 50 faizə yaxın idi. Hazırda isə yoxsulluq 5,5 faiz təşkil edir və onu göstərir ki, hasil etdiyimiz və beynəlxalq bazarlara çıxardığımız təbii sərvətlər lazımi qaydada idarə olunub. Milli sərvətlərin bərabər paylanması bu gün beynəlxalq ekspertlər və ən vacibi isə, Azərbaycan xalqı tərəfindən qeyd olunur. Bir sözlə, bütün bunlar əslində göstərir ki, ölkə çox dayanıqlı vəziyyətdədir. Siyasi, iqtisadi və sosial sabitlik inkişafımızın mühüm meyarıdır, çünki aydındır ki, əgər vəziyyət sabit və proqnozlaşdırılan olmasa, investorların gələrək öz kapitalını risk altına atmasını gözləmək olmaz.

Ümid edirəm ki, qonaqlarımızın söylədiklərimi öz gözləri ilə görmək, insanlarla tanış olmaq və Azərbaycanı daha yaxşı tanımaq imkanı olacaq. Bəli, bizim qədim tariximiz var və o, videoçarxda göstərildi. Bizim qədim mədəniyyətimiz var. Lakin müstəqil ölkə kimi biz hələ çox gəncik, cəmi 32 yaşımız var.

Yekunda bir daha söyləmək istərdim ki, biz Konqresə ikinci dəfə ev sahibliyi etməkdən olduqca fərəhlənirik, çünki qeyd edildiyi və göstərildiyi kimi, o, artıq bir dəfə 1973-cü ildə təşkil olunmuşdur. 24-cü Konqres Bakıda keçirilmişdir. Mən bütün qonaqlarımıza və xüsusən də, mənə əziz olan fotonu kosmosa çıxaran cəsur Çin astronavtlarına çox minnətdaram. Bu, sanki onu göstərir ki, mən özüm də oradayam. Mən sizin icmanızın bir hissəsiyəm.

Əlbəttə ki, belə bir mühüm tədbirə ikinci dəfə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir və mən həmin qərarın qəbul olunmasında iştirak edən bütün şəxslərə bir daha təşəkkürümü bildirirəm. Beləliklə, Konqres ikinci dəfə Bakıda, eyni şəhərdə keçirilir. Lakin ölkə eyni deyil. Bu gün həmin qlobal tədbirin ev sahibi müstəqil Azərbaycandır. Bizimlə olduğunuza görə bir daha təşəkkür edirəm və Konqresə uğurlar arzulayıram.

***

Sonra bir sıra nominasiyalar üzrə qaliblərə mükafatlar təqdim olundu.

ABŞ-nin Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA) elm üzrə sabiq köməkçisi Tomas Zurbuxen Azərbaycanın 50 il əvvəl bu mötəbər tədbirə ev sahibliyi etdiyinə diqqət çəkərək dedi: Mən İsveçrə dağlarında böyümüşəm və kosmosa dair baxdığım ilk televiziya şousu Amerika kapsulu ilə sovet kapsulunun birləşməsi ilə bağlı olub. Bu plan 50 il əvvəl məhz burada – Bakıda işlənib hazırlanıb.

***

Tədbirə xüsusi qonaq qismində dəvət olunmuş israilli yazıçı, tarixçi, Qüds İvrit Universitetinin professoru Yuval Noah Harari insanlar tərəfindən yaradılmış süni intellektin hələ inkişafının çox erkən mərhələsində olduğunu vurğulayaraq dedi: On min illər ərzində bizim kimi insanlar Yer planetində dominantlıq ediblər. Əgər biz 50 il geriyə qayıdıb burada – Bakıda keçirilən 24-cü Beynəlxalq Astronavtika Konqresində iştirak edə bilsəydik və ya daha 700 il geriyə qayıdıb Nəsirəddin Tusinin yaxınlıqda tikdirdiyi rəsədxanaya gedə bilsəydik, orada bütün mühüm aspektlərdən bizimlə eyni olan insanlarla rastlaşardıq. Lakin tezliklə bu planetdə insanların dominantlığı erası başa çata bilər.

***

Açılış mərasimi konsert proqramı ilə davam etdi.

***

Qeyd edək ki, 2022-ci il mayın 28-də Bakıda ilk dəfə keçirilən “TEKNOFEST Azərbaycan” Aerokosmik və Texnologiya Festivalında Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanla birgə “Akıncı” pilotsuz uçuş aparatının üzərinə imza atmışdılar.

74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində Selçuk Bayraktar həmin pilotsuz uçuş aparatının kiçikölçülü maketini dövlətimizin başçısına hədiyyə etdi.

**AZƏRTAC**

# Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva sərginin açılışında iştirak ediblər





**Oktyabrın 2-də Bakıda 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi təşkil olunub.**

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və oğulları Heydər Əliyev sərginin açılışında iştirak ediblər.

Sərginin rəmzi açılışını bildirən lentin kəsilməsindən sonra iştirakçı şirkətlərin stendləri ilə tanışlıq olub.

Məlumat verildi ki, 8 min kvadratmetr sahədə yaradılan sərginin pavilyonunda 36 ölkədən 150 şirkətin stendləri iştirakçılara təqdim edilir.

Dövlətimizin başçısı və birinci xanım Türk Kosmik Agentliyinin, Səudiyyə Ərəbistanının Kosmik Agentliyinin, ABŞ-nin Milli Aeronavtika və Kosmos Administrasiyasının (NASA), Hindistanın Kosmik Tədqiqatlar Təşkilatının, “Israel Aerospace Industries” şirkətinin, İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyasının, Çinin Astronavtika Cəmiyyətinin və digər şirkətlərin stendlərinə baxdılar.

Qeyd edək ki, 74-cü Beynəlxalq Astronavtika Konqresi kosmik sahədən olan 22 şirkətin əldə etdiyi sponsorluq paketinin sayına görə rekord həddə çatıb. Belə ki, Bakı Konqresi beynəlxalq sponsorluq paketinin satışı üzrə Avstraliya, Almaniya, ABŞ, Birləşmiş Ərəb Əmirlikləri və Fransada keçirilən konqresləri geridə qoyub. Konqresin ümumilikdə 30-dan çox sponsoru var.

(ardı 4-cü səhifədə)

# Beynəlxalq Astronavtika Konqresi çərçivəsində sərgi

(əvvəli 3-cü səhifədə)

Konqresin "premium", "platinium", "qızıl", "gümüş" və "bürünc" sponsorluq paketlərini əldə edən şirkətlər arasında ABŞ-ın "Space X", "Axiom Space", "Blue Origin", "Boeing", "Lockheed Martin", "BlackSky" "Vast", "Northrop Grumman" şirkətləri, Çinin Astronavtika Cəmiyyəti, Türkiyənin Kosmik Agentliyi, "Plan S" texnologiya şirkəti, Səudiyyə Ərəbistanının Kosmik Agentliyi, "Israel Aerospace Industries" şirkəti, Birləşmiş Ərəb Əmirliklərinin Muhammed Bin Rəşid Kosmik Mərkəzi, Hindistan Kosmik Tədqiqatlar Təşkilatı, Yaponiya Aerokosmik Tədqiqatlar Agentliyi, "ispace", "JGC Holdings Corporation", "Astroscale" şirkətləri, "Airbus" şirkətinin Almaniyadakı ofisi, Beynəlxalq Kosmik Rabitə Təşkilatı "İntersputnik", Portuqaliyanın "Neuraspace", Bolqarıstanın "EnduraSat", Avstriyanın "Asgardia Space", İtaliyanın Aeronavtika və Astronavtika Assosiasiyası, Böyük Britaniyanın Kosmik Agentliyi, Amazonun "Kuiper" layihəsi, "Jet Propulsion Laboratory", "Voyager Space" şirkətləri yer alır.

Bakı Konqresinə, ümumilikdə, 95 ölkədən 3600-dən çox elmi məqalə təqdim olunub. Bakı Konqresi bu göstərici üzrə də Paris (2022), Vaşinqton (2019) və Bremen (2018) tədbirləri ilə birgə indiyədək keçirilən bütün konqresləri geridə qoyub. Konqresə Azərbaycandan təqdim olunan elmi məqalələrin sayı da rekord həcmdə olub – 214. Ölkəmiz ən çox elmi məqalə təqdim edən ölkələr – ABŞ, İtaliya, Hindistan və Çindən sonra ilk beşlikdə yer alır.



Xatırladaq ki, Beynəlxalq Astronavtika Federasiyası İkinci Dünya müharibəsindən sonra "soyuq müharibə" dövründə kosmos sahəsində elm adamlarının arasında dialoqun yenidən qurulması məqsədilə 1951-ci ildə yaradılıb. Federasiya sülh məqsədləri ilə kosmik tədqiqat və fəaliyyətin təşviq edilməsi, cəmiyyətin bu sahədə maariflənməsi və biliklərinin zənginləşdirilməsi məqsədilə üzv qurumlar arasında qlobal şəbəkə yaradır. Hər il federasiya konfrans, texniki sessiyalar, quruma üzv ölkələrin nazirləri və parlament üzvlərinin beynəlxalq iclası kimi beynəlxalq tədbirlər təşkil edir. Hazırda federasiyanın 110 ölkədən 460-dan çox üzvü var. Azərbaycan 2003-cü ildən federasiyanın üzvüdür.

## Azərbaycanını–ICESCO əməkdaşlığı uğurla davam edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva oktyabrın 2-də ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Maliki ilə görüşüblər.**

Görüşdə Azərbaycanda keçirilən və dünyanın müxtəlif ölkələrindən çox sayda qonağın iştirak etdiyi 74-cü Beynəlxalq Astronavtika Konqresinin önəmi vurğulandı, ölkəmizin nüfuzlu beynəlxalq tədbirlərin yüksək səviyyədə təşkil olunduğu məkana çevrildiyi qeyd edildi.

Dövlətimizin başçısı ICESCO-nun Baş direktorunun 74-cü Beynəlxalq Astronavtika Konqresində iştirakını yüksək qiymətləndirdi.

Salim bin Məhəmməd əl-Maliki ötən həftə Qətərin paytaxtı Doha şəhərində keçirilən İslam Dünyası Mədəniyyət Nazirlərinin 12-ci Konfransında iştirakçıların yekdil qərarı ilə Azərbaycanın Şuşa şəhərinin 2024-cü il üzrə ICESCO-nun "İslam dünyasının mədəniyyət paytaxtı" adına layiq görülməsi münasibətilə dövlətimizin başçısını təbrik etdi.

Bu qərarın qəbul edilməsinə görə minnətdarlığını ifadə edən Azərbaycan Prezidenti bunu qardaşlığın və tərəfdaşlığın mühüm nümunəsi kimi dəyərləndirdi, bu hadisənin bütün Azərbaycan xalqında xüsusi qürur hissi doğurduğunu bildirdi.

Dövlətimizin başçısı Şuşada böyük bərpa və yenidənqurma işlərinin həyata keçirildiyini vurğulayaraq, burada digər obyektlərlə yanaşı, məscidlərin də artıq bərpa olunduğunu və bu prosesin davam etdirildiyini məmnunluqla diqqətə çatdırdı. Prezident İlham Əliyev bu cür genişmiqyaslı işlərin işğaldan azad edilmiş digər ərazilərimizdə də icra olunduğunu dedi.

Söhbət zamanı Azərbaycan ilə ICESCO arasında uzun illər həyata keçirilən uğurlu əməkdaşlığın bundan sonra da davam edəcəyinə əminlik ifadə olundu.

## Qarabağda erməni sakinlərin təhlükəsizliyi qorunur



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 2-də Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbini qəbul edib.**

Qonağı salamlayan dövlətimizin başçısı onun səfərinin əhəmiyyətinə toxundu.

Anqlikan Kilsəsinin dini rəhbəri, Kenterberi Arxiyepiskopu Castin Velbi ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Prezident İlham Əliyevə təbriklərini çatdırdı. Qonaq Azərbaycanın multikulturalizm və konfessiyalararası dialoqda rolunu qeyd etdi, Vatikanla Azərbaycan arasındakı əlaqələrə toxundu, Vatikanda katakombaların bərpası işinə ölkəmizin töhfəsini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı müstəqilliyimizin ilk illərində ölkəmizin üzləşdiyi çətinliklərə toxunaraq, həmin dövrdə ərazimizin 20 faizinin işğal edilməsi, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrilməsi, iqtisadi-siyasi böhranın hökm sürməsi, iqtisadi sahədə tənəzzülün və daxili qeyri-sabitliyin yaşanmasından danışdı.

Azərbaycanın sülh müqaviləsi ilə bağlı təşəbbüslə çıxış etdiyini bir daha vurğulayan Prezident İlham Əliyev sülh gündəliyinin irəli aparılması üçün regionda tarixi imkanların və fürsətlərin yarandığını bildirdi, hazırda ölkəmizin bu istiqamətdə göstərdiyi səylərə toxundu.

Azərbaycan Prezidenti antiterror tədbirləri dayandırıldıqdan sonra mərkəzi hökumət tərəfindən Qarabağ bölgəsində yaşayan erməni əhalisinə genişmiqyaslı humanitar yardımlar edildiyini vurğuladı, miqrasiya, sosial müdafiə və səhiyyə sahələri ilə bağlı əhaliyə yerində xidmətlər göstərildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Qarabağın erməni sakinlərinin hüquqlarının və təhlükəsizliyinin təmin olunması ilə bağlı geniş ictimaiyyətə, həmçinin ermənilərə ünvanlanmış bəyanat verdiyini vurğuladı.

Prezident İlham Əliyev Qranadada keçiriləcək qarşıdan gələn görüşün regionda sülh gündəliyinin inkişafına təkan verəcəyinə ümidvarlığını ifadə etdi.

Qonaq bu cür postmünaqişə şəraitində etimad quruculuğu və etnik barışığın vacib olduğunu deyərək, bununla bağlı öz təcrübəsini bölüşməyə hazır olduğunu bildirdi.

Söhbət zamanı etnik barışığın və vətəndaş cəmiyyəti təşkilatlarının rolu qeyd edildi.

**AZƏRTAC**

## T.H.Kərimlinin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycanda ədəbiyyatşünaslıq elminin inkişafında xidmətlərinə görə Teymur Həşim oğlu Kərimli "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 2 oktyabr 2023-cü il**

## Azərbaycan Respublikasında turizm sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda turizm sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Tərəqqi" medalı ilə**

Ağayev Həsən Şahkərəm oğlu
Axundov Fuad Hüseyn oğlu
Davudova Sədaqət Rəhim qızı
Əliyev Nəzər Mirzə oğlu
Əzimov İlqar Firudin oğlu
Kazımova İlhamə Əlixan qızı
Kərəmov Murad İslam oğlu
Qafarova Şükufə Bala Əhməd qızı
Qasımov Kənan İsrail oğlu
Qəhrəmanov Göydəniz İbrahim oğlu
Maqsudov Balaş Maqsud oğlu

**"Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə**

Orucov Azər Aslan oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 2 oktyabr 2023-cü il**

## Fransanın sağalmaz Azərbaycanofobiya, islamofobiya və irqçilik xəstəliyi

**Fransız deputatların Fransa–Azərbaycan dostluq qrupunu tərk etmək barədə açıqlamaları bir daha Fransa cəmiyyətinin sağalmaz Azərbaycanofobiya, islamofobiya və irqçilik mərəzinə tutulduğunu nümayiş etdirir.**

Bu barədə Qərbi Azərbaycan İcması yaydığı məlumatda bildirilir.

Qeyd olunub ki, qondarma qurumun özünü buraxması qərarından mütəəssir olan deputatların bəyanatları həm də onların beynəlxalq hüquqa həqarətli münasibətini və riyakarlığını göstərir.

## Qismət Gözəlov etimadnaməsinin surətini təqdim etdi

**Türkmənistan Nazirlər Kabineti sədrinin müavini - Xarici İşlər naziri Rəşid Merodov Azərbaycan Respublikasının Türkmənistandakı yeni təyin edilmiş fövqəladə və səlahiyyətli səfiri Qismət Gözəlovu qəbul edib. Səfir etimadnaməsinin surətini nazirə təqdim edib.**

Görüşdə qarşılıqlı maraq doğuran və digər məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

**XQ**




**And içirəm ki, Prezident vəzifəsini ali məqsədlər, amallar naminə yerinə yetirəcək, Azərbaycan Respublikasının tam müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlimdən gələni əsirgəməyəcəyəm. And içirəm ki, Azərbaycan Respublikasının Konstitusiyası və qanunlarının həyata keçirilməsinin təminatçısı olacaq, milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam.**

***Azərbaycan Respublikasının Prezidenti***
***Heydər Əliyevin birinci andiçmə mərasimindəki nitqindən***

**10 oktyabr 1993-cü il**

# Otuz il əvvəl oktyabrın bu günü xalq Heydər Əliyevə səs vermişdir

## *İndi həmin hökmün əks-sədasını Xankəndidən eşidirik*

**Bəli, əziz oxucu, bu gün sən Ulu öndərin həmin nitqində səsləndirilən “Azərbaycan Respublikasının tam müstəqilliyini, suverenliyini, ərazi bütövlüyünü təmin etmək üçün əlimdən gələni edəcəyəm və “milliyyətindən, dini etiqadından və siyasi əqidəsindən asılı olmayaraq, Azərbaycan vətəndaşlarının hüquqlarının və azadlıqlarının qorunmasının, müdafiə edilməsinin təminatçısı olacağam” vədlərinin tamamilə günümüzün reallıqlarına çevrildiyinin şahidisən.**

Ümummilli lider həmin nitqində onu da xatırlatmışdı ki, ölkəmizin xeyli hissəsi, Azərbaycan xalqı üçün əziz və mötəbər olan Şuşa şəhəri artıq il yarımdır ki, əlimizdən gedibdir. Laçın, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı rayonlarımız da erməni silahlı qüvvələri tərəfindən işğal olunubdur. Bizim ən əsas vəzifəmiz respublikanı müharibə vəziyyətindən çıxarmaq, işğal olunmuş torpaqların hamısını geri qaytarmaq, Azərbaycanın ərazi bütövlüyünü, müstəqil respublikanın sərhədlərinin təhlükəsizliyini təmin etmək, yurd-yuvasından didərgin düşmüş soydaşlarımızı – bacılarımızı, qardaşlarımızı öz doğma yerlərinə qaytarmaqdır.

Dəyərli oxucu, bir daha xatırladıram ki, sən həmin vədlərin də hamısının reallaşdırıldığını gördün, əlli milyonluq azərbaycanlıların hər biri kimi sən də sevindin, məmnun oldun, fəxr etdin. Sən yaxşı bilirsən ki, Ulu öndərin ilk andiçmədə səsləndirdiyi bu tezislərin həyata keçirilməsini bilavasitə Azərbaycan Prezidenti İlham Əliyev təmin etmişdir. Ancaq onu da bilirik ki, cənab Prezidentin bu möhtəşəm Zəfərinin təməli məhz 1993-cü il oktyabrın 3-də – ulu öndər Heydər Əliyevin ölkədə ilk dəfə Prezident seçildiyi gün qoyulmuşdu.

Mən həmin gün ümummilli liderimizin səs verdiyi seçki məntəqəsində – prezidentliyə namizəd Heydər Əliyevin dörd-beş addımlığında idim və onun böyük qələbəyə olan inamını baxışlarından, təbəssümündən, qətiyyətli səsindən, oxuyanlardan olduğumun məmnunluğunu yaşayırdım. O, inanırdı ki, səsvermədə qalib gələcək, xalqı bu məhrumiyyətlərdən xilas edəcək, dövlət müstəqilliyimizin bir əsrdə ikinci dəfə əldən getməsinin qarşısını alacaq. Ona görə inanırdı ki, xalqın ona olan inam və etimadından xəbərdar idi. Xalqın ona olan inamının təməlində isə ölkəyə birinci dəfə rəhbərlik etdiyi illərdəki təcrübəsi və doxsanıncı illərin əvvəllərində mühasirədə olan Naxçıvanı düşmən işğalından xilas etməsi dururdu.

Xatırladaq ki, 1993-cü ildə Azərbaycanda keçirilən prezident seçkilərində üç namizəd mübarizə apardı. Heydər Əliyev, Karrar Əbilov və Zakir Tağıyev. Ümumi səslərin 98, 80 faizini toplayan Ulu öndər Azərbaycan Prezidenti seçilmişdi.

Fikrimizcə, müstəqil Azərbaycanın həmin seçkilərdən əvvəl – 1993-cü ilin yayında yaşadığı günləri tam təfsilatı ilə yada salmağa qətiyyən ehtiyac yoxdur. Çünki həmin günlər hər bir azərbaycanlının beyninə elə yazılıb ki, bu yazının silinməsi, unudulması qətiyyən mümkün deyil. Belə ki, Azərbaycan həmin əsrdə bir dəfə öz dövlət müstəqilliyinə qovuşmuş, ancaq müstəqilliyin qorunub saxlanılması mümkün olmamışdı. Ona görə də xalqın önündə gedən ziyalılar ikinci müstəqil dövlətimizin taleyindən çox nigaran idilər. İnsanlar 1991-ci ildə qazanılmış müstəqilliyin də əldən getməsindən qorxurdular. Üstəlik, Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktının qəbul edilməsindən 15 iyun 1993-cü ilə – Qurtuluş Gününə qədər ölkədə gedən ictimai-siyasi proseslər ikinci müstəqilliyin də məhvinə zəmin yaradırdı.

Xalq ölkədə amansızcasına davam edən hakimiyyət davasından bezmişdi. Əbdürrəhman Vəzirovun, Ayaz Mütəllibovun, Əbülfəz Elçibəyin dövlət başçısı postunu buraxaraq qaçıb getmək ənənəsi insanları bezdirmişdi. Xalq azadlıq hərəkatının dalğası üzərində hakimiyyətə gəlmiş AXC–Müsavat iqtidarının imperiyapərəst qüvvələrlə apardığı hakimiyyət savaşı ölkəni xaos və anarxiya girdabına yuvarlamış, dövlətçiliyin məhv olmasına real zəmin yaranmışdı. Türkiyəli ekspert Əli Bulacın söylədiyi kimi, həmin günlərdə mütəllibovçu qüvvələr də, Xalq Cəbhəsi də tamamilə hakimiyyətdən uzaqlaşdırılsaydı və hakimiyyətə Əliyev deyil (söhbət Heydər Əliyevdən gedir – red.) başqa bir azərbaycanlı siyasətçi gəlsəydi, bu ölkə yenə də öz bəlaları içərisində bulunacaqdı. Ona görə də hakimiyyət kürsüsünə, idarəetmə sükanı arxasına Heydər Əliyevin gəlməsi zərurətini tarix, zaman yaratmışdı. Xalq bunu yaxşı dərk edirdi. Ona görə də mitinqlərdə, etiraz aksiyalarında belə bir ifadəyə tez-tez rast gəlinirdi: “Oyanmış xalqa yatmış rəhbər gərək deyil!”

Beləliklə, Heydər Əliyev ilk seçkidə qalib gəldi və uçurumun bir addımlığında olan dövlət müstəqilliyimizin qorunub saxlanılmasını təmin etdi. Ulu öndərin Azərbaycan tarixi qarşısındakı ən böyük xidmətlərindən biri isə 2003-cü il oktyabrın 1-də xalqa ünvanladığı müraciət olmuşdu. Böyük dövlət xadimi həmin müraciətində deyirdi: “İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək”.

Bəli, doğrudan da, ümummilli liderimizin başa çatdıra bilmədiyi taleyüklü məsələləri məhz cənab Prezident İlham Əliyev başa çatdırdı. Bu məsələlər hansılar idi?

**Birinci,** Heydər Əliyevin qoruyub saxladığı Azərbaycanın dövlət müstəqilliyinin əbədiləşdirilməsi. Prezident İlham Əliyev Azərbaycanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsinə nail olmaqla sübut etdi ki, biz artıq beynəlxalq aləmin əsas söz sahiblərindən biriyik.

**İkinci,** ölkəmizin ərazi bütövlüyünün bərpası. Prezident İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsinin nəticələri barədə danışarkən dəfələrlə deyib ki, Şuşa şəhəri düşmən əsarətindən azad edilən gün mən getdim Ulu öndərin məzarı önündə dedim ki, tapşırıq yerinə yetirildi.

**Üçüncü,** Ulu öndərin əsas məqsədlərindən biri də Azərbaycanın Türk dünyası ilə əməkdaşlığının yüksək səviyyəyə qaldırılması idi. Bu gün 200 milyondan çox əhalisi olan Türk dünyasında hamı etiraf edir ki, bizi Turan birliyinə aparan iki dahidən biri Rəcəb Tayyib Ərdoğan, o biri isə İlham Əliyevdir.

**Dördüncü,** Ulu öndər bizim Avropa ölkələri ilə əməkdaşlığımıza çox böyük önəm verirdi. Prezident İlham Əliyevin uğurlu siyasi-diplomatik fəaliyyətinin nəticəsi olaraq, bu gün Avropa İttifaqına üzv olan ölkələrdən doqquzu Azərbaycanın strateji tərəfdaşıdır. Bu isə cəmi otuz ildən bir az artıq müstəqillik tarixi olan dövlət üçün olduqca böyük uğurdur.

Bəli, Heydər Əliyev siyasi kursu bizə çox sevinclər yaşadıb. Ancaq Prezident İlham Əliyevin fikrincə, bizim daha böyük uğurlarımız və daha möhtəşəm sevinclərimiz hələ qarşıdadır. İnanırıq ki, Azərbaycan xalqı həmin hədəflərə gedən yolda da Prezident İlham Əliyevin dayağı və dəstəyi olacaq.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Batumidə Ulu öndərə həsr olunmuş fotosərgi

**Dünən Batumi Musiqi Mərkəzində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Heydər Əliyev 100: Firavanlığın memarı” adlı fotosərgi açılıb.**

Sərginin açılışında Acarıstan Muxtar Respublikası Hökumətinin rəhbəri Tornike Rijvadze, hökumət və parlament üzvləri, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, səfirliyin əməkdaşları, Batumidəki Baş konsul Pərviz İsmayılzadə və konsulluğun əməkdaşları, Türkiyənin Batumidəki Baş konsulu, diplomatlar, SOCAR-ın Batumidəki nümayəndəliyinin əməkdaşları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tornike Rijvadze jurnalistlərə müsahibəsində deyib ki, Batumidə Azərbaycan xalqının ümummilli lideri, gürcü xalqının da yaxın dostu Heydər Əliyevin 100 illiyinə həsr olunmuş sərginin açılması bizim üçün çox qürurvericidir və mühüm əhəmiyyət kəsb edir.

***XQ***







# Bişkekdə yubiley nəşri

**Qırğızıstanda Türkdilli Dövlətlərin Siyasətinə Dəstək Fondunun təşəbbüsü ilə ümummilli lider Heydər Əliyevin 100 illiyi münasibətilə Azərbaycan və rus dillərində "Türk dünyasının dahi şəxsiyyəti" kitabı nəşr edilərək təqdim olunub.**

Kitabda Azərbaycan, türk və qırğız alimlərinin Heydər Əliyevin həyat və fəaliyyətinə həsr etdikləri məqalələr toplusundan ibarətdir.

Fondun rəhbəri Nüsrət Məmmədovun sözlərinə görə, topluya daxil olan məqalələri iki hissəyə ayırmaq olar. "Birinci hissəyə Heydər Əliyevi görkəmli dövlət xadimi və müasir Azərbaycanın banisi kimi səciyyələndirən məqalələr daxildir. Məqalələrin ikinci hissəsi isə Ulu öndərin Azərbaycan xalqının mədəniyyətinin, təhsilinin, ədəbiyyatının inkişafı, mədəni irsinin qorunması və təbliği sahəsindəki fəaliyyətinə həsr olunub", – deyə o, bildirib.

***XQ***

# Masallıda multikulturalizm mövzusunda seminar

**Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi “Heydər Əliyev İli” çərçivəsində cari ilin iyun-noyabr aylarında ölkənin 10 rayonunda Ulu Öndərin Azərbaycan multikulturalizminin inkişafında xidmətlərinə həsr olunan seminarlar təşkil edir.**



Qurumun növbəti tədbiri Masallı şəhərində keçirilib.

Tədbiri giriş sözü ilə açan Prezident Kitabxanasının şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru Nazim Mustafa qədim tarixə və zəngin ənənələrə malik Azərbaycanda formalaşan multikultural və tolerant yaşam tərzinin dünyaya nümunə olduğunu vurğulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Araz Qurbanov ümummilli lider Heydər Əliyevin multikulturalizm siyasətinin ölkənin demokratik inkişafının tərkib hissəsi olduğunu bildirib. Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə multikultural dəyərlərin qorunması və inkişafı sahəsində həyata keçirilən siyasi fəaliyyət Prezident İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilir.

***XQ***

# “Azərkosmos” kosmik ailənin fəal üzvüdür

(əvvəli 1-ci səhifədə)

Onu da bildirək ki, ilk dəfə ümummilli lider Heydər Əliyevin rəhbərliyi dövründə – 1973-cü ildə Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresinə 50 il sonra Azərbaycanın yenidən evsahibliyi etməsi böyük rəmzi məna daşıyır.

Dünya miqyasında ən mötəbər tədbirlərdən biri olan bu beynəlxalq konqresin ikinci dəfə Azərbaycanda keçirilməsi ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik icma və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsinə, habelə qlobal kosmos sənayesinə daha yaxından inteqrasiya istiqamətində əvəzolunmaz imkanlar yaradacaq.

Prezident İlham Əliyev bütün bu qeyd edilənlərə əsaslanaraq ötən il fevralın 7-də 74-cü Beynəlxalq Astronavtika Konqresinin 2023-cü ildə Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzalayıb və dünən başlanan tədbirin yüksək səviyyədə reallaşması istiqamətində həmin tarixdən etibarən bir sıra mühüm layihələr reallaşdırılıb.

Bu barədə bəhs etməzdən əvvəl xatırladaq ki, Azərbaycan regionda Beynəlxalq Astronavtika Konqresi kimi mötəbər tədbirə evsahibliyi edən ilk ölkədir. Belə ki, Beynəlxalq Astronavtika Konqresi keçmiş SSRİ-də yalnız bir dəfə paytaxtımızda reallaşıb. 1973-cü ilin oktyabrın 7-dən 13-dək Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə “Kosmik tədqiqatların elm və texnologiyaya təsiri” devizi altında Bakıda keçirilən həmin tədbirdə dünyanın 17 ölkəsindən gələn 1500-dən çox nümayəndə, eləcə də çoxsayda kosmonavt iştirak edib və bununla respublikamızda kosmonavtika tarixinin əsası qoyulub. Az bir müddət sonra isə paytaxtımızda kosmik texnika vasitələrindən istifadə etməklə təbii ehtiyatların tədqiqi üzrə “Kaspi” Elmi Mərkəzi yaradılıb, Azərbaycan Elmlər Akademiyasının nəzdində isə “Kosmik cihazqayırma xüsusi konstruktor bürosu”nun fəaliyyəti ilə kosmik tədqiqatların aparılmasına start verilib. Həmin tədqiqatların nəticəsində istehsal olunan avadanlıqlar keçmiş SSRİ-nin Kosmik Poqramının inkişafında mühüm rol oynayıb, həmçinin “Salyut 7” və “Soyuz T-11” orbital komplekslərində istifadə olunub.

Azərbaycan müstəqilliyə yenidən qovuşandan sonra isə yenidən kosmik sahəyə maraq güclənməyə başladı. Ölkəmiz peyk dövlətinə çevrilməyi qarşıya prioritet vəzifə kimi qoydu. Prezident İlham Əliyev bu məqsədlə 2008-ci il noyabrın 4-də respublikamızda kosmik sənayenin yaradılması və telekommunikasiya peyklərinin orbitə çıxarılması haqqında tarixi sərəncam imzaladı. Bununla da kosmik sənaye sahəsində yeni bir mərhələnin əsası qoyuldu.

Adıçəkilən sənədin imzalanmasından iki il sonra – 2010-cu ildə isə telekommunikasiya peykinin orbitə çıxarılması, idarə olunması və istismar işlərinin həyata keçirilməsi məqsədilə “Azərkosmos” ASC yaradıldı. Nəhayət, 2013-cü ildə “Azerspace-1” telekommunikasiya peyki orbitə buraxıldı. Az sonra Azərbaycanın ikinci peyki kosmosa göndərildi. 2014-ci ildə “Azersky” Yerin məsafədən müşahidəsi peyki istifadəyə verildi. 2018-ci ildə isə “Azerspace-2” telekommunikasiya peyki orbitə çıxarıldı.

Həyata keçirilən bütün bu tədbirlər müharibə şəraitində yaşayan ölkəmizin kosmik sənayesinin inkişafına böyük təkan verdi, Azərbaycanın informasiya təhlükəsizliyini şərtləndirdi, respublikamızda, bölgədə, dünyanın istənilən nöqtəsində baş verən hadisələri izləməyə şərait yaratdı, kənd təsərrüfatının tərəqqisini sürətləndirdi, ekoloji vəziyyətə nəzarəti, torpaqlardan səmərəli şəkildə istifadə edilməsini gücləndirdi, telekommunikasiya sektorunda xarici asılılığı aradan qaldırdı, ixracatçıya çevrilməyi reallaşdırdı.

Bu fikrin təsdiqi olaraq deyə bilərik ki, son illərdə respublikamızda kosmik sənayenin uğurlarına əsaslanılaraq 400-dən çox hökumət layihələri həyata keçirilib. Xüsusilə əsas töhfə kənd təsərrüfatı sahəsində məhsuldarlığın proqnozlaşdırılması olub ki, bu da ərzaq təhlükəsizliyi istiqamətində əhəmiyyətli bir məsələ kimi diqqət çəkib.

Yeri gəlmişkən, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin hazırladığı “İxrac icmalı”nın sentyabr sayına əsasən, 2023-cü ilin 8 ayı ərzində “Azərkosmos” dünyanın 45 ölkəsinə 12,7 milyon dollar dəyərində peyk telekommunikasiya xidmətləri ixrac edib. Bu ixracdan qazanılan gəlir “Azərkosmos”un ümumi gəlirinin 78 faizinə çatıb. Cari ilin avqust ayında isə adıçəkilən qurum dünyanın 40 ölkəsinə 1,5 milyon ABŞ dolları dəyərində xidmət ixrac edib.

Bu ilin yanvar–avqust ayları ərzində peyk telekommunikasiya xidmətlərinin ixracının ilk beşliyində 3,6 milyon dollarla Birləşmiş Krallıq, 2,7 milyon dollarla Lüksemburq, 1,1 milyon dollarla BƏƏ, 713,2 min dollarla Almaniya və 540 min Nigeriya qərarlaşıb.

Qeyd edək ki, “Azərkosmos”un gəlirlərinin əsas hissəsi peyk xidmətlərinin ixracından formalaşır. “Azərkosmos” dövlət və qeyri-dövlət ixracatçı subyektləri arasında xidmət sektorunda ixrac həcminə görə ən yüksək nəticə ilə ilk sıralardadır. Bu isə, öz növbəsində, bir tərəfdən “Azərkosmos”un likvidliyinin güclənməsi, digər tərəfdən isə ölkəyə sabit xarici valyuta axını deməkdir.

**_V.BAYRAMOV_**
**_XQ_**



## Ekspert rəyi

**Emin BAĞIROV,**
**ETN Riyaziyyat və Mexanika İnstitutunun böyük elmi işçisi, mexanika üzrə fəlsəfə doktoru**



Yüksəkixtisaslı peşəkar heyətə və texniki imkanlara malik olan “Azərkosmos” yaradılmasından ötən dövr ərzində ölkədə və bütünlüklə regionda İKT sektorunun aparıcı qüvvələrindən birinə çevrilib. Şirkətin resursları ona müasir infrastruktur əsasında yeni yaranan texnologiyaların tətbiqinə, bununla da yerüstü rabitə şəbəklərinin əhatə dairəsinə düşməyən ərazilərdə peyk əsaslı xidmətlərdən istifadə edilə bilməsi üçün əlavə dəyər yaratmağa imkan verir.

“Azərkosmos“ Bureau Veritas tərəfindən ISO 9001:2008 uyğunluq sertifikatına və ISO 27001 – İnformasiya Təhlükəsizliyi Standartı sertifikatına layiq görülüb. “Azərkosmos” ASC-nin göstərdiyi xidmətlərin keyfiyyətinin yüksək səviyyədə saxlanılması və informasiya təhlükəsizliyinin daima artırılması məqsədilə “Keyfiyyət və informasiya təhlükəsizliyi sahəsində siyasəti” mövcuddur.

Bu məqamda onu da bildirək ki, Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Beynəlxalq Astronavtika Konqresinin Bakı şəhərində keçirilməsi barədə qərar, ilk növbədə, yuxarıda xatırlatdığımız kimi, Azərbaycanın beynəlxalq tədbirlərin yüksək səviyyədə keçirilməsində geniş təşkilatçılıq təcrübəsinin olması ilə bağlıdır. Digər tərəfdən, ölkəmiz “Kosmik klub”un fəal üzvüdür, bu sahədə aktiv işləyir, sürətlə inkişaf edir.

Azərbaycan Prezidenti İlham Əliyev Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimində çıxışında bu nüfuzlu tədbirin respublikamızda kosmos sənayesinin, aparıcı texnologiyaların inkişafına və onun müasirləşdirilməsinə töhfə verəcəyini əminliklə bildirib.

Daha sonra müasirləşmənin Azərbaycanın gələcəklə bağlı baxışlarını, gündəliyini və planlarını əks etdirdiyini vurğulayan dövlətimizin başçısı müstəqillik dövründə ölkəmizin beynəlxalq ictimaiyyətin fəal üzvünə çevrildiyini, siyasətimizin hər zaman aydın, şəffaf və birmənalı olduğunu, dostların qazanılmasına və əməkdaşlığın gücləndirilməsinə xidmət etdiyini də diqqətə çatdırıb.

Prezident İlham Əliyev çıxışında Azərbaycanın 10 ildən artıqdır ki, beynəlxalq kosmos klubunun üzvü kimi tanındığını, hazırda isə iki telekommunikasiya və bir Yer səthinin müşahidəsi peykimizin fəaliyyət göstərdiyini də xatırladıb. Dövlət başçısı, həmçinin bildirib: “Biz Azərbaycanda bu sahəni inkişaf etdirməyə böyük maraq göstəririk. Ölkəmiz beynəlxalq ictimaiyyətin fəal üzvü kimi müxtəlif siyasi, iqtisadi, regional inkişaf proqramlarında iştirak edir”

Beləliklə, ilk dəfə ulu öndər Heydər Əliyevin rəhbərliyi dövründə – 1973-cü ildə Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresinə 50 il sonra Azərbaycanın yenidən evsahibliyi etməsi böyük rəmzi məna daşıyır. Dünya miqyasında ən mötəbər tədbirlərdən biri olan bu beynəlxalq konqresin ikinci dəfə Azərbaycanda keçirilməsi ölkəmizdə kosmik sənayenin inkişafına, beynəlxalq kosmik icma və onu təmsil edən Beynəlxalq Astronavtika Federasiyası ilə əməkdaşlığın genişləndirilməsinə, habelə qlobal kosmos sənayesinə daha yaxından inteqrasiya istiqamətində əvəzolunmaz imkanlar yaradacaq.

### Yarım əsrdən sonra



# Astronavtika Konqresi Azərbaycana qayıtdı

**Milli Məclisin inzibati binasında Beynəlxalq Astronavtika Federasiyasının (BAF) nazirlər və parlament üzvləri üçün 13-cü beynəlxalq toplantısı keçirilib. Sayca 13-cü olan toplantı oktyabrın 2-dən 6-dək ölkəmizin evsahibliyi edəcəyi 74-cü Bakı Beynəlxalq Astronavtika Konqresi ərəfəsində baş tutub. Toplantıya BAF prezidentinin müşaviri Dominik Tilmans moderatorluq edib.**

Tədbiri açan BAF-ın prezidenti Kley Mouri 1950-ci ildən etibarən keçirilən Beynəlxalq Astronavtika Konqresinin əhəmiyyətindən danışıb. O, kosmos fəaliyyətinin yeni texnologiyaların inkişafına, insanların həyat şəraitinin yaxşılaşmasına, iqtisadiyyatın, elmin və təhsilin tərəqqisinə təsiri barədə fikirlərini bölüşüb. O, tədbirin yüksək səviyyədə təşkilinə görə Azərbaycan tərəfinə təşəkkürünü bildirib.

Sonra Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, 50 il bundan əvvəl –1973-cü ildə Bakıda ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə 24-cü Konqres keçirilmişdi. Bu il ulu öndərin 100 illik yubileyinin qeyd edildiyi bir vaxtda ölkəmiz ən böyük kosmik hadisəyə –74-cü Beynəlxalq Astronavtika Konqresinə 2023-cü ildə evsahibliyi edir. Bu, o deməkdir ki, Beynəlxalq Astronavtika Konqresi yarım əsrdən sonra Azərbaycana qayıdır. Həm məzmununa, həm də iştirakçıların sayına görə bu konqresdə əvvəlkilərdən daha çox nümayəndə təmsil olunur.

Qeyd edilib ki, Azərbaycanda astronomiya elminə olan maraq hələ qədim zamanlardan mövcuddur. Bölgəmizdəki ən böyük rəsədxanalardan biri Azərbaycandadır. 13-cü əsrin ortalarında Nəsirəddin Tusi tərəfindən inşa edilən astronomik rəsədxana dünya astronomiya elminin inkişafında özünəməxsus yer tutur. Otuz illik işğal başa çatdıqdan və Ermənistan tərəfindən Azərbaycan torpaqlarında separatizmə son qoyulduqdan sonra regionumuzda sülh naminə innovasiyaların, texnologiyaların tətbiqi üçün ən münasib vaxtdır. Bu gün Azərbaycan siyasi və iqtisadi cəhətdən sabit ölkədir. Biz dövlətimizi regionun enerji, nəqliyyat və kommunikasiya mərkəzinə çevirə bildik. Hələ qədim İpək Yolu müasir Azərbaycandan keçərək ölkənin tarixini, mədəniyyətini və tolerant dünyagörüşünü formalaşdırmışdır.

Komitə sədri bildirib ki, kosmos böyük bir resursdur, peyk sənayesi elm və texnologiyanın, eləcə də rabitə zəncirinin ayrılmaz hissəsidir. Azərbaycan ilk peykinin buraxılmasından – 2013-cü ildən sonra dünya kosmik klubunun fəal üzvü olub. Bir ölkə olaraq, sürətlə inkişaf edən qlobal kosmik ekosistemin bir hissəsi olmaqdan və bu sektorun bütün dünyanın xeyrinə inkişafına töhfə verməkdən məmnunuq.

Daha sonra tədbirin moderatoru, BAF prezidentinin müşaviri Dominik Tilmans kosmos fəaliyyətinin insanların rifahının təmin, iqlim sahəsində risklərin idarə olunmasında, yeni iş yerlərinin açılmasında, ölkələrin təhlükəsizliyinin təmin edilməsində rolu, peyklərlə bağlı həllərin yerinə yetirilməsi barədə fikirlərini bölüşüb. O, ölkələrin kosmos sahəsindəki strategiyalarının müəyyən olunması baxımından bu görüşün əhəmiyyətini vurğulayıb.

**_Ə.BƏDƏLOV_**
**_XQ_**

# İlon Mask Bakıda fərdi nominasiyada qalib elan olundu



**Dünən Bakıda işə başlamış 74-cü Beynəlxalq Astronavtika Konqresi çərçivəsində kosmosun tədqiqi sahəsində mühüm nailiyyətlərə görə mükafatların təqdim edilməsi mərasimi keçirilib.**

“SpaceX”in təsisçisi, baş icraçı direktoru və texniki direktoru İlon Mask fərdi nominasiyada qalib elan edilib. Komandalar arasında qaliblər NASA, ESA, CSA, “James Webb Space Telescope” şirkətləri də olub.

Beynəlxalq Astronavtika Konqresi (IAF) mühüm nailiyyətlər və beynəlxalq əməkdaşlıq mükafatını astrofizik Tomas Zurbuhenə təqdim edilib.



# Nazir Rəşad Nəbiyev “Roskosmos”un baş direktoru ilə görüşüb

**Oktyabrın 2-də rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev 74-cü Beynəlxalq Astronavtika Konqresində iştirak edən Rusiya Federal Kosmik Agentliyinin (“Roskosmos”) baş direktoru Yuriy Borisovla görüş keçirib.**

Görüş zamanı yüksəkixtisaslı yeni nəsil mühəndislərin hazırlanması və digər qarşılıqlı maraq kəsb edən məsələlər müzakirə olunub.

## Azərbaycan və APSCO arasında əməkdaşlığın genişlənir

Həmin gün nazir Rəşad Nəbiyev 74-cü Beynəlxalq Astronavtika Konqresində iştirak məqsədilə ölkəmizdə səfərdə olan Asiya-Sakit Okean Kosmik Əməkdaşlıq Təşkilatının (APSCO) baş katibi xanım Yu Qi ilə ikitərəfli görüş keçirib.

Görüş zamanı Azərbaycan və APSCO arasında elm, tədqiqatlar və təlimlər istiqamətində əməkdaşlığın genişləndirilməsi müzakirə edilib.

**XQ**

# Milli Məclisin payız sessiyası işə başlayıb



**Dünən Sahibə Qafarovanın sədrliyi ilə Milli Məclisin payız sessiyasının ilk plenar iclası keçirildi. İclas açıq elan edildikdən sonra Dövlət himni səsləndirildi. Parlamentin sədri əvvəlcə sentyabrın 19–20-də Qarabağ iqtisadi rayonunda lokal xarakterli antiterror tədbirləri həyata keçirilməsindən danışdı. Dedi ki, bu tədbirlər nəticəsində Azərbaycan ərazisində qanunsuz qalan Ermənistan silahlı birləşmələri və terrorçu qruplar darmadağın edildi, İrəvanın dəstəyi ilə yaradılan kriminal xunta rejiminin fəaliyyətinə son qoyuldu. Artıq Azərbaycanın suverenliyi onun bütün ərazisində bərpa edilib. Bu möhtəşəm uğur 44 günlük Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərin məntiqi davamı və yekunu oldu.**

S.Qafarova qeyd etdi ki, Qarabağda xunta rejimi tamamilə ləğv olundu və xalqımıza yeni böyük qələbə sevincini yaşadan Prezidentimiz və Silahlı Qüvvələrimizin Ali Baş Komandanı cənab İlham Əliyevə, qəhrəman əsgər və zabitlərimizə bir daha minnətdarıq. Antiterror tədbirləri zamanı, eləcə də Birinci və İkinci Qarabağ müharibələrində, digər döyüş əməliyyatlarında Vətən və xalq yolunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edidi.

Qarabağda həyatın normal axarına qayıtması, erməni milliyyətli sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün görülən tədbirlərin uğurla başa çatacağına əminliyini bildirən parlamentin sədri dedi ki, Ermənistanla Azərbaycan arasında sülh sazişinin imzalanması perspektivi indi daha realdır və Cənubi Qafqazda sabitliyin bərqərar ediləcəyi gün uzaqda deyil. Azərbaycan dövləti buna çalışır və biz qarşı tərəfdən də eyni yanaşmanı gözləyirik.

Sonra deputatlar dünyasını dəyişən deputat Madər Musayevin və Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Cari məsələlərdən söhbət açan deputatlar sentyabrın 19–20-də Qarabağda keçirilən lokal xarakterli antiterror əməliyyatından danışdılar. Qeyd edildi ki, Azərbaycan öz ərazisində gələcək faciələrin qarşısını almaq üçün antiterror əməliyyatını həyata keçirməli idi. Çünki Ermənistanın qanunsuz silahlı birləşmələrinin Qarabağda olması ən böyük təhlükə idi və təxribatlarla müşayiət olunurdu. Azərbaycanın Qarabağda həyata keçirdiyi lokal xarakterli antiterror tədbirləri Ermənistana müharibə deyil, ölkəmizdə olan və ərazi bütövlüyünü təhdid edən qeyri-qanuni erməni silahlı birləşmələrinə qarşı idi. Təxminən, 10 min nəfər olduğu güman edilən və Ermənistanın maliyyələşdirdiyi bu qeyri-qanuni birləşmələr bölgədəki insanların, o cümlədən, mülki ermənilərin əmlak və həyat təhlükəsizliyini təhdid edir, Azərbaycana qarşı cinayətlər törədirdi. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə yenilməz Ordumuz bunlara son qoydu.

Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev bugünkü Ermənistan ərazisindən amansızcasına işgəncələrə məruz qoyularaq, təhqir olunaraq qovulmuş soydaşlarımızın Qarabağı tərk etmiş, Azərbaycan vətəndaşlığını qəbul etməyən separatçıların yaşadığı Xankəndi və digər yaşayış məntəqələrinə köçürülməsini təklif etdi.

Bu ilin yaz və növbədənkənar sessiyalarının yekunları barədə məlumat verildikdən sonra S.Qafarova gündəliyə 18 məsələ daxil edildiyini diqqətə çatdırdı və birinci məsələ – Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il payız sessiyasının qanunvericilik işləri planı haqqında Milli Məclisin qərarının layihəsi barədə özü məlumat verdi. Dedi ki, layihə 10 bənddən ibarətdir.

Deputatların təklif və rəylərindən sonra qərar layihəsi səsə qoyularaq qəbul edildi.

S.Qafarova gündəlikdəki növbəti 10 məsələnin hökumətlərarası sazişdən ibarət olduğunu bildirdi. Qeyd etdi ki, qanun layihələri birinci oxunuyşda qəbul olunmalıdır. Müzakirələrdən sonra qərara alındı ki, "Azərbaycan Respublikası hökuməti və Türkdilli Ölkələrin Parlament Assambleyasının Katibliyi (TürkPA Katibliyi) bundan sonra Türk Dövlətləri Parlament Assambleyası adlandırılsın.

"Azərbaycan Respublikası hökuməti ilə Gürcüstan hökuməti arasında müdafiə sahəsində əməkdaşlıq haqqında Saziş" də diqqət çəkən layihələrdən oldu. Layihəyə əsasən, Azərbaycan və Gürcüstan hərbi təhsil, treninq və təlimlər, müdafiə və təhlükəsizlik siyasəti, sülhməramlı və humanitar əməliyyatlar, NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramı çərçivəsində, silahlara nəzarət və tərksilah, hərbi qanunvericilik mülki-hərbi əməkdaşlıq, müdafiə sahəsində kibertəhlükəsizlik, hərbi xəritəçilik, və hərbi tibbi xidmətlər; qarşılıqlı maraq kəsb edən digər məsələlər barəsində əməkdaşlıq edəcəklər.

Azərbaycan Respublikası hökuməti ilə Özbəkistan Respublikası hökuməti arasında Azərbaycan–Özbəkistan İnvestisiya Fondunun adı dəyişdirilərək, Azərbaycan–Özbəkistan İnvestisiya Şirkəti (Fond) adlanacaq.

Sonra gündəlikdəki digər məsələlər də müzakirə olunaraq müvafiq qərar qəbul edildi.

Bununla da Milli Məclisin payız sessiyasının ilk iclası öz işini başa vurdu.

**Əliqismət BƏDƏLOV**
**XQ**

# Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının açıqlaması

**Azərbaycan Respublikası Qarabağ bölgəsində yaşayan erməni sakinlərin reinteqrasiyası ilə bağlı əməli fəaliyyətə başlayıb. Bununla əlaqədar, Qarabağın erməni sakinləri ilə təmaslar üzrə müəyyən edilmiş məsul şəxs Ramin Məmmədov 2023-cü il sentyabrın 21-də, 25-də və 29-da Yevlax və Xocalı şəhərlərində erməni sakinlərin nümayəndələri ilə görüşüb.**



Görüşlərdə Azərbaycan Respublikasının reinteqrasiyaya dair planları təqdim edilib və onun ətrafında müzakirələr aparılıb.

Qeyd edilib ki, reinteqrasiya Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyi çərçivəsində Azərbaycan Respublikasının Konstitusiyası, qanunları və beynəlxalq öhdəlikləri əsasında həyata keçirilir.

Etnik, dini və ya dil mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə, o cümlədən hər kəsin təhlükəsizliyinə təminat verilir.

**Hüquqi və idarəetmə sahəsi:**

Erməni sakinlərin yaşadıqları ərazilərdə idarəetmə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri vasitəsilə həyata keçirilir. Sakinlər xüsusi nümayəndəliklərin işinə cəlb oluna bilər.

Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, seçkilər vasitəsilə bələdiyyələr formalaşdırılır.

Sakinlərin vətəndaşlıq məsələləri Azərbaycan Respublikasının Konstitusiyasına və qanunvericiliyinə uyğun olaraq, müvafiq prosedurlar əsasında həyata keçirilir.

**Təhlükəsizlik sahəsi:**

Tərk-silah və tərxis prosesi başa çatdırılır, bütün silahlar sakinlərdən yığılır.

Azərbaycan Respublikasının daxili işlər orqanları ərazidə ictimai asayişin qorunmasını və sakinlərin təhlükəsizliyini təmin edir. Sakinlər daxili işlər orqanlarına işə cəlb oluna bilər.

**İqtisadi sahə:**

Sakinlərin yaşadıqları ərazilərin fiziki və sosial infrastruktur təminatı (təhsil, səhiyyə, enerji, qaz, su, yol, rabitə, meliorasiya və s.) müəyyən müddət ərzində ölkə üzrə orta göstəricilər səviyyəsinə çatdırılır.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadi inkişafın sürətləndirilməsi məqsədilə tətbiq edilən xüsusi iqtisadi rejim ilə bağlı təşviq paketi, o cümlədən vergi və gömrük güzəştləri sakinlərin yaşadıqları ərazilərə şamil olunur.

Azərbaycan Respublikasının milli valyutasının tam tədavülə keçməsi təmin edilir.

Sakinlərin yaşadıqları ərazilərdə sahibkarlıq fəaliyyəti üçün dəstək tədbirləri həyata keçirilir. Ölkədə sahibkarlıq subyektlərinin maliyyəyə çıxış imkanlarının artırılması ilə bağlı tətbiq olunan güzəştli kreditlər, faizlərin subsidiyalaşdırılması, kreditlərə zəmanətin verilməsi və digər maliyyə alətləri sakinlərin yaşadıqları ərazilərə şamil olunur.

Fermerlərə subsidiyalar verilir və onlar torpaq vergisi istisna olmaqla, bütün vergilərdən azad edilir.

Mülkiyyət məsələləri Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq tənzimlənir.

**Sosial sahə:**

Sakinlər ölkə üzrə əməyin ödənişi və sosial ödənişlər sistemi ilə əhatə olunur.

Sakinlərə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında sosial sahədə tətbiq olunan güzəştlər, sosial xidmətlər və məşğulluq proqramları şamil edilir.

Sakinlər səyyar xidmətlərdən (Səyyar ASAN və Səyyar DOST) faydalanırlar.

**Mədəniyyət, təhsil və din sahəsi:**

Sakinlərin öz mədəniyyətini, etnik-mədəni xüsusiyyətlərini qorumaq və inkişaf etdirmək hüququ təmin edilir.

Dini etiqad azadlığı, mədəni və dini abidələrin mühafizəsi təmin olunur.

Erməni dilinin istifadəsinə imkan yaradılır.

Reinteqrasiyanın praktiki icrası ilə bağlı erməni sakinlərin nümayəndələri ilə təmaslar davam etdiriləcək.

# Bakıda "SPACE 2030: Qlobal Kosmos İqtisadiyyatında Siyasət və Strategiyalar" mövzusunda sessiya

**Milli Kosmik Siyasət kosmik sektorun milli iqtisadiyyata töhfəsini artırmaq və kosmik agentliklərin regional və beynəlxalq mövcudluğunu təşviq etmək məqsədi daşıyır.**



Siyasət ölkələrin kosmik sənayesi və 2030-cu ilə qədərki illər üçün fəaliyyətləri, o cümlədən kosmosla bağlı hökumət fəaliyyəti, kommersiya fəaliyyətləri, dövlət və özəl sektorlar, akademik institutlar, tədqiqat və inkişaf mərkəzləri tərəfindən həyata keçirilən elmi fəaliyyətlər üçün ümumi çərçivəni müəyyən edir.

Bu barədə oktyabrın 2-də Heydər Əliyev Mərkəzində keçirilən "SPACE 2030: QLOBAL Kosmos İqtisadiyyatında Siyasət və Strategiyalar" mövzusunda sessiyada bildirilib.

Sessiyanın moderatoru "Azərkosmos"un sədr müavini Dunay Bədirxanov iştirakçılara Azərbaycan Kosmik Agentliyinin (Azərkosmos) İdarə Heyətinin sədri Saməddin Əsədov, İsrail Kosmik Agentliyinin direktoru Uri Oron, Türkiyə Kosmik Agentliyinin (TUA) prezidenti Serdar Hüseyin Yıldırım və Qazaxıstanın rəqəmsal inkişaf, innovasiya və aerokosmik sənaye nazirinin müavini Malik Oljabekov barədə məlumat verib.

Azərbaycan Kosmik Agentliyinin İdarə Heyətinin sədri Saməddin Əsədov bildirib ki, kosmos ekosistemində, kosmik iqtisadiyyatda əhəmiyyətli imkanlar təqdim edir, kosmos elmi və texnologiyasının DİM-lərinin (Davamlı İnkişaf Məqsədlər) həyata keçirilməsinə kömək etmək üçün əvəzsiz alətlər kimi istifadəsinə töhfə verir.

Panel müzakirələri kosmik məsələlərlə bağlı yaranan siyasət müzakirələrini əhatə edəcək və kosmos ekosistemində problemlərin və dəyişikliklərin effektiv həlli üçün hökumətlər, sənaye və özəl sektor, akademik və cəmiyyət arasında dialoqu dəstəkləmək və təşviq etmək üçün maraqlı tərəflərlə əlaqəni davam etdirəcək.

## Azərbaycan 2030-cu ildə Aya və Marsa missiya göndərməyi planlaşdırır

Azərbaycan son 10 ildə kosmik sahənin inkişafına 600 milyon dollar investisiya yönləndirib.

Bu sözləri "SPACE 2030: Qlobal Kosmos İqtisadiyyatında Siyasət və Strategiyalar" mövzusunda sessiyada çıxışında Azərbaycan Kosmik Agentliyinin İdarə Heyətinin sədri Saməddin Əsədov deyib.

Sədr qeyd edib ki, bu gün İsrail ilə kosmik peykin orbitə çıxarılması ilə bağlı bağlanan müqavilə ilə yanaşı, Azərbaycan hökuməti kosmos proqramını davam etdirəcək.

S.Əsədov sonra bildirib ki, Azərbaycan Aya və Marsa 2030-cu ildə missiya göndərməyi nəzərdə tutur.

## Serdar Hüseyin Yıldırım: "IAC-2023" bütün kosmik insanları birləşdirən mötəbər platformadır

Ölkəmizin nailiyyətlərini bu Konqres və sərgidə nümayiş etdirməkdən şərəf duyuruq. Bakıda keçirilən Beynəlxalq Astronavtika Konqresi ("IAC-2023") sözsüz ki, qardaş ölkəmiz Azərbaycanda, dünyanın hər yerindən olan "Bütün kosmik insanları birləşdirən" mötəbər platformadır.

Bu sözləri Türkiyə Kosmik Agentliyinin prezidenti Serdar Hüseyin Yıldırım deyib.

TUA prezidenti bildirib ki, "IAC-2023"ün sponsoru olmaq TUA üçün Türkiyənin ən sürətlə inkişaf edən şəhərlərindən olan Antalyada "IAC-2026"ya ev sahibliyi etmək öhdəliyimizi təsdiqləmək üçün bir şansdır.

**XQ**

# Qarabağda silahlı təxribat

**Qarabağda Rusiya–Azərbaycan birgə patrulu atəşə tutulub.**

Bu barədə Rusiya Müdafiə Nazirliyi məlumat yayın. Bildirlir ki, hadisə Xankəndidə baş verib. Naməlum şəxsin snayperdən istifadə etdiyi, hadisə zamanı xəsarət alan olmayıb.

"Rusiya sülhməramlı kontingentinin komandanlığı Azərbaycan tərəfinin və Qarabağın nümayəndələri ilə birlikdə bu faktla bağlı araşdırma aparır", – Rusiya Müdafiə Nazirliyinin açıqlamasında qeyd olunub.

**XQ**

# Ermənilər məscidlərimizi təhqir etməkdən çəkinməyiblər

**Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirlərindən sonra ərazilərə baxış keçirilərkən məscidlərimizin ermənilər tərəfindən təhqir edilməsi barədə növbəti faktlar üzə çıxıb.**

Şuşa rayonunun Malıbəyli kəndində XVII əsrdə tikildiyi ehtimal edilən Malıbəyli məscidinin də vaxtilə işğal altında olan digər məscid və abidələrimiz kimi heyvan axırı qismində istifadə olunduğu aşkarlanıb.

Qeyd edək ki, Malıbəyli məscidinin minarəsi hələ 1992-ci ildə Ermənistan silahlı qüvvələri tərəfindən uçurdulub, tavanı bir neçə yerdən yandırılaraq yararsız hala salınıb.

**XQ**

# Bir həftəyə 380 yoluxma

**Sentyabrın 25-dən oktyabrın 1-dək Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 380 yoluxma faktı qeydə alınıb, 221 nəfər müalicə olunaraq sağalıb.**




Nazirlər Kabineti yanında operativ qərargahdan verilən məlumata görə, ötən həftə analiz nümunələri müsbət çıxan 11 nəfər vəfat edib.

İndiyədək ölkədə, ümumilikdə, 833 min 189 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 822 min 484 nəfər müalicə olunaraq sağalıb, 10 min 332 nəfər vəfat edib. Aktiv xəstə sayı 373 nəfərdir.

Son həftədə yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 3 min 856, bu günə qədər isə, ümumilikdə, 7 milyon 688 min 73 test icra olunub.

**XQ**

# İran 3+3 formatını dəstəkləyir

**Rəsmi Tehran Qafqaz regionunda sülh və sabitliyin hökm sürməsində maraqlıdır və buna görə də bəyan etmişdir ki, İran işğal olunan Qarabağın Azərbaycana qaytarılmasının tərəfdarıdır.**



Bu sözləri İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nasir Kənani bu gün Tehranda keçirdiyi həftəlik mətbuat konfransında deyib.

O, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Zəngəzur dəhlizinin açılmasının zəruriliyi barədə fikirlərinə də münasibət bildirib: "Biz regionun bütün ölkələrinin maraqlarını təmin edən kommunikasiyaların inkişafının tərəfdarıyıq. İran region dövlətlərinin arasındakı məsələlərin 3+3 formatında həll olunmasını istəyir və bölgəyə kənar qüvvələrin cəlb edilməsinin əleyhinədir".

N.Kənani qeyd edib ki, Azərbaycanın rəsmi şəxslərinin İrana səfəri hazırlanır: "Bu səfərlə bağlı işlər və danışıqlar aparılır. Ümid edirik ki, səfər baş tutacaq və Azərbaycanın İrandakı səfirliyi fəaliyyətini bərpa edəcək".

**XQ**

# Naxçıvan MR Ali Məclisinin payız sessiyası





**Dünən Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin XI (payız) sessiyasının ilk iclası keçirilib.**

Sessiyanın gündəliyinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Qanunvericilik işləri planının təsdiq edilməsi; "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi; Naxçıvan Muxtar Respublikası Ali Məclisinin İntizam Komissiyasının tərkibində dəyişiklik edilməsi məsələləri daxil edilib.

Naxçıvan MR Ali Məclisi sədrinin birinci müavini Azər Zeynalov birinci məsələ – Ali Məclisin 2023-cü il payız sessiyasının qanunvericilik işləri planının qərar layihəsi ilə bağlı məlumat verib. Müzakirə olunan layihə qəbul edilib.

Gündəlikdə duran ikinci məsələ – "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Hüquq siyasəti komitəsinin sədri İsmayıl Qəribli məlumat verib, layihə qəbul olunub.

Gündəlikdə duran üçüncü məsələnin müzakirəsi zamanı qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Daxili Nizamnaməsinin 46.2-ci maddəsinə əsasən komissiyanın tərkibində dəyişiklik edilməsi zərurəti yaranıb. Müzakirə olunan məsələ ilə əlaqədar deputatlardan Telman Möhbəliyev, Hüseyn Niftəliyev, Tofiq Babayev İntizam komissiyasının üzvləri seçiliblər.

Ali Məclis sədrinin birinci müavini Ali Məclisin sessiya iclaslarında deputatların iştirakının və fəaliyyətinin Daxili Nizamnaməyə əsasən qurulmalı olduğunu diqqətə çatdırıb. Azər Zeynalov Zəngəzur dəhlizinin açılması, bölgədə sülhün bərqərar olunması istiqamətində Prezident İlham Əliyevin qətiyyətli mübarizə apardığını bildirib. O qeyd edib ki, Zəngəzur dəhlizinin açılması Naxçıvanın 30 illik blokadadan çıxmasına şərait yaradacaq. Görülən işlərdə ölkə başçısına dəstək ifadə olunub.

Bununla da Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin XI (payız) sessiyasının ilk iclası öz işini başa çatdırıb.



***

Həmin gün deputatlar və Ali Məclisin məsul əməkdaşları müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə parlamentin foyesində təşkil olunmuş sərgiyə baxıblar.

Ekspozisiyada dahi şəxsiyyətin 1990–1993-cü illərdə Naxçıvan Muxtar Respublikasında yaşadığı, Ali Məclisin deputatı və Sədri işlədiyi dövrlərdə siyasi və dövlətçilik fəaliyyətini əks etdirən fotoşəkillər sərgilənir. Ali Məclis sədrinin birinci müavini Azər Zeynalov bildirib ki, dahi rəhbərin siyasi fəaliyyətinin Naxçıvan dövrü nə qədər çətin və mürəkkəb bir zamana təsadüf etsə də, bu dövr Azərbaycanın müstəqillik tarixində çox böyük dəyərə malikdir.

Qeyd edilib ki, 1991-ci il sentyabrın 3-dən Naxçıvandan başlanan müstəqillik yolu 1993-cü ildən xilaskar liderin müdrik daxili və xarici siyasəti ilə ölkə miqyasında davam etdirilib. Azərbaycanın inkişaf strategiyasının əsasını təşkil edən Heydər Əliyev yolunu bu gün Respublika Prezidenti İlham Əliyev uğurla davam və inkişaf etdirir.

**XQ**

**Türk Dövlətləri Təşkilatı birliyin qurucu razılaşması olan 2009-cu il Naxçıvan Bəyannaməsinin ildönümü ilə bağlı paylaşım edib.**



# Türk birliyinə aparan yolun başlanğıcı

TDT-nin mətbuat xidməti sosial şəbəkədə qeyd edib: "Türk Dövlətləri Təşkilatının qurucu razılaşması olan Naxçıvan Bəyannaməsinin 14-cü ildönümü və bu münasibətlə elan edilən 3 Oktyabr – Türk Dövlətləri Əməkdaşlığı Günümüz mübarək olsun! Biz birlikdə daha güclüyük!".

Xatırladaq ki, Naxçıvan Bəyannaməsi 2009-cu il oktyabrın 3-də Türkdilli Ölkələrin Dövlət Rəhbərlərinin IX Zirvəsində Azərbaycan, Qazaxıstan, Qırğızıstan və Türkiyə tərəfindən imzalanan və Türk Şurasının yaranmasına gətirib çıxaran tarixi sənəddir.

**XQ**

# Uşaqların zərərli informasiyalardan qorunması günün tələbidir



**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə oktyabrın 2-də "Uşaqların informasiya təhlükəsizliyi: problemə kompleks yanaşma" mövzusunda konfrans keçirilib.**

Komitə sədri Bahar Muradova uşaqlara qarşı zorakılıqla mübarizənin bir istiqaməti kimi informasiya təhlükəsizliyi məsələsinin bütün cəmiyyətlərdə ilk yerdə dayandığını bildirib. Uşaqların zərərli informasiyadan qorunması istiqamətində ölkəmizdə güclü hüquqi bazanın formalaşdırıldığını qeyd edən Bahar Muradova bu istiqamətdə qəbul edilən müvafiq qanunvericilik aktlarının həyata keçirilməsində rəhbərlik etdiyi komitənin, eləcə də müvafiq qurumların üzərinə böyük vəzifələr qoyulduğunu diqqətə çatdırıb.

Bahar Muradova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin bu sahədə istər dövlət qurumları, istərsə də özəl təşkilatlar, vətəndaş cəmiyyəti institutları ilə birgə fəaliyyət göstərdiyini diqqətə çatdırıb və görülən işlərdən, qarşıda duran vəzifələrdən danışıb.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova qeyd edib ki, infodemiya – müxtəlif məzmunlu informasiya bolluğu dövründə uşaqların zərərli, manipulyativ və saxta informasiyalardan qorunması olduqca vacibdir. O, uşaq və yeniyetmələri informasiya məkanında artan təhlükələrdən qorumaq məqsədilə dövlət tərəfindən hüquqi və əməli tədbirlərin görüldüyünü, sistemli fəaliyyət reallaşdırıldığını bildirib və bu sahədə Dövlət Komitəsinin fəaliyyətini yüksək qiymətləndirib.

Audiovizual Şuranın aparat rəhbəri Fazil Novruzov çıxışında informasiya kirliliyi dövründə təhlükəsizlik məsələləri ilə bağlı koordinasiyalı iş aparılmasının, həmçinin maarifləndirmənin əhəmiyyətindən danışıb.

Mətbuat Şurasının sədri Rəşad Məcid uşaqların informasiya təhlükəsizliyi məsələsinin mühüm məqamlarına toxunub, əsas tənzimləyici vasitənin filtr proqramları və valideyn məsuliyyəti olduğunu bildirib. O, Dövlət Komitəsi tərəfindən hazırlanmış hesabatı, eləcə də qadın və uşaq mövzularının mediada işıqlandırılması prinsiplərini özündə əks etdirən tövsiyələri yüksək qiymətləndirib, gələcəkdə bu sahədə birgə əməkdaşlıq təkliflərini irəli sürüb.

**XQ**

# "Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik"

## Dövlətimizin başçısı reallıqları xatırlamaqla diqqəti anti-Azərbaycan ritorikasından uzaq durulmasının vacibliyinə yönəldir

**(əvvəli 1-ci səhifədə)**

Dövlətimizin başçısının söylədikləri Azərbaycanın son aylar ərzində məqsədinə necə ildırım sürəti ilə çatdığının təsdiqidir. Yada salaq ki, bir müddət əvvəl Prezidentin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev özünün sosial şəbəkə hesabında yazmışdı ki, Azərbaycanın ərazisində "boz zona"lar olmamalıdır. Cənab Hacıyev bu fikri Qarabağdakı separatçı rejimə keçirilmiş "prezident" seçkisinə reaksiya fonunda qabartmışdı.

Dövlətimizin başçısının bildirdiyi kimi, artıq Azərbaycan ərazisində "boz" zonalar yoxdur. Ölkəmiz özünün suverenliyini tam şəkildə bərpa edib. Ancaq Prezident İlham Əliyev heç bir sözü elə-belədən dilə gətirmir. Biz Ermənistandakı bəzi revanşist-şovinist qüvvələrin aktivləşdiyinin şahidiyik. Doğrudur, onlar, əsasən, baş nazir Nikol Paşinyan üzərinə fokuslanıblar və daha çox onu qınayırlar. Yəni, bu kateqoriyadan olanların da əvvəlki müharibə ritorikasından əsər-əlamət yoxdur. Ancaq illüziyalara qapılma klassik erməni xəstəliyinin nəticəsidir. Mövcud yaramaz dəst-xətti seçənlər rəsmi İrəvana təsir göstərirlər və Nikolun komandası daxili etirazçı ictimai rəyi yenmək üçün anti-Azərbaycan ritorikasına baş vurur və nəticədə biz görürük ki, sülhdən yayınma meyilləri özünü aşkar formada göstərir. Hələ bu meyillərin körüklənməsində Fransanın rolunu da vurğulamalıyıq. Məlum olduğu kimi, bu gün ölkənin xarici işlər naziri Ketron Kolonna İrəvana gəlir. Müdafiə naziri Sebastyan Lekornyu isə Ermənistanın müdafiə qabiliyyətinin artırılmasının vacibliyindən söz açıb, mövcud istiqamətdə Prezident Emmanuel Makronun həssas yanaşmasını dilə gətirib və İrəvanın Paris üçün əhəmiyyətindən söz açıb. Bu, azmış kimi, Fransanın sabiq prezidenti Fransua Oland deyib ki, Ermənistanın sərhədləri ölkəsi üçün müqəddəsdir.

Qeyd edək ki, rəsmi İrəvan Azərbaycan və Ermənistan liderlərinin Avropa Şurası İttifaqının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə oktyabrın 5-də Qranadada keçiriləcək Avropa Siyasi Birliyinin üçüncü Zirvə toplantısı çərçivəsində keçirilməsi planlaşdırılan görüşünə razılıq verib. Görüşün gündəliyində başlıca yeri iki Cənubi Qafqaz ölkəsi arasında sülh müqaviləsi təşkil edir. Yəni, mövcud istiqamətdə əsaslı irəliləyişə nail olunması nəzərdə tutulur. Ancaq hazırkı dövrdə Ermənistan rəhbərliyinin, eləcə də xaricdəki ermənipərəst dairələrin canfəşanlığından belə nəticə çıxarmaq mümkündür ki, həm ümumi anlamda, həm də sırf Qarabağ erməniləri müstəvisində çirkin oyuna start verilib. Bakının onlara qarşı etnik təmizləmə siyasəti aparıldığına dair iddia qabardılır və çalışılır ki, mövcud xüsusda yeni reallıqlar formalaşsın. Çox güman ki, Azərbaycan Prezidentinin xəbərdarlığı da buna görədir.

Dövlətimizin başçısı Ermənistanın keçmiş kriminal rəhbərliyi ilə bağlı söz açarkən də, ölkə daxilində hazırda iqtidara qarşı barışmaz mövqe ortaya qoyan müxalif kəsimə ehyam vurur. Axı, revanşist və şovinistlərin sıraları onlardan təşkil olunub. Kimlər idi bu adamlar, Prezident açıqlayır: "Onlar Azərbaycan torpaqlarını talayanlar idi. İyirmi il ərzində onlar əllərindən gələni edirdilər ki, bizim işğal olunmuş torpaqlarımızda bu taktikanı işlətsinlər, həmin taktikanı Ermənistanda da tətbiq etməyə başladılar", – deyən dövlətimizin başçısı belələrinə erməni xalqının da dərin nifrət bəslədiyini qabardır.

Bəli, 2018-ci ildə Ermənistanda baş vermis inqilab nəticəsində hakimiyyətə gəlmiş qüvvələrin pozitiv mövqe tutacağına ümid bəslənilirdi. Yalnız Azərbaycan hakimiyyəti yox, eyni zamanda, bütövlükdə dünya ictimaiyyəti inanırdı ki, xunta rejiminin tarixə qovuşması ilə, nəhayət, Qarabağ münaqişəsi həllini tapacaq. Ancaq cənab İlham Əliyevin də bildirdiyi kimi, hazırkı Ermənistan hakimiyyəti ilə bağlı olan ümidlər şişirdilmişdi: "İndiki Ermənistan hakimiyyəti istəsəydi, Azərbaycanla sülhə gələrdi, bunu edə bilərdi. Azərbaycan buna hazır idi, beynəlxalq vasitəçilər bunu bilirdilər. Keçmiş həmsədrlər bilirdi ki, biz bunu Azərbaycanın ərazi bütövlüyünün bərpası əsasında dinc yolla həll etməyə hazır idik. Biz Azərbaycandakı erməni azlığın hüquqlarını bərpa etməyə, təmin etməyə hazır idik".

Bəli, məlumdur ki, ümidlər özünü doğrultmadı. N.Paşinyan nəinki danışıqlar prosesini pozdu, eyni zamanda, tam demarş xətti seçərək "Qarabağ Ermənistandır və nöqtə" bəyanatını verdi. Bu bəyanatdan sonra olanlar isə hər kəsə yaxşı məlumdur. Həm 44 günlük müharibənin Ermənistan üçün acı nəticələri göz önündədir, həm də ölkəmizin sentyabrın 19-da başladığı lokal xarakterli antiterror tədbirləri Qarabağda separatizmin kökünü kəsib. Ancaq Prezident İlham Əliyev şans yaradır və bildirir ki, Qarabağın erməni əhalisinin hüquqlarını təmin edəcəyik: "Artıq biz onlara bu məsələ ilə bağlı, reinteqrasiya ilə bağlı öz baxışımızı təqdim etmişik, onların dini, təhsil, mədəni, bələdiyyə hüquqları – beynəlxalq konvensiyalara uyğun olaraq bütün bu məsələlər həll ediləcək. Bu, Azərbaycanın iştirakçısı olduğu bütün konvensiyalara, bizim konstitusiyamıza və beynəlxalq öhdəliklərimizə uyğun həyata keçiriləcək".

Lakin Ermənistan nəticə çıxarmaq istəmir. Ölkənin hazırkı siyasi xətti də bunu söyləməyə ciddi əsas formalaşdırmaqdadır. Deməli, Prezident İlham Əliyevin məsələyə keçmişin prizmasından izah etməklə aydınlıq gətirməsində məntiq var. Dövlətimizin başçısı vurğulayır ki, İkinci Qarabağ müharibəsindən əvvəlki vəziyyətə qayıdanda, hazırkı Ermənistan hakimiyyəti fürsəti əldən verdi: "Onlar bizi düzgün qiymətləndirmədilər, öz imkanlarını düzgün qiymətləndirmədilər. Onların planları var idi ki, bizə qarşı xarici hərbi yardım olunacaq. Onlar, təbii ki, burada ciddi yanıldılar".

Yuxarıda da diqqətə çatdırdığımız kimi, "fransuzski" kolonnalar, sebastyanlar, olandlar Ermənistanı düz yola gəlməkdən yayındırırlar, ölkənin müdafiə qabiliyyətini artırmaq adı ilə onu özlərinin avantürist xarici siyasətindəki alətə çevirirlər. Halbuki, belə olmamalıdır. Elə ona görə də dövlətimizin başçısı Azərbaycanın davranışına nümunəvilik məntiqi qazandıraraq vurğulayır: "Otuz il ərzində münaqişədən, soyqırımından, nifrətdən əziyyət çəkən xalq və ölkə ciddi siyasi iradə göstərdi, siyasi addım atdı: biz sülh təklif etdik. Biz müvafiq komissiyaların yaradılmasını təklif etdik ki, sərhədin delimitasiyası aparılsın. Ancaq Ermənistan buna müsbət cavab vermədi. Həmin bu yeni sülh danışıqları heç bir tərəqqiyə gətirib çıxarmadı. Üç il ərzində bunu etmək olardı. Yenidən yanlış hesablama, yenidən hansısa xarici himayədarlara arxalanma yenidən çətin və mürəkkəb vəziyyət yaratdı".

Bəli, lokal xarakterli antiterror tədbirlərinin böyük uğuru Ermənistanın və havadarlarının hesablamalarının bic doğulmaq aqibətinin də göstəricisi idi. Azərbaycan öz suverenliyini bərpa etməklə, haqqına sahibləndi. Niyəsə bu sahiblənmə kimlərsə tərəfindən Ermənistana təcavüz məntiqində anlaşılır. Halbuki, Qarabağın Ermənistan olmaması, Azərbaycana məxsusluğu beynəlxalq hüquq baxımından da təsdiqini tapmış reallıqdır. Bu reallığı dərk etmək istəməyənlər barədə söz açdıq. Azərbaycan Prezidenti çıxışında ölkəmizin hərbi qüdrətini vurğulayaraq onlara da xəbərdarlığını çatdırır: "Antiterror tədbiri 24 saatdan az müddətdə həyata keçirildi. Bunun nəticəsi nə oldu? Biz davam etdikmi? Xeyr! Bizim belə bir niyyətimiz yox idi. Biz nəticədə harada istəsəydik orada dayanacaqdıq. Bunu demək o qədər də çətin deyil. Ancaq bizim niyyətimiz bundan ibarət deyildi. Biz Ermənistanın ərazi bütövlüyünü tanımışıq, bunu bəyan etmişik və bunu səmimi deyirik. Yəni, bizim başqa niyyətlərimiz olsaydı, əməliyyat sentyabrın 20-də dayanmazdı. Mən bunu hər kəsin bilməsini istəyirəm. Bunu Ermənistan hakimiyyəti də bilsin, onun arxasında duran himayədarları da bilsinlər. Bu gün Azərbaycana qarşı qəbuledilməz planlar cızan tərəflərə buradan mesaj verirəm: Bizim səbrimizlə oynamasınlar. Biz səbirliyik, ancaq qətiyyətliyik. Biz haqlı olduğumuzu sübut edə bilirik və edirik. Ona görə yox ki, bizim gücümüz var, çünki haqq-ədalət bizim tərəfimizdədir".

Bəli, Azərbaycan istəsəydi, davam hərbi tədbirlərini davam etdirərdi. Gücü və qüdrəti buna tam imkan verir. Lakin ölkəmiz Qafqazda sülh və sabitlik istəyir. Bu məqamı vurğulayan cənab İlham Əliyev sülh şəraitinin mümkünlüyünə diqqət çəkir və Ermənistanına həm də seçim şansı yaradır. Ölkəmizin lideri 44 günlük müharibədən sonra baş verənlərin bizim xeyrimizə olduğunun xronoloji ardıcıllığından söz açması da İrəvanı həmin şansı dəyərləndirməyə çağırış məqsədi daşıyır: "2020-ci il noyabrın 8-də Şuşa Ordumuz tərəfindən azad olundu və bu, bizim iradəmizin təzahürü idi. Bundan iki gün sonra Ermənistan kapitulyasiya aktına imza atdı və Azərbaycan 30 illik işğala son qoydu. Aprelin 23-də biz Ermənistanla sərhəddə sərhəd-keçid məntəqəsini yaratdıq və ərazi bütövlüyümüzü tam təmin etdik. Çünki bütün sərhədlərimizə nəzarəti bərpa etdik".

***Əvəz RÜSTƏMOV***
***XQ***

# Fransanın Cənubi Qafqaz pozuculuğu

## Yaxud 2023-cü ilin sonuna doğru bir il əvvəl olanların təkrarı

**Yazımıza Azərbaycan Prezidenti İlham Əliyevin MDB Dövlət Başçıları Şurasının 2022-ci ilin oktyabrında keçirilmiş iclasında səsləndirdiyi bir fikirlə başlamaq istərdik. Dövlətimizin başçısı həmin toplantıda çıxış edərkən bildirmişdi: "Beləliklə, təəssüf ki, Fransanın indiki rəhbərliyi əvvəlkilərdən fərqli olaraq, mənim isə Prezident Şirakla da, Prezident Sarkozi ilə də, Prezident Ollandla da kifayət qədər sıx ünsiyyət qurmaq imkanım var idi və münasibətlər kifayət qədər ölçülüb-biçilmiş, kifayət qədər mehriban idi və Fransada müəyyən erməni diasporu amilinə baxmayaraq, biz həmişə Fransanın əvvəlki prezidentlərinin fəaliyyətini, balanslaşdırılmış qəbul edirdik, – mahiyyət etibarilə bütün bunların üstündən xətt çəkdi".**



Hazırda Qarabağda hər şey aydındır. Azərbaycan suverenliyini bərpa edib. İlk baxışdan Azəraycan–Ermənistan münasibətlərində də hər şey sanki aydın görünür. Amma görüntünün yanıltdığını artıq indidən söyləmək mümkündür. Çünki Fransa özünün ermənipərəst ampluasına sadiqdir. Bu "sadiqlik" isə Cənubi Qafqazda yeni müharibə riskini formalaşdırır. Risk hansı formada yaranır, ondan danışacağıq. Hələlik isə Fransanın 44 günlük müharibə dövründə Azərbaycana qarşı tutduğu əks mövqeyin bəzi məqamlarına diqqət yetirək.

Bəli, Vətən müharibəsi başlayar-başlamaz ermənipərəst dairələr Azərbaycanı, az qala, işğalçı kimi qələmə vermək yolu tutdular və mövcud istiqamətdə ciddi təbliğata başladılar. Həmin vaxt Fransa ən "öndə" idi. Aparılan təbliğat ölkəmizin Ermənistana qarşı, guya, terrorçulardan və muzdlulardan istifadəsi üzərində qurulmuşdu. Lakin bütün bunlar heç bir fayda vermədi. İddialar təsdiqini tapmadı.

44 günlük müharibədən sonrakı dövrdə rəsmi Paris özünün ermənipərəst ritorikasını Azərbaycan–Ermənistan danışıqları masasına keçirdi. Əvvəldə dövlət başçımızın dilindən səslənmiş fikri də məhz bu kontekstdə diqqətə çatdırdıq. Məlum olduğu kimi, 2022-ci il oktyabrın 6-da Azərbaycan və Ermənistan liderlərinin Praqada Avropa Şurası İttifaqının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə görüşü baş tutmuşdu. Görüşdə Fransa Prezidenti Emmanuel Makron da iştirak etmişdi.

Yeri gəlmişkən, onu da bildirək ki, həmin görüşdə Ermənistanın baş naziri Nikol Paşinyan ilk dəfə ölkəmizin ərazi bütövlüyünü tanıdığını açıqlamışdı. İkinci dəfə isə bu tanınma 2023-cü ilin mayın 14-də Brüsseldə olmuşdu. Lakin Praqa görüşündən heç on gün keçməmiş Prezident Makron yerli mediaya müsahibəsində Azərbaycanı Ermənistan ərazisini işğal etməkdə, Rusiyanı isə öz müttəfiqi İrəvana xəyanətdə suçlamışdı. Azərbaycan – Ermənistan şərti sərhədində 2022-ci ilin sentyabrında yaşanmış hərbi eskalasiyaya toxunmuş Fransa lideri demişdi: "Son iki ildə sərhəddə nə baş verir... 5000 Rusiya əsgəri guya sərhəddə təhlükəsizlik təmin etmək üçün orada yerləşir, lakin ruslar bu, bir neçə yüz illik münaqişədən istifadə edib, Türkiyənin də iştirakı ilə Azərbaycanla oyuna qatılıb və nə vaxtsa yaxın olduqları bir ölkə olan Ermənistanı zəiflətmək üçün geri dönüb".

Əlbəttə, Fransanın dövlət başçısının bu mövqeyi Cənubi Qafqaz üzrə sülh tənzimləməsinə təsirsiz ötüşməmişdi. Məlum olduğu kimi, həmin vaxt hər iki ölkə liderlərinin Aİ Şurasının prezidentinin vasitəçiliyi ilə növbəti görüşü dekabrın 7-də (2022-ci il) planlaşdırılmışdı. Gözlənilirdi ki, görüşdə Paşinyanın Praqada Azərbaycanın ərazi bütövlüyünü tanıması məntiqi daha da inkişafını tapacaq və sülh yolunda əsaslı irəliləyişə nail olunacaq.

Lakin Makronun haqqında söz açdığımız açıqlamasından sonra bütün bunların yaşanmayacağı dəqiqləşdi. Məsələyə Rusiyandan reaksiya gəldi, bu, öz yerində. Azərbaycan Prezidenti İlham Əliyev də bildirdi ki, Fransa liderinin sözləri təhqiramiz, qəbulolunmaz, yalan və təxribat xarakterlidir: "Bundan sonra Fransa hökumətinin belə münasibəti çərçivəsində Azərbaycan–Ermənistan münasibətlərinin normallaşdırılması işində Fransanın hər hansı rol oynamasının heç bir mümkünlüyünü görmürük".

...N.Paşinyan isə şərt qoydu ki, dekabrın 7-də keçiriləcək görüşdə iştiraka, toplantıya Makronun qatılacağı təqdirdə razıdır. Əlbəttə, belə mövqe heç cür qəbul edilə bilməzdi və edilmədi. Deməli, Fransa 2022-ci ilin sonunda Cənubi Qafqazda gözlənilən sülhü pozdu. İndi görünür, ölkə 2023-cü ilin sonuna doğru da eyni pozucu hərəkətini təkrarlamağa əzmindədir. Nəzərə alaq ki, Azərbaycan və Ermənistan liderlərinin oktyabrın 5-də Qranadada Avropa Siyasi Birliyinin üçüncü Zirvə toplantısı çərçivəsində üz-üzə gələcəyi və bu təmasdan sülh yolunda həllediçi nəticələr əldə olunacağı gözlənilir.

Bəli, Azərbaycanın sentyabrın 19-dan başlatdığı və cəmi 23 saat 43 dəqiqə davam etmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində suverenliyini bərpa etməsi, Fransanı qıcıqlandırıb. Ölkənin müdafiə naziri Sebastyan Lekornyu bildirib ki, rəsmi Paris Ermənistanın müdafiə sahəsində tələbatlarını araşdırır və Prezident Makron şəxsən prosesləri izləyir. Çünki məsələ Fransa üçün çox vacibdir. S.Lekornyunun sözlərinə görə, Makron onu da bildirib ki, əsas məqsəd Ermənistanın ərazi bütövlüyünün, suverenliyinin və əhalisinin müdafiəsidir. Sual olunur: Paris doğrudanmı hesab edir ki, İrəvana təhlükə var? Axı, Prezident İlham Əliyev lokal xarakterli antiterror tədbirlərindən sonra bir neçə dəfə bildirib ki, Azərbaycanın Ermənistan ərazisinə qəsb niyyəti yoxdur. Elə isə Makron administrasiyasının, necə deyərlər, əl-ayağa düşməsinin səbəbi nədir?

Haşiyə çıxaq. Ermənistan daxilində belə fikir var ki, Paris İrəvana, bir qayda olaraq, yalnız sözdə dəstək göstərməklə məşğuldur, əməldə isə heç nə yoxdur. O da vurğulanır ki, sözdə dəstək Ermənistan rəhbərliyində illüziya yaradır və bunun nəticəsində İrəvanın hansısa qeyri-ordinar davranışı, ümumən ölkəyə ciddi zərər gətirir. Qeyri-ordinar davranışdan söz düşmüşkən, artıq bunun ilk nişanələri var. Məlum olduğu kimi, Ermənistan ərazisindən açılmış snayper atəşi nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçusu həyatını itirib. Görünür, bu hadisə ilə Parisdən gələn ermənipərəst siqnalların eyni vaxta düşməsi heç də təsadüf deyilmiş...

Siqnallara gəlincə, mövcud xüsusda nəinki Fransanın indiki, hətta əvvəlki rəhbərliyinin də "aktivləşdiyini" görürük. Bu baxımdan, ölkənin sabiq Prezidenti Fransua Olandın fikirlərinə diqqət yetirək. Oland bildirib: "Ermənistandan imtina Fransa üçün böyük biabırçılıq olardı. Artıq Ermənistan sərhədlərinin bizim üçün müqəddəs olduğunu bəyan etməyin vaxtı çatıb".

Oland illüziyanın dozasını hər kəsdən daha artıq edib. Onun bu bəyanatının İranın Ermənistanın ərazi bütövlüyünün Tehran üçün vacibliyini vurğulayan "qırmızı xətt" məntiqini də arxada qoyduğunu desək əsla yanılmarıq. Ermənistanın sərhədləri Fransa üçün müqəddəs imiş. Hər halda, indiyədək belə demək mümkünsə, bu cür siyasi sentimentallıq yüklü fikri heç kəs səsləndirməmişdi. Sanki 1095-ci ildir, Klermon şəhəridir, Oland Roma papası II Urbandır, Ermənistan isə Qüds. O da II Urban kimi, "müqəddəs torpağın kafirlərdən azad edilməsi" çağırışını səsləndirir. Ancaq tarixdəki səlib yürüşlərindən fərqli olaraq, hazırda Fransanın erməni təəssübkeşliyinə bütün Avropa dövlətləri qoşulmur. Hər kəs Parisin niyyətindən xəbərdardır. Amma...

Digər tərəfdən, heç fərqi yoxdur ki, belə bir təfriqəçi fikri dilə gətirən Parisin rəsmi təmsilçisidir, ya yox? Həm də ona görə fərqi yoxdur ki, biz Olandın düşüncəsinin Yelisey sarayının davranışı baxımından təsdiqini görürük. Məsələn, Fransanın müdafiə nazirinin dediklərini diqqətə çatdırdıq. Əlavə edək ki, bu gün ölkənin xarici işlər naziri Ketrin Kolonna İrəvana səfərə gəlir. Bütün bunlar isə onu deməyə əsas verir ki, Paris Ermənistanı yeni müharibəyə təhrik edir və hazırlayır. Təhrikdən söz açdıq. Hazırlamaqla bağlı bildirək ki, NATO ölkəsi olan Fransanın bu qurumun istifadə etdiyi hərbi ləvazimatlardan və silah-sursatdan Ermənistana verməsi mümkün deyil. Ancaq ölkə özünün istehsal etdiyi silahlardan İrəvana hədiyyə edə bilər və bəzi siyasi dairələrdə mövcud istiqamətdə müzakirələrin getdiyi məlumdur.

Bəli, beynəlxalq siyasət meydanında nüfuzdan düşmüş Fransa var gücü ilə neokolonializm siyasətinə baş vurub. Ölkə çalışır ki, Afrikada etdiklərini Cənubi Qafqaz müstəvisinə də daşısın. Ermənistan isə onun planlarında alətə çevrilmiş durumdadır. Əlbəttə, bu tendensiya İrəvan üçün son dərəcə təhlükəli vəziyyət doğurub. Görünür, Azərbaycan Prezidenti sentyabrın 29-da "Şəhərsalma Həftəsi 2023" tədbirləri çərçivəsində Zəngilanda 2-ci Azərbaycan Milli Şəhərsalma Forumunun açılış mərasimində əbəs yerə aşağıdakı fikirləri bildirməmişdi: "Əlbəttə, sentyabrın 20-də biz öz suverenliyimizi bərpa etdik. Yəni, artıq "boz zona"lar yoxdur, qeyri-qanuni strukturlar yoxdur və torpaqlarımızda separatçılığa son qoyulubdur. Bu, bizim güclü siyasi iradəmizin göstəricisidir. Bu, Azərbaycan hökumətinin Ermənistanla sülhə hazır olduğunu göstərir və bu, yaxşı siqnaldır, – bəziləri hələ də qisasçılıq, revanşist ideyalarla yaşayırlar, – bu, onlara güclü siqnaldır ki, bu fikirlərdən daşınsınlar".

Yeri gəlmişkən, dövlətimizin başçısı sentyabrın 20-də xalqa müraciətində bunları da vurğulamışdı: "Biz təklif edirik ki, bölgəmizdən uzaqda yerləşən, ancaq öz siyasi gündəliyini güdən və erməni xalqından bir alət kimi istifadə edən, onları istismar edən və dar gündə onları, necə deyərlər, satan qüvvələr, saxtakarlar, korrupsiyalaşmış siyasətçilər əl çəksinlər bizdən. Dünyanın o başında oturub bizə qarşı əsassız ittihamlar irəli sürənlər əl çəksinlər bizdən, qoysunlar Cənubi Qafqaz rahat nəfəs alsın. Bu bölgə əsrlər boyu davalar, savaşlar, qanlı toqquşmalar məkanı olmuşdur. Yetər artıq!"

Ancaq Fransanın timsalında bəzi qüvvələrin Cənubi Qafqazdan əl çəkmədiklərini, bölgədə sülhə doğru gedən yola maneçilik törətdikləri aşkardır. Ermənistan onların təsiri altındadır. Özlüyündə də ölkə heç vaxt müstəqil xarici siyasət yürütməyib. Əvvəl Rusiyanın bölgədəki "forpostu" idi, indi Fransanın koloniyası olmağa can atır. Nəinki can atır, eyni zamanda, bununla özünün avantürası və ərazi iddiası üçün "platforma" hazırlayır. Belə "dəstxətt" isə hərbi və siyasi məğlubiyyətlərdən dərs çıxarmaq deyil. Ermənistanın rəhbərliyi unutmamalıdır ki, bu cür yolverilməz yanaşma ölkəyə baha başa gələ bilər. Hazırda tam qətiyyətlə söyləmək mümkündür ki, Paşinyan və administrasiyası Livanın üzləşdiyi faciəli aqibətə doğru irəliləməkdədir. Mənfi aqibətin təzahürləri isə müxtəlifdir. Hətta iflas, yəni Ermənistanın başqa xalqların əraziləri hesabına formalaşmış qurama dövlətçiliyinin tamamilə itirilməsi də mümkündür.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Ser, hamımız Adəm övladı deyilikmi?!

## Humanitar məsələdə milli ayrı-seçkilik dəhşətli ikrah yaradır, müsyö!

**Xristian dini rəhbərinin məhz Bakıda – bir milyondan çox qaçqın və məcburi köçkünü olan ölkənin paytaxtında xatırlatdığı "Sabahkı günün bütün insanlar üçün daha yaxşı olması naminə çalışmaq" çağırışı konkret bir auditoriyada səsləndirilsə də, əslində, dünyanın siyasi rəhbərlərinə ünvanlanmış müraciət idi.**

Vatikan dövlətinin başçısı Azərbaycanda gördüklərindən və eşitdiklərindən çox ciddi şəkildə narahat olmuşdu. Bir xristian dövləti sərhəd qonşusu olan müsəlman ölkəsinin ərazisini işğal etmiş, milyondan çox əhalisini yurd-yuvasından didərgin salmış, mədəni abidələrini dağıtmış, yandırmış, iqtisadiyyatına ciddi zərər vurmuşdu. Dünyanın aparıcı xristian ölkələri isə zərərdidə olana yox, işğalçıya yardım edirdilər. Həm də hərtərəfli. Dəhşətli dərəcədə ədalətsizlik idi.

Çox təəssüf ki, yeni əsrin ikinci ilində səsləndirilən həmin çağırış əsrin 23-cü ilində də qulaqardına vurulur və beynəlxalq aləmdəki xristian təəssübkeşliyi humanitar yardım məsələsində, sözün həqiqi mənasında, özbaşınalıq və anarxiya yaratmışdır. Əgər elə olmasaydı, Azərbaycanın Qarabağ iqtisadi rayonundan köçən erməni əsilli insanların sayı on dəfələrlə artıq göstərilməz və onlara sayı-hesabı bilinməyən qədər "humanitar yardım" göndərilməzdi.

Bu cümlədəki humanitar yardım sözünün dırnaq arasında verilməsi təsadüfi deyil. Çünki həmin yardım humanitar yox, birbaşa siyasi məzmun kəsb edir. Azərbaycanın yaratdığı yeni reallıqları həzm edə bilməyən bəzi siyasi dairələr həm bizim uğurlarımıza kölgə salmaq, həm də erməniləri növbəti aqressiyalara ruhlandırmaq üçün gündə bir yeni ssenari düşünürlər. Hamı bilir ki, Qarabağdan Ermənistana köçənlər Ermənistandan və sonrakı illərdə Qarabağdan Azərbaycanın digər ərazilərinə qovulanlar kimi bütün hüquqları əlindən alınmış insanlar deyil. Bunu BMT rəsmilərinin yaydığı "Azərbaycandan Ermənistana gedən adamların hansısa təzyiqə məruz qaldıqları barədə məlumat yoxdur" bəyanatı da sübut edir.

Beynəlxalq ictimaiyyət gördü ki, Azərbaycan separatçıların silahı yerə qoyacağı təqdirdə öz üzərinə götürdüyü öhdəliklərin hamısına əməl etdi. Ərzaq, yanacaq, enerji verilməsi məhz erməni əsilli vətəndaşlarımızın Yevlaxda və Xocalıda xahiş etdikləri şəkildə həll olundu. Bəs nə üçün çıxıb getdilər? Etibarlı mənbələrin verdiyi məlumata görə sadə ermənilər – yəni azərbaycanlılara qarşı soyqırımlarında, qətl və soyğunlarda, terror və təxribatlarda iştirak etməyənlərin hamısı Qarabağda



qalmaq istəyirdi. Amma hansısa gözəgörünməz əl onları da öz isti ev-eşiklərindən didərgin saldı.

Bəzi ekspertlər deyirlər ki, guya, ABŞ və Fransadan daha çox humanitar yardım almaq üçün bütün ermənilər köçürülür. Digər ekspertlərin fikrincə isə Parisin sonrakı addımları üçün fransızlara daha çox "zərərdidə olmuş erməni" lazımdır. Deyəsən, elə ona görə də, Azərbaycan Prezidenti Zəngilanda xəbərdarlıq etdi ki, heç kəs bizim səbrimizlə oynamasın.

Bəli, Ermənistan ötən əsrin son onilliyində Azərbaycana qarşı misli görünməmiş bir ədalətsizlik, işğal, terror və təxribatlarla müşayiət olunan düşmənçilik etmişdi. Nəticədə isə... ABŞ-dən külli miqdarda humanitar yardım almış, Azərbaycana isə "907-ci düzəliş" adlı qeyri-insani münasibət göstərilmişdi.

Ermənistana göndərilən yardımlar bu ölkəni birmənalı olaraq, yeni hücumlara hazırlayırdı. Həmin illərdə sayı milyondan artıq olan qaçqın-köçkün azərbaycanlıya xarici donor təşkilatları hansı yardımı göstərmişdilər? İndi Qarabağdan Ermənistana köçənlər yüzlərlə baş qoyun sürüsünü də sərhəd keçid məntəqəsindən keçirərək apardılar. Ermənistandan Azərbaycana qovulanlar isə ayaqyalın, başaçıq, ac-yalavac gəlmişdilər. Onların bir çoxu bu gün hələ də evinə, torpağına qayıda bilmir. Çünki işğaldan azad edilmiş ərazilərimizin hər addımına minalar düzülüb. Nədənsə, onlar yada düşmür, heç bir humanitar yardım göstərilmir.

Amma Qarabağdan çıxan ermənilərə yardım üçün Qərb təsisatları sıraya düzülüblər. Kimsə buna etiraz etmir. Amma ekspertlər soruşurlar ki, azərbaycanlı qaçqınlar niyə yada düşmür? Bu ayrıseçkilik, ikili standartların bariz nümunəsidir.

Bizə heç kəs kömək etməsə də, biz öz qaçqın və köçkünlərimizin qayğısına qalmağı bacardıq. Məlumatlı mənbələrdə oxuyuruq ki, Azərbaycan dövləti 1993–2019 cu illərdə qaçqın və məcburi köçkünlərin sosial təminatı və digər məsələlərə 10 milyard manat həcmində vəsait xərcləyib. Bu vəsaitin 4 milyardı dövlət büdcəsindən, 2,5 milyardı Dövlət Neft Fondundan, 1,4 milyardı beynəlxalq maliyyə qurumlarından, qalanı isə digər mənbələrdən götürülüb.

Hətta torpaqlarımız düşmən işğalından azad edilməndən sonra da – 2020–2023-cü illərdə belə qaçqın və köçkünlərimizə vahid aylıq müavinət daxil olmaqla, hər il üçün 380 milyon manat, mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 600 milyon manat, təhsil və s. xərclər dövlət tərəfindən ödənilir.

Ermənistan isə Qarabağdan köçmüş 35-40 min ermənin (özləri həmin rəqəmi yarım milyon da göstərə bilərlər – İ.M.) problemlərini həll etməkdə acizdir. Çünki dövlətləri qondarma olduğu kimi, siyasətləri də daim xəyallara əsaslanıb. Vaxtilə məqsədli şəkildə yaradılan Ermənistan dövləti bu gün məhz kimlərinsə əlinə baxmaqdan başqa heç nəyə qadir deyil. Azərbaycanın təkliflərini qəbul edərək sülhə gəlsələr, təbii ki, ələbaxımlıqdan qurtara bilərlər.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Qətnamələr icra olunub, separatizmin kökü kəsilib

## 30 ildən sonra BMT-nin Qarabağa gələn ekspertlərinin üzləşdiyi real mənzərə bundan ibarətdir

**Əvvəlcədən xəbərdarlığı edilmiş lokal antiterror tədbirlərindən sonra Azərbaycan BMT-nin müvafiq qurumlarını Qarabağa səfərə dəvət etdi. Rəsmi Bakı BMT missiyasının Qarabağa səfər etməsindən qətiyyən narahat deyil. Əslində, şəffaflığını təmin etdiyimiz bu səfər indiki şəraitdə ölkəmiz üçün əlavə dividend deməkdir. Bu səfərin hüquqi bazası BMT və Azərbaycan arasında Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə sənədidir (2021-2025). Səfər beynəlxalq qurumun Azərbaycandakı rezident-əlaqələndiricisinin himayəsi altında həyata keçirilir. Bu ərəfədə Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Prezidentinin xüsusi nümayəndəsi, ABŞ-nin Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbəri Samanta Paueri, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Yuri Kimi və Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bononu qəbul edərkən ölkəmizdə akkreditə olunmuş BMT-nin rezident-əlaqələndirici ofisinin yaxın günlərdə Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə hazır olduğunu demişdi.**



### Ədalətin bərpası üçün otuz il

Otuz ildən sonra BMT missiyasının Qarabağa səfəri tamamilə yeni reallıqlar fonunda baş verir. Ən azı onu qeyd etməliyik ki, bu, münaqişənin dinc yolla həllinə dair dörd qətnaməsi və çoxsaylı tövsiyəsi İrəvan tərəfindən icrası qulaqardına vurulan nüfuzlu qurumun üzləşəcəyi geosiyasi və humanitar mənzərədir. Prezident İlham Əliyev dünən Bakıda keçirilən 74-cü Beynəlxalq Astronavtika Konqresinin açılış mərasimindəki çıxışında məhz bu amili xüsusi olaraq vurğuladı: "BMT-nin dörd qətnaməsi Ermənistan qoşunlarının ərazimizdən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edirdi. Amma bu qətnamələr 27 il kağız üzərində qaldı. Biz şəhidlər verərək bu qətnamələrin icrasını təmin etdik. Üç il əvvəl biz əsas hədəfimizə nail olduq, 30 il ərzində pozulmuş ərazi bütövlüyümüzü bərpa etdik. Biz işğalın, etnik təmizləmənin qurbanı olmuşuq. Bu, bizim xalqımız üçün böyük faciə idi və böyük humanitar fəlakət idi. Biz uzun illər ərzində çalışırdıq ki, münaqişəni dinc yolla həll edək və işğala dinc yolla son qoyaq. Biz 3 il bundan əvvəl ərazilərimizi işğaldan azad etdik, işğala son qoyduq. Ötən ay isə bütün ölkə ərazisində suverenliyimizi tam bərpa etdik".

Bir qədər əvvəl Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "CBC Nyus"a müsahibəsində Azərbaycanın bir neçə gün ərzində BMT-nin beynəlxalq ekspert qrupunu mediaya çıxış imkanı ilə əraziyə buraxmaq niyyətində olduğunu açıqlamışdı. Beynəlxalq ekspertlərin səfəri Azərbaycanın həzırda regionda həyata keçirdiyi humanitar fəaliyyətlə tanış olmaq imkanını yaratmaqla yanaşı, müəyyən infrastrukturun bərpası, qeyri-qanuni erməni silahlı qüvvələrinin silah-sursatının müsadirə edilməsi prosesi, minalardan yaranan təhlükələr həyatin üzvlərinə nümayiş etdirilir. Səfərin Bakıya qazandıracağı dividendlərdən biri də Ermənistanın "etnik təmizləmə", ərazinin demoqrafik vəziyyətinin süni şəkildə dəyişdirilməsi kimi iddialarının əsassız olduğunun sübuta yetirilməsi olacaq.

Ermənistan ordusunun ərazimizdə qalan tör-töküntüsü bölgədən çıxarılandan, separatçı rejim rəsmi olaraq özünü buraxandan, Xankəndində separatçı rejimin əski parçası yığışdırılandan, Azərbaycan polisi şəhərdə fəaliyyətə başlayandan, təcili tibbi xidmətin işi təşkil olunandan sonra BMT ekspertlərinin Qarabağda humanitar vəziyyət barədə hazırlayacaqları hesabatda nə yazacaqları çox maraqlıdır.

**BMT missiyasının heç də nəzarət xarakteri daşımalı olmadığını bildirən tanınmış politoloq Fikrət Sadıxov onların real vəziyyətlə bağlı rəy verəcəkləri qənaətindədir:** "Həmin rəylər obyektiv və ədalətli olmalıdır. Reallıq ondan ibarətdir ki, Azərbaycan erməni sakinlərin Xankəndindən könüllü şəkildə və dinc şəraitdə tərk etmələrinə maksimum şərait yaratdı. Onlara heç kəs təzyiq etməyib. Təbii ki, onların bəziləri xaricdə ölkəmizə qarşı şüarlar səsləndirəcək, bizi günahlandıracaqlar. Amma, o, süni ajiotajdır. BMT isə öz hesabatında reallığı əks etdirməlidir. Qarabağda nələr baş verib, biz nə etmişik və Bakı bundan sonra orada yaşayan ermənilərə necə və hansı qanunlar əsasında kömək göstərəcək. Bütün bunlar barədə beynəlxalq missiyada səhih və dolğun məlumat olacaq".



Bölgəyə göndərilən eksperlər qrupunun arxasında anti-Azərbaycan qüvvələrin dayanması ehtimalını istisna etməyən F.Sadıxov bu halda onların missiyasının həmin dairələrin mənafeyinə uyğun rəyin hazırlanması ilə nəticələnəcəyini dedi.

### Bakı dinc sakinlərlə sivil davranır

Azərbaycan hökumətinin hüquq və təhlükəsizliklərinə təminat verməlinə rəğmən, Qarabağı tərk edən ermənilərin sayı ilə bağlı manipulyasiyada İrəvanın hansı məqsədi güddüyünü anlamaq çətin deyil. Beynəlxalq qurumların qarşısında "departasiya", "etnik təmizləmə" şouları düzənləmək, ən ümdəsi isə, "məcburu köçkünlərin" hesabına dünyadan maliyə yardımı dilənmək.

Sentyabrın 19-dək bu insanları Xankəndidəki separatçı-xunta rejimi özünün girovu qismində, bölgədə gərginləşdirməyə çalışdığı utopik xəyallar lövhəsində "piyadalar" kimi saxlayırdı. Amma Bakının çoxdan xəbərdarlığını etdiyi lokal antiterror tədbirlərindən bir sutka sonra vəziyyət kökündən dəyişdi. İldırımsürətli tədbirlərdən sonra Ermənistan silahlı qüvvələrinin sağ qalmış tör-töküntüləri dərhal ağ bayraq qaldırdı və rəsmi Bakının silahları təhvil verib Qarabağ iqtisadi rayonunu tək etmək şərtini qəbul etməyə məcbur oldu. Amma hətta belə kritik durumda da Azərbaycan hərbi hədəf saymadığı Qarabağın dinc erməni sakinlərinə hər cür yardım göstərdi, vətəndaşlığımızı qəbul edərək cəmiyyətimizə reinteqrasiya olunmağı təklif etdi.

Fəqət dünənə qədər bölgədə silah və vahimə altında saxlanılan erməni icmasının Laçın sərhəd məntəqəmizdən Ermənistan istiqamətində kütləvi köçü başladı. Onlar bir mərkəzdən komanda alıbmış kimi bölgəni tərk etməkdə israrlıdırlar.

**Siyasi şərhçi Tofiq Abbasov da hesab edir ki, ermənilərin Qarabağdan köçməsi məsələsində hansısa təşkilatçılıq özünü büruzə verir:** "İndi Ermənistan saman çöpündən yapışmış vəziyyətdədir.



Nikol Paşinyan yenə Azərbaycanın etnik təmizləmə həyata keçirməsindən danışır. Ona kənardan züy tutanlar da var. İstər BMT, istər Avropa İttifaqı, yaxud Avropa Şurası olsun, elə davranırlar ki, sanki son 30 ildə Azərbaycan başına bu oyunlar gəlməyib, bir milyon qaçqınımız olmayıb. Bu qurumların heç biri səsimizə səs vermədi. Heç yalandan da olsa, bir faktaraşdırıcı missiya göndərmədilər. Bəli, həmsədrlər, emissarlar gəlib-gedirdilər, amma o zaman Azərbaycan xalqının yaşadığı müsibət və məhrumiyyətlərlə bu gün ermənilərin üzləşdiyi çətinliklər qəti müqayisə oluna bilməz.

Çox güman ki, indi Ermənistan öz havadarlarının fitvası ilə bu vəziyyətdən maksimum siyasi dividend əldə etməyə çalışacaq. Beynəlxalq müstəvidə Azərbaycana qarşı sanksiyaların tətbiqinə, hansısa məhdudlaşdırıcı tədbirlərin görülməsinə çalışa bilərlər. İrəvan 5 oktyabrda baş tutacaq Qranada Sammiti ərəfəsində müəyyən siyasi imtiyazlar əldə etməyə çalışır. Fransanın xarici işlər, ardınca müdafiə nazirlərinin Ermənistana səfərləri buna xidmət edir".

Azərbaycanın bütün müstəvilərdə səhvsiz oynadığını və hesab arasındakı fərqi daha da artırdığını nəzərə çatdıran T.Abbasov bu gerçəyin onları qıcıqlandırdığını qeyd edir: "Ermənilərin bölgədən mütəşəkkil şəkildə getmələrinin geniş təbliği, afişa edilməsi qarşıdakı manipulyasiya və spekulyasiyalardan xəbər verir. Ayrı-ayrı ölkələrin parlamentlərində ermənipərəst qüvvələrin üstümüzə hücuma keçməsi, beynəlxalq qurumlardakı muzdlu emissarların çıxışları gözlənilməndir. Amma İrəvanın kobud səhvi ondadır ki, yenə həmin kənar aktorların fitvasına gedir. Əgər bu dəfə də danışıqlardan yayınsa, onda vay onun halına".

### Hesabatlar şəffaf və obyektiv olmalıdır

Azərbaycan bu prosesin tam şəffaflığını təmin etməklə yanaşı, erməni əsilli sakinlərə xoş niyyətlə, humanistcəsinə davrandı. Bunu sosial şəbəkədə köçənlərin həm şərti sərhədin bu üzündə, həm də o üzündə medianın suallarına verdiyi cavablardan görmək və eşitmək mümkündür. Bəli, Azərbaycanın müvafiq hökumət qurumları bayrağımız altında yaşamaq istəməyən, öz xoşları ilə Qarabağdan gedən etnik ermənilərə nəinki hər hansı təzyiq göstərdi, əksinə, üzləşdikləri problemlərin həlli üçün operativ kömək, çeşidli xidmət təklif etdilər.

Son on gündə Qarabağda cərəyan edən hadisələri yaxından izləyənlər üçün bir məsələ maraq doğurmaqdadır. Ermənistanın rəsmi və özəl mediası Azərbaycanın Qarabağ iqtisadi rayonunu könüllü tərk edən ermənilərin statistikası ilə manipulyasiya edir, rəqəmlərlə oynayır. Rəqəmlər isə səhər və axşam yenilənir. Deyəsən, portallar artıq sonuncu erməninin bölgəni tərk etdiyi barədə xəbəri tirajlamağa girişiblər. İrəvanın istəyinə uyğun olaraq statistika ...120 mində yekunlaşacaq. Amma Hayastan iqtidarı unudur ki, ən səhih və real statistika Azərbaycanın Laçın sərhəd buraxılış məntəqəsindəki kompüterin bank-yaddaşındadır. Bu gün Qarabağa gəlmiş BMT missiyası üzvlərinə bizim sərhədçilər yəqin həm də bu məlumatı təqdim edəcəklər. Çünki, onların erməni separatizmindən təmizlənmiş Qarabağımızda həmin statistikadan savayı müşahidə edəcəkləri, monitorinqini aparacaqları subyektlər artıq mövcud deyil...

"Azərbaycanın həyata keçirdiyi antiterror tədbirlərindən sonra bölgədə yaranmış vəziyyətlə bağlı məlumatı BMT səviyyəsinə çatdıracaq missiyanın gəlişi müsbət haldır". **Bunu qəzetimizə açıqlamasında bildirən politoloq Fərhad Məmmədov "etnik təmizləmə" ittihamı ilə Azərbaycana qarşı cavab tədbirlərinin görülməməsinin aktual olaraq qaldığını bildirir:** "Bu kontekstdən yanaşanda, əlbəttə, BMT missiyasının Qarabağa qısamüddətli



səfəri, ərazidə real vəziyyətlə tanışlığı, oradakı hərbi infrastrukturun qeydə alınması Bakının ötən onilliklər ərzində dediklərinin həqiqət olduğunu onlara nümayiş etdirəcək. Aydın məsələdir ki, ekspert qrupu müəyyən hesabat hasırlayacaq. Azərbaycan çalışmalıdır ki, həmin hesabatda ermənilərin yaydığı saxtalaşdırılmış məqamlar yer tapmasın. Bundan başqa, ölkəmizin gələcəkdə hər hansı problemlə üzləşməməsi üçün bu cür beynəlxalq missiyaların həyata keçirilməsi faydalıdır. Əlbəttə, rəsmi Bakı belə missiyalardan sui-istifadə etməyə çalışan ölkələrin fəaliyyətindən sığortalanmayıb. Amma Azərbaycan hökumətinin BMT-nin bu missiyasının bölgəyə səfərinə razılıq verməsi, necə deyərlər, Qarabağda bütün qapıların dünyanın üzünə açılması faktı onu göstərir ki, Azərbaycan özündən tam əmindir. Və bu əminliyi çəkinmədən nümayiş etdirir".

Hazırda Azərbaycan Qarabağ iqtisadi rayonundan Ermənistana köçənlərə maliyə yardımı məsələsinə gəldikdə isə Paşinyan hökuməti onlara hər ay az qala 20 milyon ABŞ dolları həcmində pul ödəniləcəyini vəd edib. Yerli ekspertlər İrəvanın köçkün amili üzərində pul dilənməyin yeni texnologiyasını düşündüyü versiyasını irəli sürürlər. Yəni, Qarabağdan gedən ermənilərin hesabına bütün ölkəni yedirtmək üçün dünyadan pul ummağa başlayacaqlar. Artıq Birləşmiş Ştatlar və Fransa "əzabkeş və yoxsul" erməni xalqına ilk ianələrini ayırıblar. Təkrarlanan tarixin tanış səhnəsi.

Torpağı özlərinə vətən saymayanların XXI əsr faciəsi belə start götürür...

*İmran BƏDİRXANLI*
*XQ*

# Keçmiş xunta rejiminə daha bir zərbə

## Erməni jurnalist: Benzin çənlərini "Qarabağ rəhbərləri"nin partlatdıqlarına necə inanmayasan?

**Yaxşı ki, "Xankəndidəki anbarlar ağzına qədər ərzaq məhsulları ilə dolu idi" – ifadəsini hansısa azərbaycanlı və ya türk yox, bilavasitə erməni jurnalist deyir və videogörüntülərlə sübut edir. Onun fikrincə, Qarabağda yaradılmış qeyri-qanuni dövlətin məkrli rəhbərləri aylardan bəri öz siyasi məqsədləri naminə bölgədə yaşayan erməni əhaliyə əzab vermiş, onları alçaltmış və təhqir etmişlər.**

Belə ki, Bella Lalayan adlı erməni jurnalist oktyabrın 2-də özünün "Facebook" səhifəsində Arayik Arutyunyanı və onun komandasını ifşa edən yazı paylaşmışdır:

"Mənəviyyatsızlar!

Mən bilmirəm, sizi necə adlandırım və Qarabağ ermənilərinin cəhənnəm əzabı çəkdiklərinə, o qədər insanın




həyatına son qoyduğunuza görə sizin düşmənçiliyinizin cavabını necə verəcəyini anlamıram.

Monstrlar!

Bütün bunlardan sonra məlum benzin çənlərini sizin partlatmadığınıza necə inanmaq olar?

Xalq, erməni milləti, qarabağlılar, hər zaman, dünyanın istənilən yerində sizin məhvinizi reallaşdırmaq barədə düşünəcək və bu. milli ideyaya çevriləcək.

Bədheybətlər, adamyeyənlər, Qarabağı çeynəyib udan namərdlər.

Mən bilmirəm, sizin haqqınızda daha nə deyim ki, ürəyim soyusun!"

Beləliklə, Bella Lalayanın bu yazısı bir daha sübut edir ki, Azərbaycanın Qarabağ regionunda heç bir "mühasirə"olmayıb. Sadəcə olaraq, separatçı rejimin başçıları Azərbaycanı qaralamaq, yaratdığımız reallıqlara kölgə salmaq üçün öz xalqlarını aldatmaqla məşğul olublar.

*İttifaq MİRZƏBƏYLİ*
*XQ*

# Xankəndi, Ağdərə və Xocalıda TETRA radiorabitə şəbəkəsi istifadəyə verilib

**Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti tərəfindən Xankəndi şəhərində, eləcə də Ağdərə və Xocalı rayonlarında dövlət qurumlarının etibarlı idarə olunması və məlumat mübadiləsinin təşkili məqsədilə operativ olaraq TETRA radiorabitə şəbəkəsi qurularaq istifadəyə verilib.**



Hazırda həmin bölgədə "AzStateNet" şəbəkəsinin qurulması istiqamətində hazırlıq işləri davam etdirilir.

Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti Azərbaycan Respublikasının Prezidentinin fərman və sərəncamlarını rəhbər tutaraq, dövlət orqanlarını fasiləsiz və təhlükəsiz xüsusi təyinatlı rabitə ilə təmin olunmasını davam etdirir.

Xatırladaq ki, XRİTDX tərəfindən cari ilin ötən dövrü ərzində Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ərazilərində fəaliyyət göstərən 15 dövlət qurumu "AzStateNet" şəbəkəsi üzərindən data və internet kanalları ilə təmin olunub.

**XQ**

# Orta Dəhlizin tərəfdaşları çoxalır

## Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu bu xəttə qoşulacaq



(əvvəli 1-ci səhifədə)

Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu layihəsinin icrası ilə əlaqədar yaradılan işçi qrupunun iclasında təşəbbüsün yaxın günlərdə gerçəkləşdirilməsinə başlanılması haqqında qərar qəbul edilməsi də Mərkəzi Asiyanın sözügedən infrastruktura böyük əhəmiyyət verdiyini göstərir. Bu, təsadüfi deyil. Çünki Rusiya ilə Ukrayna arasında sonu hələ də görünməyən savaş Orta Asiya, Çin və Cənub–Şərqi Asiya ölkələrini Avropa ilə ticarət əlaqələri üçün yeni yollar axtarmaq məcburiyyəti ilə üzləşdirir.

Xatırladaq ki, hələ 2022-ci ilin sentyabr ayında Şanxay Əməkdaşlıq Təşkilatının Özbəkistanın Səmərqənd şəhərində keçirilən zirvə görüşündə Çin, Qırğızıstan və Özbəkistan arasında dəmir yolunun çəkilməsi haqqında saziş imzalanıb. Ümumi uzunluğu 454 kilometr olan yolun 18 stansiya, 81 körpü və 41 tuneldən ibarət olması nəzərdə tutulub. Bu yolun inşasının aparılacağı Toruqart–Arpa–Məkmal–Cəlalabad marşrutu üzrə texniki-iqtisadi əsaslandırma işləri isə cari ilin iyun ayında yekunlaşdırılıb. Bütövlükdə Çin–Qırğızıstan–Özbəkistan dəmir yolunun layihəsinin iqtisadi və texniki əsaslandırması isə yuxarıda vurğulandığı kimi, artıq başa çatdırılıb. Bununla bağlı Qırğızıstanın Azərbaycandakı səfiri Kayrat Osmonaliyev mediaya məlumat verib.

Qazaxıstan mətbuatının yaydığı məlumata görə, Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu layihəsi Mərkəzi Asiyanın Avropa ilə yanaşı, Cənub–Şərqi, Qərbi Asiya və Yaxın Şərq bazarlarına çıxışını reallaşdıracaq. Bu dəmir yolu Çin ilə Türkiyə arasındakı yükdaşımaların həcmini artırmaqla bərabər, məsafəni 900 kilometr qısaltmaqla qatarların 8 gün ərzində mənzil başına çatmasını gerçəkləşdirəcək. Nəticədə isə nəqliyyat xərcləri azalacaq.

Ekspertlərin fikrincə, Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu layihəsinin uğurlu sonluğu həm də bu infrastrukturun Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə–Orta Dəhlizə qoşulması ilə bağlı olacaq. Başqa sözlə, bu layihə–Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində yükdaşımaları həyata keçirmək üçün nəzərdə tutulan Orta Dəhliz marşrutlarından biri kimi fəaliyyət göstərəcək.

Yeri gəlmişkən, Orta Dəhlizin inkişafında sözügedən dəmir yolu layihəsinə qoşulan ölkələr sırasında Özbəkistan xüsusi yer tutur. Bu ölkə yerləşdiyi coğrafiyanı nəzərə alaraq adıçəkilən nəqliyyat dəhlizinin inkişafına töhfə verməyə səy göstərir, Asiyadan Avropaya və əks istiqamətdə həyata keçirilən yükdaşımalarda tranzit rolunu oynamağı qarşıya mühüm vəzifə kimi qoyur. Şübhəsiz ki, belə bir istək, eyni zamanda, Özbəkistanın Orta Asiya və Qafqaz respublikalarının da tranzit potensialının artırılmasını şərtləndirir.

Onu da qeyd edək ki, Özbəkistan Orta Dəhlizin əsas infrastrukturlarından biri olan Bakı–Tbilisi–Qars (BTQ) dəmir yolundan istifadəni də diqqətdə saxlayır. BTQ dəmir yolu dost ölkənin məhsullarının dünya bazarına çıxmasında əhəmiyyətli rol oynayır. Xatırladaq ki, gələn il BTQ dəmir yolunun yükaşırma qabiliyyətinin 5 milyon tona yüksələcəyi gözlənilir. Bu halda Özbəkistanın ixrac qabiliyyətinin də artacağı heç bir şübhə doğurmur. Bundan əlavə, Özbəkistan Bakı Beynəlxalq Dəniz Ticarət Limanı vasitəsi ilə ticarət əlaqələrini genişləndirməkdə də maraqlıdır. Bu məqam statistik göstəricilərdən də aydın nəzərə çarpır. Belə ki, keçən il Özbəkistan Bakı Limanı ilə 904 min ton ixrac-idxal əməliyyatı gerçəkləşdirib ki, bu da 2021-ci illə müqayisədə 65 faiz çoxdur. Eyni zamanda, cari ilin sonunadək adıçəkilən ölkə tərəfindən Azərbaycan limanları vasitəsi ilə 1,5 milyon ton yükün idxal-ixracının reallaşdırılması planlaşdırılır.

Ümumiyyətlə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının buraxılış qabiliyyətinin ildə 15 milyon tondan 25 milyon tona, hazırkı 100 min konteynerdən isə 1 milyon konteynerə qədər artırılması nəzərdə tutulur.

Bütün bu qeyd edilənlərdən belə bir qənaətə gəlinir: dost ölkə yaxın gələcəkdə Çin–Qırğızıstan–Özbəkistan dəmir yolu layihəsində fəal iştirak etməklə mühüm yüklərin Çindən Qırğızıstan-Özbəkistan və Qazaxıstandan keçən dəmir yolu ilə Orta Dəhlizin əsas hissəsinə–Azərbaycana daxil olmasına əlverişli şərait yaradacaq. Nəticədə yüklərin respublikamızdan Türkiyə və Avropaya daşınması öz həllini tapacaq.

*Vaqif BAYRAMOV*
*XQ*

### Ekspert rəyi

**Hüseynqulu QULİYEV, iqtisadçı-ekspert**



Göründüyü kimi, Azərbaycan artıq beynəlxalq aləmdə Şərq–Qərb, Şimal–Cənub nəqliyyat dəhlizləri ilə yanaşı, Orta Dəhliz marşrutu ilə də mühüm mərkəz kimi tanınır. Ölkəmizin tərəfdaşları ilə birlikdə bu nəqliyyat infrastrukturunun tam ötürücülük gücü ilə fəaliyyətini təmin etmək üçün praktik işlər görülür. Azərbaycan hökuməti tərəfindən dəhlizlərin inkişafına mühüm vəsait ayrılması, respublikamızda avtomobil və dəmir yollarının müasir səviyyədə qurulmasına xüsusi önəm verilməsi, həmçinin əsaslı təmirin aparılması bunun bariz ifadəsidir.

Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu Assosiasiyası hazırda Sinqapurla birlikdə Orta Dəhlizin rəqəmsallaşması konsepsiyasını yaradır. Assosiasiyanın baş katibi Haydar Abdikerimovun mediaya bildirdiyinə görə, bu gün dəhlizin detalizasiyası üzrə işlər görülür və cari ilin iyunundan dəhlizə qoşulan ölkələrin (Sinqapur, Bolqarıstan və Litva) tezliklə bu marşruta qoşulacağı gözlənilir.

Haydar Abdikerimov bildirir ki, Orta Dəhlizin rəqəmsallaşması üzrə işlər Sinqapurun aparıcı şirkətləri ilə həyata keçiriləcək. Bu konsepsiya iştirakçılar arasında məlumat mübadiləsinin yaxşılaşmasına, həmçinin sərhəd keçidlərinin sürətləndirilməsinə səbəb olacaq.

Sərhəd keçidlərinin sadələşdirilməsindən danışan assosiasiyanın baş katibi qeyd edib ki, bu məsələ ilə bağlı Dəmir Yolları Əməkdaşlıq Təşkilatı (DYƏT) və BMT-nin struktur bölmələri ilə birgə layihələr reallaşdırılır.

Qarşıdakı beş il ərzində Orta Dəhlizin infrastrukturuna və proseslərin səmərəliliyinin artırılmasına 5 milyard avro investisiya qoyulacaq. Marşrut Mərkəzi Asiya istehsalçılarının Türkiyə, Şimali Afrika və Cənubi Avropa ölkələri istiqamətindəki dünya bazarları ilə inteqrasiyasında mühüm rol oynayacaq.

Marşrutun əsas məqsədi isə Çin, Qazaxıstan kimi ölkələrdən, Xəzər dənizi ilə Azərbaycan, Gürcüstan, Türkiyə, Ukrayna, Polşa, Ruminiya ərazisindən yük tranzitinin təmin olunmasından ibarətdir.

**Payızın gəlişi ilə əlaqədar təsərrüfatlarda mövsümi canlanma yaranıb. İlin bu bərəkətli çağı bir çox kənd təsərrüfatı məhsullarının yığımı ilə xarakterizə olunsa da, gələcək bolluğun təməli də məhz son baharda qoyulur. İndi ölkənin təsərrüfatlarında payızlıq əkinlərinin də qızğın çağıdır.**

# Kəndə dövlət dəstəyi əsaslı və davamlıdır

## Səpin mövsümündə gübrələr ucuzlaşıb



Torpaq mülkiyyətçiləri növbəti ilin məhsulu üçün əkin işlərini getdikcə sürətləndirirlər. Hava şəraitinin yaratdığı imkanlardan maksimum yararlanmağa çalışan fermerlər və fərdi təsərrüfat sahibləri səpini optimal müddətdə başa çatdırmağa çalışırlar. Kənd təsərrüfatı bitkilərindən yüksək məhsul alınması intensiv əkinçiliyin əsas hədəfidir. Bu məsələnin uğurlu həlli, heç şübhəsiz, kənd təsərrüfatı bitkilərinin gübrələnməsindən çox asılıdır. Aqrar sahənin mütəxəssisləri deyirlər ki, bitkilərin böyüməsi, inkişafı və yüksək məhsul verməsi onların normal qidalanmasından asılıdır.

Bitkilərin lazımi qida maddələri ilə təmin olunmasında isə gübrələrin rolu böyükdür. Belə ki, gübrələr torpağın münbitliyinin artırılmasında, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının yüksəldilməsində və məhsulun keyfiyyətinin yaxşılaşmasında xüsusi əhəmiyyətə malikdir. Xüsusən də payızda əsas şum altına peyinlə birlikdə fosfor və kalium gübrələrinin verilməsi nəticəsində bitkinin qida maddələrindən istifadə əmsalı artır. Bu səbədən də mütəxəssislər hesab edirlər ki, əksər kənd təsərrüfatı bitkiləri üçün kalium və fosfor gübrələrinin illik normasının 40-50 faizi məhz payızda əsas şum altına verilməlidir.

Hazırda kənd təsərrüfatı məhsulları istehsalçıları sahələrdə payızlıq dənli bitkilərin səpini ilə yanaşı, onların yemləmə gübrələri ilə təminatına da xüsusi diqqət yetirirlər. Ölkəmizdə isə aqrar sahənin inkişaf etdirilməsi məqsədilə uzun illərdir ki, fermer və fərdi təsərrüfat sahiblərinə bütün növ gübrələr güzəştli şərtlərlə satılır.

Xatırladaq ki, ötən ayın əvvəllərindən etibarən "Aqroservis" Açıq Səhmdar Cəmiyyəti tərəfindən səpin mövsümündə istifadəsi zəruri olan gübrələrin satışına başlanılıb. Adıçəkilən qurum, həm də bir neçə adda gübrənin qiymətində endirim edib. Müşahidələr göstərir ki, ölkəyə yeni gətirilmiş nitroammofoksa gübrəsinin dəyəri hazırki bazar qiymətindən əhəmiyyətli dərəcədə aşağıdır. Belə ki, səpin mövsümündə bitkilərin kök sisteminin inkişafını sürətləndirən enitroammafoska gübrəsinin 1 tonunu 800 manata, 50 kiloqramlıq kisəsini isə 40 manata əldə etmək mümkündür. Bundan əlavə, "Aqroservis" ammofos, ammonium sulfat və kalium sulfat gübrələrinin də qiymətlərinə endirim tətbiq edib.

Səhmdar Cəmiyyətinin məlumatına görə, endirimlərin məqsədi fermerlərin gübrəyə olan tələbatını və əlçatanlığını təmin etmək, məhsuldarlığın artırılmasına dəstək olmaq və mineral gübrədən istifadə arealını daha da genişləndirməkdir.

Səpinqabağı müddətdə istifadəsi vacib olan gübrələrin güzəştli şərtlərlə satışı davam edir. "Aqroservis" ASC-dən aldığımız məlumata görə, kampaniya başlanıldığı gündən indiyədək fermer və fərdi təsərrüfat sahibləri tərəfindən quruma çoxsaylı müraciətlər daxil olub. Həmin müraciətlər müsbət dəyərləndirilərək gübrələrin yeni şərtlər daxilində fermerlərə çatdırılması təmin olunub. Bütövlükdə isə, ötən müddətdə "Aqroservis"in müvafiq anbarları 1000 tondan çox gübrə satışı həyata keçirib. Dövlətin bu faydalı dəstək tədbirindən yararlanmaq istəyənlərin sayı isə gündən-günə artır. Xatırladaq ki, təsərrüfat sahibləri mineral gübrəni çox asanlıqla yalnız fermer kartını təqdim etməklə əldə edə bilirlər.

Kənd təsərrüfatı mütəxəssislərinin bildirdiyinə görə, taxıl bitkilərinin səpini mövsümündə tətbiq olunan nitroammofoska və ammofos gübrələri tərkibindəki fosforun təsiri ilə məhsuldarlığı artırır. Bununla yanaşı, nitroammofoska gübrəsində olan kalium bitkinin şaxtaya və xəstəliklərə qarşı müqavimətini gücləndirir. Məlum olduğu kimi, kalium sulfat kalium elementi ilə zəngin olan, əsasən, kökümeyvəli bitkilər üçün əvəzolunmaz gübrədir. Sitrus bağları və çay bitkilərinin azota olan tələbatının ödənilməsi üçün isə ən yaxşı seçim kimi ammonium sulfatı misal göstərmək olar.

Qeyd edək ki, "Aqroservis" ASC-nin müvafiq anbarları adları çəkilən mineral gübrələrlə tam təchiz olunaraq fermerlərin təminatı üçün hazır vəziyyətə gətirilib.

*M. YAQUBZADƏ*
*XQ*

# "Qaradağ" Günəş Elektrik Stansiyası istifadəyə hazırlanır

**Energetika nazirinin müavini Elnur Soltanov Bakıda keçirilən II Azərbaycan Milli Şəhərsalma Forumunda Cənubi Qafqazda ən böyük enerji infrastrukturunun–230 MVt gücündə "Qaradağ" Günəş Elektrik Stansiyasının gələn ay istifadəyə veriləcəyini bildirib.**



İlkin hesablamalara görə, bu stansiyada ildə 500 milyon kilovat-saat elektrik enerjisi istehsal olunacaq. Bu da il ərzində 110 milyon kubmetr təbii qaza qənaət etməyə və 200 min tondan artıq karbon emissiyasının atmosferə atılmasının qarşısını almağa, eləcə də 110 min evin elektrik enerjisi ilə təminatına imkan yaradacaq.

Ümumi dəyəri, təqribən, 200 milyon ABŞ dolları təşkil edən bu layihə Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin investisiyası hesabına həyata keçirilir.

Xatırladaq ki, "Masdar" şirkəti 2006-cı ildə Əbu-Dabi hökuməti tərəfindən təsis olunub. Hazırda şirkətin üç təsisçisi var. Bunlar Əbu Dabi hökumətinin "Mubadala" Fondu, ADNOC milli neft-qaz və "TAKA" enerji şirkətləridir.

*XQ*




# Mərkəzi Bankın valyuta ehtiyatları 10 milyard dollara çatıb

**Son illər iqtisadi artımın təmin olunması, nəzərdə tutulmuş ümummilli layihə və proqramlarının uğurla icra edilməsi ölkənin maliyyə vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına səbəb olub. Təkcə onu qeyd etmək kifayətdir ki, hazırda ölkəmizin strateji valyuta ehtiyatları 67 milyard ABŞ dollarına çatıb ki, bu da ilin əvvəli ilə müqayisədə 14,5 faiz artım deməkdir.**

Ölkədə makroiqtisasi sabitliyin təmin olunması fonunda Azərbaycan Mərkəzi Bankının valyuta ehtiyatlarının da həcmində artım dinamikası baş verir. Belə ki, 2023-cü il oktyabr ayının 1-nə Mərkəzi Bankın valyuta ehtiyatları 9 milyard 775,3 milyon ABŞ dolları təşkil edib ki, bu da cari ilin sentyabr ayının 1-i ilə müqayisədə 4,4 faiz və ya 410,9 milyon dollar çoxdur.

Bu barədə XQ-yə Azərbaycan Mərkəzi Bankından məlumat verilib. Məlumatda, həmçinin bildirilir ki, bankın valyuta ehtiyatları 2023-cü ilin əvvəli ilə müqayisədə 8,7 faiz, əvvəlki ilin oktyabr ayının 1-i ilə müqayisədə isə 27,5 faiz artıb.

*XQ*

# Paytaxt sənayesində özəl bölmənin payı 87 faizi ötüb

**Bu ilin yanvar-avqust aylarında paytaxt sənayesində istehsal olunmuş malların və göstərilmiş xidmətlərin həcmi 38,2 milyard manat təşkil edib. Bu barədə Bakı Şəhər Statistika İdarəsindən məlumat verilib.**



Məlumatda qeyd olunur ki, hesabat dövründə sənaye məhsulunun 79,8 faizi mədənçıxarma, 17,2 faizi emal, 2,1 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,9 faizi isə su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal olunub. İstehsalın ümumi həcmində sənaye məhsulunun payı 92,1 faiz, sənaye xarakterli xidmətlərin göstərilməsi isə 7,9 faiz təşkil edib. İlin ötən 8 ayında sənayedə qeyri-dövlət sektorunun payı 87,2 faiz olub.

İstehsal edilmiş məhsulun böyük hissəsi istehlakçılara göndərilib. Əvvəlki dövrlərdə yaranmış ehtiyatlar da nəzərə alınmaqla sənaye müəssisələrinin anbarlarında sentyabrın 1-i vəziyyətinə görə hazır məhsul ehtiyatı 365,4 milyon manat təşkil edib. Sənaye müəssisələrinin anbarlarında başqa müəssisələrdən alınmış və satış üçün nəzərdə tutulmuş 51,1 milyon manat məbləğində digər məhsullar da var.

*XQ*

# Azərbaycan Ermənistanla sülh quruculuğunda maraqlıdır



**Oktyabrın 2-də xarici işlər naziri Ceyhun Bayramov Anqlikan Kilsəsinin dini rəhbəri, Kentenberi Arxiyepiskopu Castin Velbi ilə görüşüb.**

Görüşdə Azərbaycanda mövcud olan dinlərarası harmoniya, tolerantlıq və multikulturalizm ənənələri haqda ətraflı məlumat verən nazir Ceyhun Bayramov əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə İslam dini ilə yanaşı, xristian, yəhudi və digər dinlərə mənsub insanların qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb.

Müxtəlif xalqların mədəni və dini irsinə hərtərəfli diqqət və qayğının təmin edildiyi Azərbaycanın nümunəvi dövlət-din münasibətlərinin mövcud olduğu ölkələrdən biri olduğu, belə bir şəraitdə xristian həmvətənlərimizin öz adət-ənənələrini, dini inanclarını, mədəniyyətlərini sərbəst şəkildə yaşadaraq ölkəmizin sosial-mədəni həyatının bütün sahələrində fəal iştirak etdikləri müqabil tərəfin diqqətinə çatdırılıb.

Nazir Ceyhun Bayramov, həmçinin Ermənistanın və onun ölkəmizdə qurduğu qondarma rejimin 30 ilə yaxın müddətdə regional sülh və təhlükəsizliyə törətdiyi çağırışlar barədə ətraflı məlumatlandırıb, Azərbaycanın beynəlxalq humanitar hüquqa tam uyğun şəkildə özünün suveren ərazisində həyata keçirdiyi lokal antiterror tədbirlərini şərtləndirən səbəblərdən bəhs edib.

Nazir Ceyhun Bayramov Azərbaycanın qarşılıqlı şəkildə ərazi bütövlüyü və suverenlik çərçivəsində Ermənistanla sülh quruculuğunda maraqlı olduğunu bildirib.

### Səfir Edqars Skuya etimadnaməsinin surətini Ceyhun Bayramova təqdim etdi

**Həmin gün Ceyhun Bayramov Latviyanın ölkəmizdəki yeni təyin edilmiş səfiri Edqars Skuya ilə görüşüb. Səfir etimadnaməsinin surətini nazirə təqdim edib.**

Nazir Ceyhun Bayramov səfir Edqars Skuyanı təyinatı münasibətilə təbrik edib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə Azərbaycan və Latviya arasında əməkdaşlıq məsələləri, habelə cari regional vəziyyət müzakirə olunub.

**XQ**

**“Yüksəliş” müsabiqəsinin Təşkilat Komitəsinin sədri, Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərəh Əliyeva üçüncü “Yüksəliş” müsabiqəsinin qalibləri ilə görüş keçirib.**

# Üçüncü “Yüksəliş” müsabiqəsinin qalibləri ilə görüş




Komitə sədri qalibləri əldə etdikləri nailiyyət münasibətilə təbrik edib, onlar üçün nəzərdə tutulan özünüinkişaf planı və Mentorluq proqramından söz açıb. Qaliblərin müsabiqə haqqında təklif və fikirlərini dinləyən Fərəh Əliyeva səslənən təklifləri gələcəkdə tətbiq edilməsi üçün qiymətləndirəcəyini vurğulayıb.

Fərəh Əliyeva qaliblərin təhsil və humanitar məsələlərlə bağlı suallarını cavablandırıb, gənclərin bu sahədə təşəbbüskarlıq göstərməsinin önəmini bildirib. Qaliblər isə, öz növbəsində, ölkənin inkişafı uğrunda əllərindən gələni etməyə hazır olduqlarını bildiriblər.

Xatırladaq ki, üçüncü müsabiqənin yekunlarına əsasən, “Yüksəliş” qalibi elan olunan 22 iştirakçı bir il müddətində idarəçi rəhbərlərin iştirakı ilə Mentorluq proqramından yararlanmaq və fərdi inkişaf planı əldə ediblər.

**XQ**

# Bakı ilk dəfə Ümumdünya Məskunlaşma Gününə evsahibliyi edib

**Ölkəmizin paytaxtı BMT-nin Məskunlaşma Proqramı və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı ilə “Şəhərsalma Həftəsi – 2023” çərçivəsində oktyabrın 2-də ilk dəfə olaraq Ümumdünya Məskunlaşma Gününə evsahibliyi edib.**




Əvvəlcə BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru xanım Maimuna Mohd Şərif salamlama nitqi ilə çıxış edərək, Birləşmiş Millətlər Təşkilatının Baş katibi Antonio Quterreşin müraciətini iştirakçıların diqqətinə çatdırıb.

Sonra Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov və Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev çıxış ediblər.

Çıxışlarda dayanıqlı məskunlaşmanın əhəmiyyətinə toxunulub. Bakı şəhərinin belə bir mötəbər tədbirə evsahibliyi etməsi yüksək qiymətləndirilib, paytaxtın hazırkı inkişaf tempindən danışılıb. Həmçinin bildirilib ki, şəhərsalma və şəhərlərin inkişafı davamlı inkişafa nail olmaqda mühüm rol oynayır. Davamlı qlobal urbanizasiya tendensiyaları fonunda, hər bir ölkənin üzləşdiyi spesifik çağırış və imkanlar inkişaf proqramlarının əhəmiyyətini daha da artırır. Belə ölkələrdən biri də Azərbaycandır.

Bununla yanaşı, ölkəmizin işğaldan azad edilmiş ərazilərində aparılan şəhərsalma siyasəti və layihələndirmə işlərinin miqyasından da söz açılıb.

Şəhərsalma üzrə beynəlxalq və milli ekspertlərin çıxışlarının ardınca 2023-cü il üzrə BMT-nin Məskunlaşma Proqramının (UN-HABITAT) xüsusi mükafatlarının təqdimatı olub. Mükafatları almış şəxslər ürək sözlərini ifadə ediblər.

Tədbirdə “Dayanıqlı şəhər iqtisadiyyatı. Şəhərlər inkişafın və bərpanın aparıcı qüvvəsi kimi” mövzusu ilə əlaqədar hamı üçün əlçatan və keyfiyyətli şəhər həyatının təşviqi və dayanıqlı şəhərlərin inkişafı üzrə çağırışlar müzakirə edilib, şəhərlərin milli və regional sosial-iqtisadi dayanıqlıqda və inkişafda aparıcı rolu, postmünaqişə dövründə şəhərlərin bərpası ilə bağlı fikir mübadiləsi aparılıb.

Xatırladaq ki, sentyabrın 29-dan etibarən ölkəmizdə BMT-nin Məskunlaşma Proqramı (UN-HABITAT) və Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşlığı çərçivəsində “Şəhərsalma Həftəsi – 2023” keçirilir.

Qeyd edək ki, BMT-nin Məskunlaşma Proqramı Assambleyasının Keniyada keçirilən 2-ci sessiyasında Ümumdünya Məskunlaşma Gününün 2023-cü ildə Bakı şəhərində qeyd edilməsinə dair qərar qəbul edilmişdi.

**XQ**

# “Bakı Təşəbbüs Qrupu”nun BMT-dəki müzakirələri dünya mediasında

**“Bakı Təşəbbüs Qrupu” tərəfindən sentyabrın 22-də Birləşmiş Millətlər Təşkilatının qərargahında keçirilən “Dekolonizasiya: Sakit inqilab” adlı konfrans dünya mediasında, xüsusən, Fransanın müstəmləkəsi olan ölkələrin kütləvi informasiya vasitələrində geniş işıqlandırılıb, həmçinin sosial şəbəkələrdə böyük rezonans doğurub.**




“France-Antilles” nəşrində dərc olunan Qvadelupanın Azadlığı Uğrunda Xalq İttifaqının nümayəndəsi Jan-Yacob Bisepin "Qvadelupa mütləq tarixin qatarına minməlidir" sərlövhəli müsahibəsində tədbirin əhəmiyyəti vurğulanıb. Nəşrin müsahibi qeyd edib ki, Qvadelupanın UPLG təşkilatı “Bakı Təşəbbüs Qrupu”nun dəvəti ilə BMT-nin kürsüsündən adanı, onun müstəmləkəçi keçmişini və indiki nəticələrini təqdim edib. O əlavə edib ki, Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatı hələ də neokolonistlərin hökmranlığı altında olan ölkələrin qurtuluşuna töhfə vermək üçün təşəbbüs qrupunu dəstəkləyir. 2023-cü il iyulun 4-də bu məsələ Bakıda müzakirə edilib və mövzu ilə bağlı işlərin davam etdirilməsi üçün BMT-nin mənzil-qərargahında ikinci toplantının təşkili qərara alınıb.

J.Bisep vurğulayıb ki, konfransın Yekun Bəyannaməsində Qvadelupanın müstəmləkə əsarətindən azad edilməsində Qoşulmama Hərəkatının dəstəyi əks olunub.

“La1ere.Francentvinfo” nəşrində Qvadelupa Milli Alyansının (GNA) təmsilçisi Natali Minatçinin konfransın yekunları ilə bağlı fikirləri dərc olunub. Alyansın nümayəndəsi qeyd edib ki, 1945-ci ildə BMT yarananda dünya əhalisinin təxminən üçdəbiri, yəni 750 milyon insan müstəmləkəçi dövlətlərdən asılı idi. O vaxtdan bəri 80-dən çox keçmiş müstəmləkə müstəqillik qazandı və BMT onların dekolonizasiyasını təşviq etmək üçün geniş işlər gördü. Bu fəaliyyət indi də davam edir. Bu kontekstdə Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının səyləri, xüsusən “Bakı Təşəbbüs Qrupu”unun fəaliyyəti təqdirəlayiqdir.

“Musulmans en France” nəşrində konfransın əhəmiyyəti ilə bağlı dərc edilən materialda diqqətə çatdırılıb ki, Fransa bütün dünyada müstəmləkələrindən məhrum olur və bu proses 1955-ci il sentyabrın 30-da Əlcəzairdən başlayıb.

Yazıda qeyd olunub ki, bu günə qədər BMT 17 ərazini müstəmləkəçi güclərdən asılı olaraq tanıyır. Məqalədə vurğulanıb: “Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkda keçirilən 78-ci Baş Assambleyasında hazırda Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Qvadelupa nümayəndə heyətini dekolonizasiya ilə bağlı iclasda iştirak etməyə dəvət etdi, bu iclasda “son Fransız koloniyaları məsələsi” müzakirə edildi. Bu dəvət Qoşulmama Hərəkatının (Azərbaycan Respublikasının sədrlik etdiyi) Koordinasiya Bürosunun Nazirlər Toplantısı çərçivəsində 6 iyul 2023-cü il tarixində Bakıda keçirilmiş birinci konfrans zamanı qəbul edilmiş qərardan sonra verilib.

“Madinin-art”, “Caraibcreole”, “Le Club de Mediapart” “Angladvoup” portalları , “Justice” jurnalında “Dekolonizasiya: Sakit inqilab” adlı konfransın Yekun Bəyannaməsinin mətni dərc edilib.

“Bakı Təşəbbüs Qrupu” və Cənubi Amerika, Karib hövzəsi, Hind okeanı və Sakit okean hövzəsindəki son Fransa müstəmləkələrinə qarşı fəaliyyət göstərən təşkilatlar xalqlarımız arasında zəruri həmrəyliyin möhkəmləndirilməsi və Qoşulmama Hərəkatı ilə əməkdaşlıq əlaqələrinin qurulması məqsədilə öz işlərini davam etdirəcəklər”, – deyə Bəyannamədə vurğulanıb.

**XQ**

# Müdafiə Nazirliyinin məlumatı

### Ermənistan müdafiə nazirliyinin yalanı

**Oktyabrın 2-si saat 14:25 radələrində Azərbaycan Ordusunun bölmələri tərəfindən, guya, Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zərkənd yaşayış məntəqəsi istiqamətində yerləşən bölmələrinə ərzaq aparan avtomobil texnikasına atəş açılması barədə qarşı tərəfin yaydığı məlumat tamamilə yalandır.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.

“Ermənistan müdafiə nazirliyinin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik”, – məlumatda qeyd edilib.

### 123 mina zərərsizləşdirilib

**Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Qarabağ bölgəsinin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi üzrə tədbirlər həyata keçirilir.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən cari ilin sentyabrın 21-dən oktyabrın 2-dək bölgədə 18 ədəd piyada əleyhinə mina, 105 ədəd tank əleyhinə mina aşkar edilərək təhlükəsizlik qaydalarına riayət olunmaqla zərərsizləşdirilib.

Qeyd olunan ərazilərdə mühəndis təminatı üzrə zəruri tədbirlər plana uyğun davam etdirilir.

### Ermənilər mövqelərimizə partlayıcı vasitələr atıb

**Oktyabrın 2-si saat 17:20-dən 18:00-dək Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Əzizli yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonunun Yuxarı Ayrım yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini atıcı silahlardan atəşə tutub.**

Bundan başqa, qeyd olunan istiqamətdəki mövqelərimizin üzərinə döyüş kvadrokopterləri vasitəsilə əldəqayırma partlayıcı vasitələr də atılıb.

Bölmələrimiz itki verməyib, qeyd olunan istiqamətdə adekvat cavab tədbirləri görülüb.

### Qazaxıstanın hərbi gəmiləri Bakıda

**Azərbaycan Müdafiə Nazirliyi ilə Qazaxıstan Müdafiə Nazirliyi arasında imzalanmış birgə fəaliyyət planına əsasən, Bakıda hər iki ölkənin Hərbi Dəniz Qüvvələrinin (HDQ) gəmilərinin və hərbi qulluqçularının iştirakı ilə "Xəzri-2023" birgə taktiki təlimi keçirilir.**

Birgə taktiki təlimdə iştirak etmək üçün oktyabrın 2-də Qazaxıstan HDQ-nin hərbi gəmiləri və şəxsi heyəti Bakıya səfər edib.

Qeyd edək ki, oktyabrın 8-dək davam edəcək Azərbaycan–Qazaxıstan birgə taktiki təlimində müxtəlif tapşırıqlar üzrə fəaliyyətlər icra ediləcək.

### Qarabağda müsadirə edilmiş döyüş vasitələri

Müdafiə Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə oktyabrın 2-si saat 18:00-a olan məlumatı açıqlayıb. Məlumatı təqdim edirik:




**SİLAHLAR**

1. Atıcı silahlar – 2608
2. Qumbaraatanlar – 235
3. Top və haubitsalar – 60
4. Minaatanlar – 64
5. Tank əleyhinə silahlar – 58
6. HHM silahları – 165

**TEXNİKA**

1. Zirehli texnika – 31
2. Avtomobil texnikası – 265
3. Qoşqular – 23
4. Yardımçı texnika – 9

**DÖYÜŞ SURSATLARI**

1. Raketlər – 1700
2. Top və haubitsa mərmiləri – 5177
3. Zenit top mərmiləri – 31771
4. Minaatan mərmiləri – 12806
5. Qumbaralar – 5880
6. Əl qumbaraları – 3068
7. Patronlar – 2009970
8. Digər sursatlar – 5778

**CİHAZLAR**

1. Optik cihazlar – 314
2. Digər cihazlar – 38

**TƏCHİZAT**

1. Fərdi təchizat vasitələri – 1027
2. Müxtəlif silahların qurğuları – 15
3. Digər təchizat vasitələri – 3323

**XQ**

Təqvim yada salır

# Bədii “Qarabağnamə”nin əbədiyaşar müəllifi

**Unudulmaz Xalq yazıçısı İlyas Əfəndiyev barədə düşünəndə, ilk olaraq, Xalq yazıçısı Mirzə İbrahimovun həmkarına verdiyi dəqiq və səmimi qiyməti xatırlayıram: “Azərbaycan ədəbiyyatı mənim nəzərimdə böyük və rəngarəng gülüstandırsa, İlyas Əfəndiyevin yaradıcılığı bu gülüstanda öz gözəlliyi, ətri və təravəti ilə dərhal diqqəti cəlb edən cazibədar toplu və dolğun bir çiçəklikdir”. XX əsr Azərbaycan ədəbiyyatının görkəmli simalarından biri olan Xalq yazıçısı İlyas Əfəndiyevin zəngin və dərin ictimai məzmunlu yaradıcılığı böyük sənətkara əbədiyaşarlıq qazandırmışdır.**



1914-cü il mayın 28-də Füzuli (keçmiş Qaryagin ) şəhərində anadan olan İlyas Əfəndiyev 3 oktyabr 1996-cı ildə Bakıda dünyasını dəyişib. Ötən 27 il dönə-dönə sübut edib ki, İlyas Əfəndiyev həmişə bizimlədir. Böyük nasir və dramaturqun ömür və sənət yolunun davamçısı Xalq yazıçısı Elçin bu gerçəyi belə ifadə edib: “1996-cı il. 3 oktyabr... Bu tarixdən sonra İlyas Əfəndiyevin ikinci ömrü başlayır”.

İlyas Əfəndiyev, həqiqi mənada, ədəbiyyatımızın müasir klassikidir. O, bir tərəfdən, gözəl romanlar, povestlər, hekayələr yazırdısa, digər tərəfdən də Azərbaycan teatrına bir-birindən maraqlı səhnə əsərləri bəxş edirdi. Ədibin sənət irsi ilə ətraflı tanış olduqca heyrətlənməyə bilmirsən. İlyas Əfəndiyev nasirliyi, dramaturqluğu ilə yanaşı, həm də estetik görüşləri, obyektiv tənqidçi baxışları ədəbi prosesə fəal təsir edən nüfuzlu bir ədib idi.

Yazıçı-dramaturq əmək fəaliyyətinə doğma Füzulidə müəllimliklə başlasa da, Bakıda ilk iş yeri qəzet redaksiyası olub. Bu mənada ədibin publisistikası da öz mükəmməlliyi ilə seçilir və o zaman yazdıqları bu gün də aktualdır. İlyas Əfəndiyev ictimai quruluşların təpkisini, zillətini görən, həyatın ziddiyyətləri içərisində yazıçı mənini qoruya bilən, kişi ləyaqətini gözləyən, yaramazlığa əyilməyən, məramını dəyişməyən, həqiqətə sadiqliyi və qəlb böyüklüyü ilə seçilən bir şəxsiyyət kimi yaşayıb. Böyük istedadına görə keçmiş SSRİ dövlətinin yazıçıya verə biləcəyi yüksək mükafatların, fəxri adların, orden və medalların əksəriyyətinə layiq görülən İlyas Əfəndiyev nəinki Azərbaycanda, bəlkə də, keçmiş ittifaqda yeganə ədiblərdən idi ki, ədəbiyyata da hökm edən Kommunist Partiyasının üzvü deyildi.

Çağdaş dünya nəsrinin azmanlarından biri, Türk dünyasının böyük yazıçısı Çingiz Aytmatova məxsus fikirdir: “İnsanın Vətəni uşaqlığıdır”. Həqiqətən, insan uşaqlığı keçən, beşiyi yellənən yerləri heç vaxt unuda bilmir. İlyas Əfəndiyevin uşaqlığı isə... Ömrünün sonuna kimi bu illərin acı və şirin xatirələri onun içində yaşadı. Hekayələrə, dramlara, povest və romanlara köçürüldü, amma bitib-tükənmədi. İlyas Əfəndiyevin əsərlərində biz də vaxtilə onun gəzib-dolaşdığı Ağdam bağlarının, İsa bulağının, Xankəndinin, Ağa körpüsünün çiçəklərinin ətrini duyuruq.

Tənqidçi Yaşar Qarayev yazırdı: “Azərbaycan tarixi barədə klassik sənədlər –7 ”Qarabağnamə” var. Bütünlükdə, İlyas Əfəndiyevin yaradıcılığını mən 8-ci “Qarabağnamə” hesab edirəm”. Qarabağ canlı bir varlıqdırsa, onun düşünən beyni Füzuli, vuran əli Ağdam, döyünən ürəyi Şuşadır. Həmin bütöv Qarabağ İlyas Əfəndiyev yaradıcılığında baş mövzudur. Qarabağın ötən günlərini vərəqləmək üçün bu müəllifi diqqətlə oxumaq kifayət edər ki, bir çox mətləblərdən hali olasan. Ədibin bütün müqəddəs hissləri, könül titrədən xatirələri, həyəcanları Qarabağla bağlı idi. Şuşa isə ürəyinin sarı simiydi.

İlyas Əfəndiyevin ulu babası Xoca Əhməd Əfəndi XVIII əsrin sonlarında Ərzurumun Qars mahalından Qarabağa, indiki Füzuliyə (o zaman Qarabulaq, sonralar isə orada öldürülmüş çar polkovniki Karyaginin şərəfinə Qaryagin adlandırılıb) gələrək yurd salıb, orada evlənib. Görkəmli din xadimi, ilahiyyatçı alim kimi məşhurlaşıb. Bu nəsil nəinki Qarabağda, ətraf bölgələrdə, ümumən, Azərbaycanda və qonşu ölkələrdə “Əfəndi uşağı” kimi hörmət və nüfuz qazanıb.



XIX əsrin sonlarında bu nəslin bir nümayəndəsi tamam başqa bir sahədə seçilən adam olub. Ailə ənənəsindən uzaqlaşıb məşhur tacir olan Məhəmməd bəy bacarığı, işgüzarlığı, ziyalılığı, geniş dünyagörüşü ilə fərqlənərək, Qarabağ elatının çox hörmətli şəxsiyyətlərindən olub. O, şuşalı Bayram bəyin qızı Bilqeyis xanımla ailə qurub. Şuşadakı rus gimnaziyasını bitirmiş Bayram bəy də Qarabağın ehtiramla yanaşdığı, sayılıb-seçilən adamlardan olub. Elə bu nüfuzuna görə də Azərbaycan Demokratik Cümhuriyyəti dövründə Ağdam qəzasına rəis təyin edilib.

Məhəmməd bəyin və Bilqeyis xanımın 7 övladı olub: İlyas, Məhbub, Mustafa, Tofiq, Məhluqə, Arif, Nəzihə. Tacir Məhəmmədin Füzulidə müxtəlif mallar satılan doqquz dükanı, Şuşada, Ağdamda, Bərdədə, Yevlaxda, Tərtərdə, Ağcabədidə qumaş dükanları, Bakıda, Həştərxanda, Vladiqafqazda, Tehranda və Təbrizdə şərikləri vardı. Təəssüf ki, XI ordu Azərbaycanı işğal edəndən sonra bolşeviklər və onların dəmtutanları onun mülklərini, bütün varidatını, hətta sonuncu əmlakını – ailəsinin sığındığı daşdan tikilmiş ikimərtəbəli evini də əlindən alıblar. O illərdə ailənin düçar olduğu məşəqqətlər barəsində İlyas Əfəndiyev bir çox əsərlərində, müsahibələrində söz açıb. Məlum olur ki, babası Bayram bəyi zəhərləyib, atası Məhəmmədi 46 yaşında çərlədib öldürüblər. Kommunist hakimiyyətinin vətəndaş hüquqlarından məhrum etdiyi ailənin bütün ağırlığı bəy qızı Bilqeyis xanımın çiyinlərinə düşüb. O, kübar bir xanım olub. Əski və yeni əlifbada yazıb-oxumağı bacarıb, geniş dünyagörüşü ilə seçilib.

Yazıçının dayısı Cəlil bəy Bağdadbəyov ötən əsrin 30-cu illərində tanınmış mədəniyyət xadimi və bir sıra pyeslərin müəllifi idi. Bu şuşalı ziyalı Azərbaycanın ilk sənətşünası və etnoqrafı olub. Həm maddi, həm də mənəvi cəhətdən zəngin olan bu məşhur nəsillər – İlyas Əfəndiyevin ata, ana tərəfi, yaxın qohumları sovet hakimiyyətinin hər cür acılarını yaşayıblar.

İlyas Əfəndiyevin vəfatından sonra çapdan çıxmış “Seçilmiş əsərləri”-nin yeddicildliyini son vaxtlar yenidən vərəqlədim. Yazıçının Şuşa ilə bağlı xatirələri məni daha çox təsirləndirdi, hətta kövrəltdi. Uşaqlıq illərinə, soy-kökünə dərindən bağlı olan yazıçının qeyri-adi yaddaşına bir daha heyran oldum.

Yazıçı Şuşanın bütün toponimlərini, görməli yerlərini, küçə və məhəllələrinin adlarını əzbər bilirdi. Məşhur adamlarını, dağını, dərəsini, adicə cığırını belə yaxşı tanıyırdı. Həmişə də qəribə həsrət və nisgillə Şuşanın obrazını əsərlərinə gətirirdi. Onun bu xatirələrində Şuşanın bəxtəvər günlərinin həsrəti dil açırdı. Dramaturqun 1971-ci ildə yazdığı “Mahnı dağlarda qaldı” pyesinin əsas surəti Böyük bəy şuşalı Bayram bəyin prototipidir.

Ədəbiyyata “Kənddən məktublar” (1939) adlı hekayələr kitabı ilə gələn İlyas Əfəndiyev 57 illik yaradıcılığı ərzində 6 roman, 47 hekayə, saysız-hesabsız oçerk, məqalə, rəy və xatirələr yazıb. Yarım əsrdən artıq bir zaman kəsiyində o, aparıcı dramaturq kimi Akademik Milli Dram Teatrının repertuar ağırlığını üzərinə götürüb. Onun bu teatrın səhnəsində 19 pyesi tamaşaya qoyulub. 1944-cü ildə “İntizar”la başlanan debüt 1996-cı ildə “Hökmdar və qızı” pyesi ilə tarixə çevrilib. Lakin sonuncu əsər səhnəyə qoyulanda İlyas Əfəndiyev onun ilk tamaşasında iştirak edə bilmədi. Bütün bu illər ərzində yuxarıda dediyimiz kimi, Qarabağ onun yaradıcılığının ana xətii olub.

Ədib 1942-ci ildə “Ədəbiyyat qəzeti”ndə çap edilən “Natəvan” adlı məqaləsində yazırdı: “Çar istilası Azərbaycan xalqının həyatındakı əzab və məşəqqətləri qat-qat artırmış, ölkədə yeni faciələr yaratmışdı. Natəvanın tərənnümündəki iniltilər məhz bu iztirab və əzabların ifadəsi idi”. 1978-ci ildə yazdığı "Natəvan” pyesində isə Xan qızının son sözləri belədir: “Bu uçurumlu yolların sonunda bizi milli birliyini, azadlığını tapmış azad Azərbaycan gözləyir!”.

Biz bu pyesin ilk tamaşasına baxanda Natəvan rolunun ifaçısı Xalq artisti Amaliya Pənahovanın üzünü salona tutaraq xüsusi pafos və daxili harayla bu monoloqu necə təsirli söyləməsi hər birimizdə vahimə yaratdı. O zaman belə bir ədəbi hökm vermək sovet sisteminə meydan oxumaq demək idi. Nə yaxşı ki, ulu öndərimiz Heydər Əliyev salonda idi. O, İlyas Əfəndiyev yaradıcılığını çox yüksək qiymətləndirir, daim izləyir, əsərlərini sevirdi. O axşam da salonda olması ilə dramaturqu gözləyən təhlükəni sovuşdurdu.

Xalq yazıçısı İlyas Əfəndiyev müstəqil Azərbaycanın yüksək dövlət ordeni “Şöhrət”i alan ilk yazıçıdır. Sovet dövründə mükafatları çox olmuşdu. Amma onun ən çox dəyərləndirdiyi, sevinc və qururla qəbul etdiyi təltif məhz “Şöhrət” ordeni oldu. İllər boyu qəlbini əzən, duyğularını pərən-pərən edən, yaradıcılığında əks olunan həsrətinə son qoyuldu. Varlığı qədər sevdiyi məmləkəti hürriyyətinə qovuşdu.

Verdiyi son müsahibələrin birində bir fikri özünəməxsus müdrikliklə dilə gətirmişdi: “Bütün ömrüm boyu yazılarımda ədəbi həqiqətin deyilməsinə çalışdım. Bir növ avtobioqrafik xarakter daşıyan ”Geriyə baxma, qoca” əsərində mənim məqsədim o olmayıb uşaqlığımı təsvir eləyəm, çalışmışam ki, Azərbaycan xalqının taleyi, keçmişi, mərdliyi, alicənablığı, yüksək mədəniyyəti haqqında söz deyim”.

Çox təəssüf ki, Xalq yazıçısının doğulduğu Füzuli şəhəri də, bütün varlığı ilə bağlı olduğu Şuşa, Ağdam da uzun illər erməni tapdağı altında inildədi. Və bir də İlyas Əfəndiyev deyirdi: “Həyatımda o çatmır ki, niyə Azərbaycan bütöv deyil?” Elə bu nisgillə də dünyasını dəyişdi. Biz o qalibiyyət gününün var olacağına inanırdıq. Bu sevinci bizə məhz Ali Baş Komandanımız İlham Əliyev yaşatdı. Qoy, ruhun şad olsun, unudulmaz yazıçımız İlyas Əfəndiyev. Qarabağ Azərbaycandır!

***Flora XƏLİLZADƏ,***
***Əməkdar jurnalist***

# Bizim günlərin bəstəkarı



**Musiqiçilər bu sənətin yaradıcı yükünü çiyinlərində daşımaqla ruh oxşayan, əsrarəngiz əsərlər yaradırlar. Musiqinin dəyərini uca tutan belə insanlardan biri də Xalq artisti, professor, Prezident mükafatçısı, bəstəkar, pedaqoq Vasif Allahverdiyevdir.**

Mən Vasif müəllimi uzun illərdir tanıyıram – istedadlı bəstəkar, səmimi insan, tələbkar müəllim, sadiq dost kimi. Vasif Allahverdiyev haqda bir çox məqalələr yazmışam. 2023-cü ildə isə Azərbaycan Bəstəkarlar İttifaqının təşəbbüsü və dəstəyi ilə bəstəkar haqqında müəllifi olduğum broşür də işıq üzü görüb. Bu gün isə Vasif müəllim ömrünün 60-cı baharını yaşayır. Belə bir məqamda onun həyat və yaradıcılıq yoluna nəzər salmağı, Azərbaycan musiqi sənətinin inkişafındakı əməyini bir daha gənc nəslin diqqətinə çatdırmağı özümə borc bildim.

İnsanın, xüsusən də sənət adamlarının formalaşmasında, yetişməsində doğulub-böyüdüyü yerin, təbiətin böyük rolu var. Vasif müəllim də qədim və gözəl Naxçıvan torpağının ecazkar təbiətində böyümüş, saf sularını içmiş istedadlı sənətkardır. O, 1963-cü ildə Naxçıvan şəhərində anadan olub. İlk dəfə tarda çalmağı ona dayısı – Naxçıvan Muxtar Respublikasının tanınmış tarzəni, Əməkdar artist Tağı Tağıyev öyrədib. Sonralar o, ailəsilə birlikdə Sumqayıta köçüb, burada musiqi məktəbinin tar sinfində təhsil alıb. Müəllimi bu gün də böyük minnətdarlıqla xatırladığı Əlislam Aslanoğlu olub.



Vasif Allahverdiyev 1983-cü ildə Sumqayıt Musiqi Texnikumunu fərqlənmə diplomu ilə bitirib və həmin il Azərbaycan Dövlət Konservatoriyasına (indiki Bakı Musiqi Akademiyası) tar ixtisası üzrə qəbul edilib, 1988-ci ildən isə bəstəkarlıq fakultəsində Hacıbəylilər nəslinin layiqli nümayəndələrindən biri olan İsmayıl Hacıbəyovun sinfində oxuyub. Konservatoriyada təhsilini bəstəkarlıq və tar ixtisasları üzrə başa vurub. Yəni, o, Azərbaycan bəstəkarları içərisində ilkin olaraq tar ixtisası üzrə də ali təhsilini başa çatdırmış mütəxəssisdir.

Təyinatla Naxçıvan şəhərinə göndərilən Vasif Allahverdiyev orada musiqi texnikumunun nəzəriyyə şöbəsinin müdiri və eyni zamanda, Bəstəkarlar Təşkilatının məsul katibi vəzifələrində çalışıb. Sonra Bakıya qayıdıb, pedaqoji və yaradıcılıq fəaliyyətilə məşğul olub. Hazırda Azərbaycan Milli Konservatoriyasının dirijorluq kafedrasında professor vəzifəsində çalışır.

Vasif Allahverdiyev sənətdə öz sözü, öz dəst-xətti olan bəstəkardır. Yaradıcılığında milli kökə bağlılıq özünü parlaq şəkildə büruzə verir. Bu da bəstəkarın milli musiqini sevməsindən və ona sıx bağlılığından irəli gəlir. Eyni zamanda, yazdığı bütün əsərlərdə milli ənənələrlə müasir ifadə vasitələrini üzvi surətdə birləşdirmişdir. Onun yaradıcılığı çoxşaxəlidir. Əsərlərində doğma Vətənin tərənnümü, böyük müəllimlərinə məhəbbət, xalqın azadlıq mübarizəsi, qəhrəman şəhidlərin xatirəsi kimi mövzular üstünlük təşkil edir. Bəstəkar əsl peşəkarlıq zirvəsinə çatmağı qarşısına məqsəd qoyub, çalışqanlığı və tələbkarlığı sayəsində bu yüksək amala nail olub. Müraciət etdiyi janrlar da müxtəlifdir. Yaradıcılıq dəsti-xətti simfonik, kamera-instrumental musiqisi, vokal və s. janrlarında özünü daha parlaq büruzə verir. Belə ki, bəstəkar 3 hissəli “Atatürk” simfoniyası, “Heydər Əliyev – ömür yolu” simfonik poeması, solo tar üçün “Qarabağ balladası”, Üzeyir Hacıbəyliyə ithaf olunan taxta nəfəsli kvartet və zərb alətləri üçün yazılmış “Muğamsayağı”, Ulu öndərə həsr olunan səs və kamera orkestri üçün “Sənsizlik” elegiyası (sözləri M.Heydərqızına aiddir), Arif Məlikovun 70 illiyinə həsr olunan fortepiano silsiləsi, solist, 4 səsli qarışıq xor və böyük simfonik orkestr üçün “Vətən torpağı” odası, marşlar, çox sayda mahnı və romanslar, bir çox xalq mahnılarının səs və kamera orkestri üçün işlənməsi və digər onlarla əsərin müəllifidir.

Vasif Allahverdiyevin əsərləri tez-tez Beynəlxalq tədbirlərdə, Azərbaycan Bəstəkarlar İttifaqının qurultay və plenumlarında səslənir. Bəstəkarın musiqisi respublikamızın hüdudlarından kənarda da layiqincə təmsil olunur. O, Türkiyə, Kipr, İran, Rusiya, Fransa, Almaniya, İtaliya, ABŞ və digər ölkələrdə qastrol səfərlərində olub, Azərbaycan musiqisini layiqincə təmsil edib. Əsərlərində məhəbbət, xoşbəxtlik, sevinc, mübarizə, azadlıq, dostluq, sədaqət, vətənpərvərlik mövzuları öz əksini tapır. Xalqın həyatını, fikir və duyğularını özündə əks etdirən hər bir əsər insanları məfkurəyə və daha məsuliyyətli olmağa yönəldir.

Vasif Allahverdiyevin yaradıcılığı dövlətimiz tərəfindən də yüksək qiymətləndirilib. 2010-cu ildə o, Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, 2019-cu ildə isə Xalq artisti fəxri adına layiq görülüb.

Yuxarıda Vasif müəllimin dayısı Tağı Tağıyevi xatırladıq. Qeyd edək ki, onun qardaşı – Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi, bəstəkar, pianoçu, professor Ceyhun Allahverdiyev də bu sənətdə öz sözünü deməyə qadir olan sənətkarlardandır. Qızı Türkan Allahverdiyeva isə istedadlı pianoçu kimi fəaliyyət göstərir.

Əlbəttə, bəstəkar haqqında, onun əsərləri barədə çox danışmaq olar. Amma biz Vasif Allahverdiyev yaradıcılığının zənginliyini, sənət dünyasının genişliyini, milli musiqi incəsənətinin inkişafı naminə gördüyü işlərin əhəmiyyətini nəzərə çarpdırdıq. Onu da vurğulayaq ki, həyat eşqi ilə alışıb-yanan Vasif Allahverdiyevin yaradıcılıq potensialı tükənməzdir. Bu gün ömrünün kamillik dövrünü yaşayan bəstəkar yüksək peşəkarlıq prinsiplərinə sadiq qalaraq, milli musiqi mədəniyyətimizin tərəqqisi naminə yorulmadan çalışır. Hec zaman yaradıcılıq axtarışlarından usanmır. Əminik ki, bu zəngin yaradıcılığa hələ neçə-neçə yeni səhifələr əlavə olunacaq.

***Jalə QULAMOVA,***
***Azərbaycan Milli Konservatoriyasının kafedra müdiri, professor***

# Kamal Abdulla: “Mən yazanda dincəlirəm”

## Dünya görür ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir

**Onu ilk dəfə hələ orta məktəbdə oxuduğum illərdən “Qoşma” verilişindən tanımışdım. Verilişin hər buraxılışına baxar, ana dilimizdə səlis, aydın danışığına heyran olardım. Sonra universitet illərində başqa auditoriyalarda da dediyi mühazirələri qapı arxasından dinləyərdim. Daha sonra “Mədəniyyət Fondu”nda işləyəndə ilk dəfə ondan müsahibə almışam.**



**Müsahibim yazıçı, ADU-nin rektoru, professor Kamal Abdulladır.**

***– Kamal Abdulla bir ziyalı, yazıçı, alim, şəxsiyyət kimi həmişə maraqlıdır, o, eyni zamanda, rektordur, ona görə də elə universitet barədə başlamaq istəyirəm söhbətə. Müşahidələrimə görə, ADU-da yaxşılığa doğru çox dəyişikliklər olub. Qəbul faizi də artıb. Daha nələr baş verir?***

– Qəbul faizi hər il arta-arta gedir, biz bu nisbəti çoxaltmağa çalışırıq. Bu da onu göstərir ki, cəmiyyətdə Azərbaycan Dillər Universitetinə böyük maraq və gözləntilər var. Çalışırıq ki, burada oxuyan tələbələrin simasında cəmiyyətimizə borcumuzu yaxşı ödəyərək, gözləntiləri doğruldaq. Yadıma gəlir, Ulu öndər hər dəfə 1-ci kursa qəbul olunanları toplayardı. Bir dəfə də bu toplantıların birində üzünü biz rektorlara tutub (o zaman mən BSU-nun rektoru idim) dedi ki, bu gənclər mənim sizə əmanətimdir. Bu əmanət sözü çox ağır sözdür. O əmanətə layiq olmaq, qorumaq, sadiq çıxmaq, onun şərəf və ləyaqətini təmin etmək bu gün də mənim qarşımda borc kimi durub.

QS deyilən bir beynəlxalq reytinqlər cədvəli var. Dünyada 1600-dən çox universitet arasında ilk dəfə olaraq biz “Modern dillər” istiqaməti üzrə 300-cü yerə çıxdıq. İlk baxışda uzaqdan görünən rəqəmdir, amma bu rəqəm bizim ciddi və faydalı çalışmağımızın sübutudur. Bizi bu uğurla daxildə və xaricdə çox ciddi universitetlər və qurumlar təbrik etdi. Bu gün universitetimizdə ixtisas kimi bir çox dillər öyrənilir və eyni zamanda, biz öyrəndiyimiz dilləri, mədəniyyətləri təbliğ edirik. Və həmin ölkələrin universitetlərindən də eyni addımı gözləyirik. Qarşılıqlı razılaşmaya gəlirik ki, onlar da öz universitetlərində Azərbaycan dilini və mədəniyyətini, multikulturalizmini təbliğ etsinlər. İndi həm Yaxın Şərqdə, həm Avropada 10-a yaxın universitetdə Azərbaycan dili və mədəniyyəti mərkəzi fəaliyyət göstərir. Çində, Rusiyada, Serbiyada, Rumınyada, Macarıstanda, Pakistanda belə mərkəzlərimiz fəaliyyətdədir.

Bu yaxınlarda Minsk Dövlət Linqvistika Universitetində təmtəraqla Azərbaycan dili və mədəniyyəti mərkəzi açdıq. Bu, Belarus gənclərinin və ziyalılarının həm Azərbaycan dilinə, mədəniyyətinə, həm də həqiqətinə yaxınlaşmasına zəmin yaradacaq. Eyni zamanda, mərkəz Azərbaycan siyasətini, humanitar sahəsini, Azərbaycan müxtəlifliklərini, elmin və mədəni durumun vəziyyətini təşviq və təbliğ edir. Biz də güzgüvari əksə uyğun olaraq, öz universitetimizdə Belarus mərkəzi açmağı planlaşdırırıq. Güman edirəm ki, Azərbaycanla Belarus siyasi liderlərinin münasibətlərində biz bu istiliyi gördüyümüz kimi, mədəni əlaqələrin inkişafında, gənclərin bir-birilərinə yaxınlaşmasında həmin mərkəzlərin böyük faydası olacaq.

***– Bəs, Azərbaycan dili və mədəniyyəti mərkəzləri açdığınız ölkələrdə onların fəaliyyətini diqqətdə saxlayırsınızmı?***

– Həmişə diqqətimizdədir. Həm Çinin Xudjou universitetində, həm Rumınyanın Yassı universitetindəki mərkəzdə, Serbiyada, Pakistanda əvvəlcə Azərbaycan dili fakultativ səviyyədə keçildi, ardınca Azərbaycan həqiqətlərinə aid müxtəlif tədbirlər keçirməkdə məqsədimiz dərs proqramı səviyyəsində Azərbaycan dilini və mədəniyyətini təbliğ etmək oldu. Eyni zamanda, Azərbaycan multikulturalizmi fənnini həmin ölkələrdə tədris etməyi nəzərdə tuturuq.

***– Kamal müəllim, hansı universitetə təyin olunursunuzsa, orada həyat qaynayır. Buna necə nail olursunuz? Həmkarlarınız da “Kamal müəllim bizi dinc oturmağa qoymaz” deyirlər.***

– Desəm ki, buna tək nail oluram, düzgün olmaz. Elə həmin fikri deyən həmkarlarım sayəsində, birlikdə nail oluruq. Bütün bu işlər bir nəfərin zəhmətinin nəticəsi deyil. Sadəcə olaraq, o işləri dəqiq görmək, ideyanı ortaya atmaq, sonra da onun həyata keçirilməsinə nəzarət etmək lazımdır. Elə bilirəm ki, mənim məqsədimi, ideyamı doğru-dürüst anlayanlar, mənə kömək olanlar, Azərbaycanın səsini dünya universitetlərində qaldırmağa cəhd edənlər buna nail olurlar. 44 günlük Vətən müharibəsindən sonra cənab Prezident dünyanın müxtəlif yerlərindən gələn jurnalistlərə necə gözəl müsahibələr verdi, həqiqətləri böyük siyasi cəsarətlə bəyan etdi. Ona dəstək olaraq, belə bir ideya ortaya çıxdı ki, tələbələrimiz dillərini öyrəndikləri ölkələrin yüksək rütbəli məmurlarına, elm və mədəniyyət xadimlərinə həqiqətlərimizi əks etdirən məktublar göndərsinlər. Hamısını ingilis dilində yaza bilərdik, amma dedik ki, yox, qoy, hər kəs bu həqiqətləri öz dilində oxusun. Bizə yüzlərlə cavab gəldi, hətta Fransa senatından da. Çox maraqlı aksiya idi. Bunu bütün universitet etdi. Azərbaycan naminə, millətimiz naminə ideya beləcə gerçəkləşdi.

***– Bütün bu işlərin arasında ədəbiyyatı da unutmursunuz, necə vaxt ayırırsınız? Bütün gün universitetin işləri ilə məşğul olan adamın həm də “Gizli Dədə Qorqud”u, “Sehrbazlar dərəsi”ni, “Yarımçıq əlyazma”nı yazan adam olduğunu ağla sığışdırmaq olmur. Nə zaman vaxt tapırsınız?***

– Ya bunların arasında, ya da ayrıca. Ayrıca vaxt tapmaq həm asan, həm də çətindir. O dediyiniz əsərlər dünyanın bir çox dillərinə tərcümə olunub. Tərcümələri mən heç kimin boynuna qoymamışam, tərcüməçilər özləri təşəbbüs ediblər. Amerikada, Fransada, İtaliyada 2-3 və daha çox romanım çap olunub. Yazmaq təbi gələndə dayanmaq mümkün deyil. O, səni daxildən narahat edir, rahat yaşamağa qoymur. İçindən gələn bir səs deyir ki, yazmalısan bunu. Mən bilmirəm onları nə vaxt, necə yazmışam. Beyin paralel işləyə bilir. Haradasa universitetin təsərrüfat işləri ilə məşğul ola bilərəm, paralel şəkildə beynimdə “Sehrbazlar dərəsi”ndəki bir sevgi səhnəsi qurular. Burada çətinlik yoxdur. Mən yazdığımdan zövq alıram. Dostum Ramiz Rövşən deyir ki, Kamal yazanda dincəlir, bu qədər işdən sonra yazmaq onun istirahətidir. Düz deyir, zövq alıram, dincəlirəm. Zövq almadan yazdığın kin-nifrətdir, qaranlıq hisslərin müşayiəti ilə yazdığın, sadəcə, yazı deyil.

***– Zövq almadan yazmaq olar?***

– Niyə, yazanlar var. Baxırsan ki, mətn mətn deyil.

***– Dünya klassikasında çoxdur, mətn var ki, oxuyanı qaranlığa aparır, mətn də var ki, aydınlığa.***

– Olur, var.

***– Sizin mətnlərdə oxucu labirintə düşür, amma işığa çıxır.***

– Sizə bir məqamı deyim, qaranlığın da hikməti var. Qaranlıq bizim anladığımız mənfi çalarlı atmosfer deyil, qaranlığın da öz hikməti var. Məsələn, göy üzü qaranlıqdır, amma ulduzlar sayrışır. Ulduzlar o qaranlıq pərdəsinin deşilmiş nöqtələridir ki, yəni, o tərəfdə ucsuz-bucaqsız işıq var. İşıqmı, qaranlıqmı? Bu sualın cavabını tapmaq asan məsələ deyil. Qaranlığın öz fəlsəfəsi var.

***– Həm də ən qatı qaranlıqda bir zərrə də olsa işıq var…***

– Bəli, o bizim gördüyümüz işıq olmaya bilər, qaranlığın özünün bizə demək istədiyi, bizdən gizlənən, amma qaranlığın bizə təqdim etdiyi işıq ola bilər. Mənim “Kitabi-Dədə Qorqudda semantik sayrışmalar” kitabımda belə bir məqam var. Sayrışmalar nədir – işıq-qaranlıq, işıq-qaranlıq. Onlar bizim gözümüzdən ani olaraq keçir, amma onlara yaxınlaşsaq görərik ki, bu sayrışma bəlkə də min il sürür. Min il işıq, min il qaranlıq. Bax, o işıqdan qaranlığa, qaranlıqdan işığa keçən enerji ki, bizə gəlib çatır, bu işığın hərəkətini fizika belə izah edir: hərəkət həm korpuskulyar, həm də fasiləsizdir. Bu ikisini bir yerdə təsəvvür etməyən adam heç elmlə məşğul olmasa yaxşıdır. Onu təsəvvür etmək son dərəcə çətindir.

***– Həyatın özündə də elədir. Sizin əsərlərinizdə insan labirintə düşərək, çarpışır, haradansa bir işıq tapıb çıxır. Bir də əsərləriniz adamda belə təsəvvür yaradır ki, müəllif yaşadığı dünyadan başqa, paralel dünyaların da olduğuna inanır.***

– Bu, mənim fəlsəfi kredomdur, mən yaşadığımız dünyadan başqa paralel dünyaların olduğuna inanıram. Bir başqa paralel dünyada bayaq şəkil çəkən fotoqraf oturub bizə qulaq asır. Bir başqasında biz çay içirik, o birində içmirik. Sonsuz sayda ulduzlar varsa, deməli, həmin ulduzların hər biri həyatla dolu olmalıdır. Həyatımızın hər parçası o ulduzlarda öz davamını yaşayır.

***– Düşüncəniz gələcəyə gedir, bəs, nə yaşayacağınızı öncədən duymaq olur?***

– Bunu düşünməmişəm, açığı, kimsə bəlkə oxuyanda onu hiss edib, amma mən münəccim deyiləm. Hansısa yazdığımda bu özünü göstəribsə, yəqin, özünü doğruldub. Bir məqam var ki, mən həmişə Qarabağa qayıdacağımıza inanmışam. Nəyə görə inanmışam? Prezidentimizin qətiyyətinə görə, sözünə, hərəkətlərinə görə inanmışam.

***– Qarabağ demişkən, bu mövzuda Kamal müəllimdən bayaq adlarını çəkdiyimiz əsərlər janrında bir əsər gözləyə bilərik?***

– Mənim beynimin dərin qatlarında bu saat hansı prossesin getdiyini bilmirəm. Ola bilər ki, orda Qarabağla, getdiyim yerlərlə, gördüyüm insanlarla, təəssüratlarımla bağlı hansısa proseslər gedir. Mən Qarabağda Şuşanın əsarətdə olduğu vaxtda da olmuşam, azad ediləndən sonra da. Bildiyiniz kimi, xalq diplomatiyası deyilən prosesin tərkib hissəsi kimi biz erməni tərəfdən alim, yazıçı, mədəniyyət xadimləri ilə görüşürdük. Demək çətindir, bu gün hansı proses gedir. Biz Qarabağla bağlı əsgərlərin ora getdikləri yolları öz ayaqlarımızla gedəndən sonra nə isə deyə, yaza bilərik. Payi-piyada o yolları ki, ordumuz keçdi, dırmaşdı qayalıqlara, oradan keçib, o otların ətrini duya-duya o yerlərdə olmalıyıq.

Müharibə ilə bağlı bəzi hekayələrim var. Bunlar hələ ayrı-ayrı ştrixlərdir, onları geniş şəkildə yazmaq üçün adam gərək özündə bir təpər hiss etsin. Proses bütövləşdi, indi bir qədər vaxt lazımdır ki, görək onu necə dərk edirik. Çünki bir şeydən yazmaq üçün onun kontekstini təsəvvür etmək vacibdir. Biz qalib xalq kimi bu konteksti necə təsəvvür edə bilərik? Orada erməni qalacaqmı, yoxsa hamısı gedəcək, qalacaqsa, münasibətlər necə qurulacaq? Bu sualların hamısının kontekst şəklində cavabı olmalıdır.

***– Siz Şuşa işğalda olanda ora getmişdiniz. Bu gündən o günə baxanda nələri görürsünüz, duyursunuz?***

– Bu, Rusiya, Azərbaycan, Ermənistan arasında razılaşdırılmış bir aksiya idi. Bir gün ərzində beş azərbaycanlı və beş erməni, əvvəlcə Xankəndidə, Şuşada, Yerevanda və nəhayət, onlarla birlikdə Bakıda olduq. Bakıda cənab Prezident bizi qəbul etdi, Yerevanda da onların prezidenti qəbul etmişdi. Sonralar da Moskvada, Almaniyada bu formatda görüşlər olurdu. Mənim yadımda həmişə bir ağrı qalırdı ki, biz Qarabağdan danışan kimi, onlar Qarabağı qoyaq kənara, gəlin ədəbiyyatdan, mədəniyyətdən, dünyadan danışaq deyirdilər. Qalırdıq yana-yana ki, bizi axı bura Qarabağ mövzusu gətirib. Bunlar söhbətdən yayınırdılar. 44 günlük müharibədən sonra eyni formatda Moskvada görüş oldu. Bunlar partlayırdılar ki, Qarabağda bizmkilər əsirdir, filan, bəsməkan. Mən də qayıtdım ki, Qarabağdan niyə danışırıq, bu artıq problem deyil, gəlin ədəbiyyatdan, musiqidən danışaq. Bunlar çaşıb qaldılar. O tikanı belə ürəyimdən çıxartdım.

Qarabağla bağlı Azərbaycan Prezidenti öz sözünü dedi, həyata da keçirdi. Dünyada tək prezidentlərdəndir ki, deyir və həyata keçirir. Başqaları bir söz deyir, ayrı iş görür. Taleyranın məşhur sözü yadıma düşdü, deyir dil verilib ki, insanlar öz fikirlərini gizlədə bilsinlər. Yəni aldatsınlar. Bizim Prezidentimiz bu fikirdən son dərəcə uzaqdır, mən ona inanıram. Hamı görür ki, Azərbaycan Prezidentinin sözü və əməli birdir. Qarabağ erməniləri də multikultural bir cəmiyyətdə yaşamağın nə olduğunu bilmək istəyirlərsə, daşı ətəklərindən töksünlər, onlara zülm edən hərbi xuntanın təsirindən qurtarıb xoşbəxt gələcəyə addım atsınlar.

***– Qarabağda bu gün baş verənləri necə dəyərləndirirsiniz?***

– Son dərəcə müsbət hal kimi. Bütün dünya görür ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir, öz dövlətinin rəhbərliyi altında xalqımız arzuladığını reallığa çevirir.

***– Qayıdaq yenə ədəbiyyata, bu zərurət sizin yaradıcılığınızın teatr qoluna toxunmağın marağından irəli gəldi. Həsənağa Turabovun dövründə sizin əsərləriniz beş teatrda tamaşaya qoyulub, “Yuğ”da çox tamaşalarınıza baxmışam…***

– Həsənağa Turabov mənim yaxın dostum idi, amma onun vaxtında yalnız bir əsərimi orada tamaşaya qoydular: “Hərdən mənə mələk də deyirlər” pyesimə rejissor Əsgər Əsgərov quruluş verdi. Vaqif “Casus” pyesini də hazırladı, amma ictimai baxışa qədər gəldi, premyerasına qadağa qoydular. Bizim Turabovla dostluğumuz çox dərin idi, Allah ona rəhmət eləsin. “Yuğ”da isə çox əsərlərim tamaşaya qoyulub. Vaqif İbrahimoğlunun ruhu qarşısında baş əyirəm, o tamaşalarda əziyyət çəkənlərə çox minnətdaram. “Yuğ” çox ciddi teatr məbədidir.

***– Bu yaxınlarda Lənkəran Dövlət Dram Teatrında da əsəriniz tamaşaya qoyuldu.***

– Lənkəran Teatrı həmin o “Casus” pyesimi tamaşaya hazırladı, indi repertuardadır. Mİlli Dram Teatrının kiçik səhnəsində “Bir, iki, bizimki” gedir. Rejissor Bəhram Osmanov “Sehrbazlar dərəsi”ni tamaşa kimi hazırlayır. Son dərəcə ciddi rejissordur. Xarici ölkələrdə də əsərlərim tamaşaya qoyulub. Tiflisdə Rustaveli teatrında gürcü dilində “Kim dedi ki, Simurq quşu var imiş?!” əsərim oynanılıb. Bu əsər Estoniyada da tamaşaya qoyulub. Yenə də Vaqif İbrahimoğlunun təklifi və dəstəyi ilə bunu rejissor Gümrah Ömər etdi.

***– Bu yaxınlarda İtaliyaya, Türkiyəyə səfərləriniz də yaradıcılıqla bağlı idi, yoxsa təhsillə?***

– İtaliyanın Milan şəhərinə səfərim orda çıxan kitablarımın növbəti prezentasiyası ilə bağlı idi. İtaliyada “Yarımçıq əlyazma” və “Sehrbazlar dərəsi” çap olunub. Mənim üçün böyük təəssürat həm də o oldu ki, “Yarımçıq əlyazma” İtaliyada çap ediləndən sonra məni Umberto Eko evinə dəvət etmişdi və onunla kitab, Azərbaycan ədəbiyyatı, Azərbaycan həqiqətləri ətrafında 2 saat yarım söhbət etdik. Unudulmaz görüş idi. İndi də Milan şəhəri yaxınlığındakı Monzo şəhər merinin təşkil etdiyi bir tədbir idi və kitablara ön söz yazan məşhur şərqşünas alim Franko Kardininin Parisdən gələrək daha bir təqdimatda iştirak etdi. Kitabları imzaladıq, müzakirə oldu oxucularla, çox maraqlı idi.

Türkiyəyə isə Lütfi Zadə ideyalarının əsas daşıyıcısı və yayıcısı olan görkəmli alimimiz Rafiq Əliyevin dəvəti ilə getmişdim. O, ildə bir dəfə qeyri-səlis məntiqə həsr edilmiş beynəlxalq konfrans keçirir. Konfrans çərçivəsində Rafiq müəllimlə bir yerdə yazdığımız “Kitabi-Dədə Qorqud və qeyri-səlis məntiq” kitabının təqdimatını keçirdik. Kitab barədə maraqlı, ciddi söhbətlər oldu. Rafiq müəllimin dediyinə görə, Lütfi Zadənin ən böyük arzusu nəzəriyyəsinin dəqiq elmlərdən daha çox sosial elmlərə tətbiq olunması idi. Yazdığımız bu kitab Zadənin arzusunu həyata keçirir, ilk dəfə Azərbaycan dastanında qeyri-səlis məntiqin hənirtisini üzə çıxarır. Biz bu kitabda sübut etməyə çalışmışıq ki, əcdadımız qeyri-səlis məntiq kriteriyaları ilə düşünüb, bu isə onun tolerantlıq, multikultural istiqamətdə düşüncələrinin əksi kimi özünü göstərir. Bir var, Aristotel kimi deyəsən ki, bu ya ağdır, ya qaradır, vəssəlam, bir də var, deyəsən ki, ağla qaranın arasında başqa çalarlar da yox deyil. Seçim imkanı böyüdükcə sənin həmin məsələyə demokratik yanaşman ortaya çıxır.

“Kitabi-Dədə Qorqud”un müəllifi ancaq Dədə Qorqud deyil, çünki hadisənin biri eralardan əvvəldən danışır – Basat Təpəgözü öldürdüyü zamandan. O biri Məhəmməd Peyğəmbərin zamanından danışır. Uzun bir zamanı əhatə edir, ona görə bu, bir növ anaxronik mətn kimidir. Əslində, Dədə Qorqud kimi bir şəxsiyyət yoxdur, o, bir prinsipdir. Bütün bu dastanın ayrı-ayrı qollarını üzə çıxaran prinsip. Ona görə də dastan qeyri-səlis məntiqin kriteriyalarını gözəl şəkildə üzə çıxarır. Dediyimiz demokratik yanaşma, tolerant münasibət qeyri-səlis məntiqin prinsiplərinin içindən çıxır və göstərir ki, iki əks qütbün arasında başqa bir məqam da var. Aristotel deyir, bu adam ya ölüdür, ya diri, amma “Dədə Qorqud”da başqa bir hal da var. Deyir ki, ol zamanlar Oğuz igidləri 7 gün, 7 gecə yatardılar, adına küçücük ölüm derlərdi. Yəni, nə ölüdür, nə diri. Deməli, araya bir qütb də girdi. Kiçicik ölümə bu gün koma deyilir. Deməli, ölü, diri və koma vəziyyəti. Ortadakı “üçüncü” bu əks qütblərə bir yumşaqlıq, həlimlik gəlir. Dünyanı onun olduğu rənglərdə görmək cəhdi “Dədə Qorqud”u bu istiqamətdən də maraqlı edir.

***– Türk dünyasının dastanıdır “Dədə Qorqud”, amma hər türk ölkəsinin də öz Dədə Qorqudu var. Siz də bir başqa “Dədə Qorqud” yaratdınız…***

– Mən yaratmamışam, mən ondakı gizlinləri görməyə çalışmışam. İndi deyirlər, mən, guya, bəzən mövcud çərçivələrdən kənara çıxmışam, amma “Dədə Qorqud” dastanında olan xətlərdən heç vaxt kənara çıxmamışam. Deyirlər, məsələn, Beyrək müsbət qəhrəmandır, sən niyə onu bu cür vermisən?! Nə yazmışamsa, mətnin özündən çıxıb. Doğrudur, Beyrək öz həyatını Qazan xanın yolunda qurban verir, o, sədaqətli igiddir. Amma yadınızdadırsa, zindanda olarkən, Bayburd bəyin qızı hər gün Beyrəyi görməyə gələrdi. Bir gün gəldi, gördü, Beyrəyin halı xarabdır. Deyir nə oldu sənə, igidim, hər gün gələndə səni şən görərdim, deyərdik, gülərdik, indi nə olub? Demək, bu, hər gün gəlib Beyrəklə burda kef edirmiş. Beyrək belə Beyrəkdir. Tanıdığımız yaxşı və pis Beyrəyin ortasındakı Beyrək. Nə yaxşıdır, nə pis. Qıza söz verir ki, məni xilas etsən, qayıdıb gəlib səni halallıqla alacam. Amma azad olur, gedir Banuçiçəyə qovuşur, gəlib bunu almır, unudur. Beyrəyin oğuz qəhrəmanı kimi dastanın sonunda öldürülməsi məhz onun sözə xilaf çıxmağındandır. Verdiyi sözə əməl etmir. Bunları heç kim deməmişdi. Yəni, mən dastanın içindən çıxan, amma görünməyən yerlərinə, gizli qatlarına enib onları açmağa çalışmışam.

***– Və o gizlinləri görməyənlər, görə bilməyənlər qınayır. Bəzən də dastanın özündən yox, “Dədə Qorqud” filmindən çıxış edərək.***

– Bəli. Onlara qıcıq gəlir.

***– Umberto Eko da sizdən onu soruşmuşdu, sizin də idiotlar, bizim idiotlar kimi sual verir?***

– O, belə dedi: Məndən burada bizim idiotlar soruşan kimi ki, belə bir əlyazma var, ya yox, sizin idiotlar da orada səndən bunu soruşdularmı?

***– İndi nə yazırsınız, Kamal müəllim?***

– Bir romana başlamışam keçdiyim həyat yolundan. Mənim gözəl müəllimlərim olub, mənə dərs deyən müəllimlər, evdəki müəllimlər. Dayılarım Əli Sultanlı, Məmmədhüseyn Təhmasib, yeznələrim Yəhya Məmmədov, Ağamusa Axundov. Məktəbdə Zərbəli Səmədov kimi müəllimim olub, ədəbiyyatın ilk sirlərini ondan öyrənmişəm. Universitetdə Mir Cəlal Paşayev, Muxtar Hüseynzadə, Ağamusa Axundov, Musa Adilov, Əlövsət Abdullayev, Yusif Seyidov, Təhsin Mütəllibov. Moskvada aspirantura illərində Ninel Hacıyeva, Ədhəm Tenişev, Nikolay Baskakov, Ənvər Makayev, B. Serebrennikov… Bu elm dühalarından başqa, tam səmimiyyətlə deyirəm, tələbələrim də mənim müəllimlərim olublar. Tələbələrimin özünün xəbəri olmadan mən onlardan da nə isə öyrənmişəm.

***– Sizin ətrafınızın əzbər bildiyi bir şüarınız var – öyrədərək, öyrənirik…***

– “Dosento-dissimus” dilimin əzbəridir. “Öyrədərək öyrənirəm” deməkdir. Öyrətdiyim adamın reaksiyasından öyrənməyə çalışmışam. Həyatımın müxtəlif dolaylarında çox maraqlı insanlarla görüşlərim olub. Cənab Prezident mənə böyük bir sahəni etibar edib və bu istiqamətdə çalışdığım zaman yadımda qalan çox insanlar olub. Bütün bunlar beynimdə fırlanır. Həyatımın elə məqamıdır ki, heç nəyi gizlətmədən, bəzəmədən, hər şeyi öz adı ilə adlandıran bir roman yazmaq fikrindəyəm. Məsələn, elə bircə “Qoşma” verilişi Azərbaycan televiziyasında ədəbiyyatla bağlı ilk təmiz, vicdanlı söz kimi efirə çıxdı. İndiyə qədər o verilişi xatırlayırlar.

Bir dəfə Xudu Məmmədovla Ağdamda görüşdük. Mən ora milli qəhrəman Allahverdi Bağırovun döyüşçülərinə dərman yardımı aparmışdım. Xudu müəllim məni öz oxuduğu məktəbə apardı, uşaqlara məni göstərib soruşdu ki, bilirsiniz bu kimdir? Bir uşaq qayıtdı ki, hə, bilirəm – Qoşma müəllim. O ifadə indiyə kimi yadımdan çıxmır. “Qoşma” Azərbaycan ədəbi mühitində səslənməyən adlar haqqında ilk veriliş idi. İlk dəfə Əhməd bəy Ağaoğlu, Əli bəy Hüseynzadə, Əhməd Cavad, Almaz Yıldırım və bir çox başqaları ilə bağlı verilişlərimiz oldu.

Ənvər Məmmədxanlı televiziyadan küsmüşdü, heç bir verilişə gəlmirdi. Yaxşı münasibətimiz vardı deyə, mən xahiş etdim. Dedi ki, “Qoşma”ya gələrəm. Televiziyada inanmadılar, dedilər, gəlməyəcək. Gəldi, bir saatlıq söhbətimiz oldu. Kameralar sönəndə bir də baxdım ki, arxada bir dəstə adam yığışıb əl çalır. Televiziyanın işçiləri idi, mənə yox, Ənvər Məmmədxanlıya əl çalırdılar.

***– Həyatınızdan nə qədər adamlar keçib, dost, müəllim, əhatə itirmisiniz. O itkilər sizdə özünü necə göstərib?***

– Çox böyük ağrı və üzüntülərlə. Bu saat görürəm ki, yanımda ola biləcək dostlarımın çoxu yoxdur. Bu, çox böyük üzüntüdür. Hamısını rəhmətlə, ehtiramla anıram. Uşaq vaxtı itirdiyim sinif yoldaşımdan tutmuş Azad Mirzəcanzadəyə qədər. Hər dəfə səndən bir parça gedir.

***– Elə bir əsəriniz varmı ki, yazmısınız, amma çapa vermirsiniz ki, onun zamanı deyil, məndən sonra çap olunar?***

– Yox, elə əsərim yoxdur. 7 cildliyim çıxır, 6 cildi çap olunub, 1-i də artıq mətbəədədir. Bütün əsərlərim orada var. Yazdığım memuar əsərə hətta 5-ci, 6-cı sinifdə yazdığım şeirləri də əlavə etmişəm, qoy, onlar da oxunsun ki, bilinsin, o vaxt nə cür zəif şeirlər yazmışam.

***– Yazıçılar bəzən deyirlər ki, hər əsərimdə bir az da özüm varam.***

– Mən bir az yox, bütünlüklə varam əsərlərimdə. Tənqidçilər yazmışdılar ki, “Unutmağa kimsə yox” əsərimdəki Bəhram kişi çobandır, amma paralel dünyalardan danışır, dilçi alimlər kimi fikir yürüdür, belə çoban olar? Yadıma bir məqam düşür, Flober deyirdi ki, madam Bavari mənəm. Düz deyirdi. Hər bir yazıçı öz əsərinin qəhrəmanıdır. Bəhram kişi də mənəm, F.Q. də mənəm, Afaq da mənəm. O sovet vaxtı idi, çobanın obrazını yazmaq üçün gedib çoban yaşayan mühitdə onunla qalıb müşahidə edirdilər. Bu cür yanaşma mənə görə deyil. Mən öz fikirlərimi obrazlarla yazıram. Folkner deyirdi ki, ədəbiyyat sən bildiyin şeylərdən danışırsa bu, ədəbiyyatın krizisidir. Gərək yazıçı obrazları, ideyaları qoysun ortaya. İdeyalardan personaja gəlmək lazımdır, personajdan ideyaya yox.

***– Sovet vaxtı elə bilirdik ki, Qacarla Vaqifin dialoqu elə Səməd Vurğunun “Vaqif” pyesində olduğu kimi olub.***

– Ədəbi qacarlar müxtəlifdirlər. Çəmənzəminlinin “Qan içində” əsərindəki Qacar başqadır, Haqverdiyevin tamam başqa Qacarı var. Qacar birmənalı obraz deyil. Birmənalı şəxsiyyət də olmayıb. Səməd Vurğunun Qacarı bədii təxəyyülün məhsuludur. Oradan bir misranı götürərdim ki, bəlkə də bütün Azərbaycan ədəbiyyatının üstünə işıq salır: şair, hökmdarın hüzurundasan! Bu misradakı həqiqəti bütün yazıçılara və şairlərə aid etmək olar. Kimdir şair, kimdir hökmdar, kimdir haqlı, kimdir haqsız, kimdir zalım, kimdir məzlum? Cavabı tapılmaz. Çexovun bir fikri var, deyir, hər bir insan həyatı boyu öz içindəki qulu əzməklə məşğuldur. Şair şahı, şah şairi…

***– Bir şəxsiyyətdə bu qədər obraz cəmləşib: yazıçı, alim, təşkilatçı… Yenə rektorla başladığım söhbəti rektorla tamamlamaq istəyirəm. Bir rektor kimi sizi sevənlər də çoxdur, tələbələr də, müəllimlər də… Siz BSU-dan gedəndə arxanızca hətta ağladılar.***

– Mən çox minnətdaram o göz yaşlarına.

***– Bəs kimi, necə “incitmisiniz” ki, sizi azarlayanlar da, iftira atanlar da tapılır, neynəmisiniz onlara? Onlar nə istəyirlər sizdən?***

– Bu, onların tərbiyəsindən irəli gəlir. Belə deyim: məni hədəfə alanlar həmişə məndən nə isə istəyiblər, mən isə həmişə onların istədiklərini onlara verə bilməmişəm. Əsl səbəb budur.

***– Maraqlı söhbət üçün təşəkkür edirəm, Həmişəki kimi, bu gün də sizdən öyrəndim.***

***Ramilə QURBANLI***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Berlində kansler və 5 prezidentin görüşü

## Sammitin əsas mövzusu "Orta dəhliz" olub



**Almaniya və Orta Asiyanın beş müstəqil dövlətinin liderlərinin iki gün əvvəl Berlində keçirilən görüşü çoxları üçün gözlənilməz olub. Adətən, belə mühüm tədbirlər qlobal medianın diqqətində olur. Bu dəfə isə tədbir barədə geniş ictimaiyyətə əvvəlcədən məlumat verilməyib.**

Bu məqam, təbii ki, Berlin sammitinin əhəmiyyətini heç də azaltmır. Diqqətçəkən cəhətlərdən biri də odur ki, "Orta dəhliz"lə bağlı siyasi səhnəyə digər aktorlarla bərabər, indi Almaniya da çıxır. Görünür, Berlin, bu iri kommunikasiya layihəsinin əhəmiyyətini yaxşı başa düşür və kənarda qalmaq istəmir.

Almaniya Kansleri Olaf Şoltsun təşəbbüsü ilə Berlində baş tutan tədbirdən sonra mediaya verilən açıqlamada qeyd olunur ki, Orta Asiya dövlətləri və Almaniya öz aralarında tarixdə ilk dəfə keçirilən sammitdən sonra Asiya ilə Avropanı birləşdirəcək "Orta dəhliz" marşrutunun yaradılması barədə razılığa gəliblər.

Almaniya mətbuatı onu da yazır ki, kansler tədbirdə ölkəsinin Qazaxıstan, Qırğızıstan, Tacikistan, Türkmənistan və Özbəkistan liderləri ilə iqtisadiyyat, enerji və təbii ehtiyatlar sahələrində sıx əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu vurğulayıb. Jurnalistlərin sözlərinə görə, Berlində müzakirələr, həqiqətən, məhsuldar və səmərəli olubdur.

Almaniya iqtisadi gücünə görə, Avropada birinci, dünyada dördüncüdür. Bu ölkə ilə hərtərəfli iqtisadi əlaqələr qurmaq Orta Asiya dövlərinin milli və strateji maraqlarına tamamilə uyğundur. Onlar öz ixrac marşrutlarını şaxələndirməyə çalışırlar.

Kansler, öz növbəsində, alman iş adamlarının region ölkələrinin iqtisadiyyatına iri sərmayələr yatırmaqda maraqlı olduğunu vurğulayıb. Almaniya ümid edir ki, bu ölkədə istehsal olunan mallar Orta Asiya dövlətlərinin böyük istehlak bazarında özünə layiqli yer tutacaq. Eyni zamanda, region zəngin xammal ehtiyatlarına malikdir.

Bu arada Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) "Orta dəhliz"in əsas seqmentlərindən olan "Mərkəzi Transxəzər Şəbəkəsi"ni dayanıqlı nəqliyyat şəbəkəsi kimi təsnif edən yekun hesabatı təqdir edib. Orta Asiya dövlətlərinin prezidentləri bu məqamı yüksək dəyərləndiriblər. Bu fakt həm də ona dəlalət edir ki, Almaniya "Orta dəhliz"in maliyyələşdirilməsi üçün söz sahibi olduğu AYİB-nin maliyyə dəstəyini təmin etmək əzmindədir.

Liderlər layihə çərçivəsində gələcəkdə enerji təhlükəsizliyini gücləndirmək, alternativ enerji təchizatı marşrutlarını inkişaf etdirmək, nəqliyyat və tranzit əlaqələrini yaxşılaşdırmaq, iqlim və ətraf mühitə uyğun iqtisadiyyata doğru irəliləmək məqsədlərini də dilə gətiriblər.

Sammitdə Almaniya Kansleri Olaf Şoltsla bərabər, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emomali Rahmon, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov iştirak ediblər.

"Orta dəhliz" fəaliyyətə başlasa, bu, böyük bir coğrafi məkanda dövlətlər və xalqlar üçün yeni fürsətlər yarada bilər. Azərbaycanın üç il əvvəl erməni işğalı altında olan torpaqlarını azad etməsi, son günlər isə ölkəmizin uğurla həyata keçirdiyi lokal antiterror addımlar Zəngəzur dəhlizinin tezliklə açılacağına ümidləri artırıb.

Xatırladaq ki, bir müddət əvvəl Almaniya Kansleri Çində rəsmi səfərdə olub və Çin Xalq Respublikasının Sədri Si Cinpinlə layihə ilə bağlı danışıqlar aparıb.

Bu yandan isə "Orta dəhliz"in rəqibi üzə çıxıb. Belə ki, "Böyük iyirmiliy"in Dehli sammitində Hindistanı Səudiyyə Ərəbistanı üzərindən İordaniya və İsraillə, oradan isə dəniz yolu ilə Yunanıstanı birləşdirən yeni nəqliyyat layihəsinin təqdimolunma mərasimi keçirilib. ABŞ, Fransa və bir çox Qərb dövlətləri məhz ikinci layihəni dəstəklədiklərini bəyan ediblər.

Berlin isə başqa fikirdədir. Görünür, Almaniya "Orta dəhliz"in daha sərfəli və səmərəli olduğuna əmindir və bu məsələdə praqmatik mövqe nümayiş etdirir.

Böyük siyasətdə fürsətləri vaxtında və düzgün dəyərləndirmək çox vacibdir. Zaman kimin haqlı olduğunu özü göstərəcək.

***Məsaim ABDULLAYEV***
***XQ***

### EKSPERT RƏYİ



**Mübariz MƏMMƏDLİ,**
**fəlsəfə doktoru, siyasi şərhçi**

– Almaniyanın "Orta dəhliz"ə maraq göstərməsi, bütövlükdə, müsbət hadisədir və bizim ölkənin də milli maraqlarına uyğundur. Berlin maliyyə sahəsində layihəyə təsirli dəstək verə bilər. Almaniyanın maddi imkanları böyükdür.

Qeyd etmək lazımdır ki, son illər Mərkəzi və Orta Asiya regionunda yerləşən dövlətlərin Çin ilə sıx əlaqələri yaranmağa başlanıb və bu proses yüksələn xətlə inkişaf edir.

Çinin regionda nüfuzunun artması isə Vaşinqtonu narahat edir. Buna görə də, Ağ evin hazırkı sahibi beş Orta Asiya ölkəsi ilə hərtərəfli əlaqələrini genişləndirməyi qərara alıb. Prezident Co Baydenin Nyu-Yorkda həmin ölkələrin liderləri ilə görüşünün səbəbi də məhz bu idi.

Bununla bərabər, Pekini bölgədən sıxışdırıb çıxarmaq o qədər də asan deyil. Ən azı ona görə ki, Qədim İpək Yolunun üzərində yerləşən Orta Asiya ölkələri "Orta dəhliz" vasitəsilə həm Çin, həm də Avropa ilə ticarət əlaqələrini genişləndirməkdə maraqlıdırlar.

2022-ci ilin fevralında Rusiyanın Ukraynaya hücumundan sonra MDB məkanında yeni geosiyasi reallıqlar yaranıb. Bu, Orta Asiya liderlərini ehtiyatlandırır. Onlar bölgəyə yeni güclü, demolratik dəyərlərə üstünlük verən dövlətlərin gəlməsində maraqlı görünürlər.

Yaxşı haldır ki, Orta Asiya regionunun özündə də ciddi inteqrasiya prosesləri gedir. Bu dövlətlərin başçıları səviyyəsində tez-tez görüşlər keçirilir, qarşıya çıxan bir çox problemlər operativ həllini tapır.

Əlamətdar haldır ki, regionda Türkiyənin rolu və nüfuzu durmadan artır. Qardaş ölkə Orta Asiya xalqları üçün "yumşaq güc" mənbəyi sayılır. Bu regionda Türkiyənin mövcudluğu Qərbin də xeyrinədir.


# "Azərişıq" ASC

Elektrik ötürücü xətlərində elektrik mühafizə və ölçmə avadanlıqlarının satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1. "Azərişıq"ASC-nin elektrik ötürücü xətlərində elektrik mühafizə və ölçmə avadanlıqlarının satın alınması.

İştirak haqqı 1500 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Əlaqələndirici şəxs- Emil Əliyev.

Təşkilat - "Azərişıq" ASC

H/h - AZ83AIIB33020029441802068118

VÖEN - 9900069391

Benefisiarın Bankı "Kapital Bank"ın Gənclik filialı

Kod - 200189

VÖEN- 9900003611

M/h- AZ37NABZ01350100000000001944

SWIFT Code: AIIBAZ2X

Əlaqə telefonu (şəhər)- 012 440 39 93 (daxili 92-62)

Elektron poçt: emil.aliyev@azerishiq.az

Ünvan- AZ1009. Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə. (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış. (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir.)
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış; (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti; (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).
7. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış; (sənədlərin təsdiqinin tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).
8. İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki).
10. İddiaçının son 3 (üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, analoji işlərdə təcrübəsi haqqında məlumat.
11. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
12. İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün həmin sahədə peşəkarlığının, iş təcrübəsinin, texniki və maliyyə imkanlarının, elktrik mühəndislərinin əmək müqavilələrinin, işçi qüvvəsinin, idarəetmə səriştəsinin olması vacibdir. Bununla yanaşı "SATICI" son üç ildə elektrik ötürücü xətlərində elektrik mühafizə və ölçmə avadanlıqlarının satın alınması üçün hər birinin ümumi məbləği 3 milyon manatdan az olmamaq şərtilə ən azı 3 oxşar layihənin icrasını başa çatdırmış olmalı və təsdiqedici sənədləri təqdim etməlidir.
13. Müvafiq lisenziya və icazələr.
14. Rəsmi distribyutor və diler müqaviləsi və ya məktub.
15. Ən azı 2 şirkətdən tövsiyə məktubu təqdim olunmalıdır.
16. Satınalınan mal-materialların nümunələri təqdim olunmalıdı və təqdim edilən mal-materiallara 3-5 il ərzində zəmanət verilməlidir. (Çin Xalq Respublikasının mal-materialları təqdim edilməməlidir).
17. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
18. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
19. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).
20. Təklif olunan mallar əsas şərtlər toplusundakı parametrlərə tam cavab verməlidir.

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 6 noyabr 2023-cü il saat 15.30-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 16 noyabr 2023-cü il saat 15.30-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 17 noyabr 2023-cü il saat 15.30-da Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***


Beynəlxalq Atletlər Forumu

# Erməni idmançının yersiz siyasi iddiası rədd edilib

**İsveçrənin Lozanna şəhərində 11-ci Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Beynəlxalq Atletlər Forumu (IAF) keçirilib. Azərbaycan Atletlər Komissiyasının sədri, "Rio-2016" Yay Olimpiya Oyunlarının gümüş mükafatçısı Rüstəm Orucovun da iştirak etdiyi forumda bütün ölkələri təmsil edən komissiya üzvləri ən vacib məsələləri müzakirə ediblər.**



Forumun birinci günündə erməni idmançı isə beynəlxalq atletika diskussiyasını siyasi iddia meydanına çevirməyə cəhd edib. Ermənistan təmsilçisi Arsen Culfalakyan idman mövzusunu bir kənara qoyub, müharibə şəraitində olan ölkəsinin hazırda 125 min qaçqını olduğunu bildirib.

Azərbaycan Atletlər Komissiyasının sədri Rüstəm Orucov dərhal erməni idmançının yalan və böhtanını cavablandırıb: "30 il əvvəl müharibəni ermənilər başladı və torpaqlarımız işğal edildi. Biz heç kimin torpağına göz dikməmişik. Əgər hazırda sizdə qaçqın varsa, bu problem deyil, onlar Qarabağda qalıb, yaşaya bilərlər. Bu gün Qarabağı könüllü tərk edərək Ermənistana gedən erməni əsilli şəxslərin Azərbaycanın humanistliyi sayəsində Laçın sərhəd-buraxılış məntəqəsindən sərbəst keçidi üçün şərait yaradılır. Onlara qarşı heç bir zorakılıq edilmir".

Soydaşımız bildirib ki, Azərbaycan Qarabağ ermənilərinin reinteqrasiyasına hərtərəfli şərait yaradıb, Qarabağdakı erməni sakinlərə ərzaq və tibbi yardım göstərir. Erməni separatçıları isə 1990-cı illərdə xalqımıza qarşı böyük vəhşiliklər törədiblər: "Əliyalın soydaşlarımız xüsusi amansızlıqla, işgəncələrə məruz qalaraq qətlə yetirilib, genosidə məruz qalıblar. Onlar öz vətənində məcburi köçkünə çevrilmişdilər".

Rüstəm Orucov idmanı siyasətə qatmamağı və mübarizəni tatamidə aparmağın lazım olduğunu söyləyib.

Forumda komissiyanın son işlərinin icmalı və yenilənmiş strategiyası müzakirə edilib. Tədbirdə Rusiya və ya Belarus pasportu olan idmançıların beynəlxalq yarışlarda fərdi neytral idmançı kimi iştirakı ilə bağlı beynəlxalq federasiyalara və idman təşkilatçılarına BOK və onun nəzdində fəaliyyət göstərən Atletlər Komissiyasının təqdim etdiyi tövsiyələr də müzakirə edilib. Daha sonra idmançılara dəstək, Olimpiya Hərəkatının maliyyələşdirmə modeli və onları BOK vasitəsilə dəstəkləmək üçün mövcud proqramlar, o cümlədən Olimpiya Həmrəyliyi, "Athlete 365" və Ümumdünya Olimpiya Tərəfdaşlarının hazırladığı proqramlar barədə fikir mübadiləsi aparılıb.

***L.QURBANOVA***
***XQ***


# Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutu

***"Tikinti normalarının ekspertizası və innovasiyalar" şöbəsinə aşağıdakı vəzifələr üzrə vakansiyalar***

## ELAN EDİR

**Baş mütəxəssis – 2 nəfər.**
**Mütəxəssis – 1 nəfər.**

***Baş mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə PhD diplomuna malik olmalıdır; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində 10 ildən, həmçinin uyğun təşkilatlarda layihələndirmə üzrə 3 ildən az olmayan təcrübəyə malik olmalıdır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri (sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | "Microsoft" Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə arzuolunandır; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində müstəqil kvalifikasiya qiymətləndirilməsindən sertifikata malik olması arzuolunandır. |

***Mütəxəssis vəzifəsinə iddialı namizədə dair tələblər:***

| | |
|---|---|
| Təhsil: | Şəhərsalma (və ya inşaat) istiqaməti və ya ixtisası üzrə respublikada və ya xaricdə magistratura təhsili səviyyəsini bitirməsi; |
| İş təcrübəsi: | Şəhərsalma (və ya inşaat) sahəsində təcrübəyə malik olması və ya elmi-tədqiqat, layihə institut və təşkilatlarında təcrübə keçməsi arzuolunandır; |
| Dillər: | Azərbaycan, ingilis və rus dilləri bilikləri ( sərbəst olmaqla minimum 2 dil); |
| Kompüter bilikləri: | "Microsoft" Office və müxtəlif layihələndirmə kompüter proqramlarından istifadə; |
| Sertifikat: | Şəhərsalma (və ya inşaat) sahəsində yerli və xarici elmi-praktik konfranslarda və "startap" layihələrində, müxtəlif vebinarlarda iştirak, eləcə də kompüter layihələndirmə proqramlarına dair sertifikatlara malik olması arzuolunandır. |

**Əlavə məlumatı Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutuna müraciət etməklə əldə etmək olar.**
**Əlaqə telefonları – 012 596 37 60 (dax. 248,252) +994 50 681 78 72.**
**E-mail – nazim.cafarov@arxkom.gov.az**
**İnstitutun ünvanı – Bakı şəhəri, Füzuli küçəsi 65.**

***MÜDİRİYYƏT***

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi

# Azərbaycan Dövlət Rəssamlıq Akademiyası

Kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir.
Akademik rəngkarlıq və kompozisiya - 1 ştat dosent – 1 yer, 1 ştat baş müəllim - 1 yer.
Rəsm – 0,5 ştat dosent – 1 yer.
Humanitar və ictimai fənlər - 1 ştat dosent – 1 yer.
İncəsənət tarixi –- 1 ştat baş müəllim - 1 yer.
Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.
Sənədlər təlimata uyğun olaraq bu ünvana göndərilməlidir.
Ünvan- Bakı şəhəri, H.Əliyev prospekti 58.

***REKTORLUQ***

# BİLDİRİŞ

"AZƏRİŞIQ" ASC-nin tender komissiyası bildirir ki, 0,4kV-110kV elektrik ötürücü xətlərində elektrik axınının mühafizəsi, ölçülməsi və sabit saxlanılması üçün zəruri ölçü cihazlarının və avadanlıqların satın alınması məqsədilə 2023-cü il avqustun 17-də elan edilmiş açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası qanununun 11.1-ci maddəsinə əsasən (tender təklifi vermiş iddiaçıların sayı üçdən az olduqda) baş tutmamış elan olunur və onun davamından imtina edilir.

Xalq qəzeti

XQ

xalqqazeti.az

№ 214 (30330) 3 oktyabr 2023-cü il, çərşənbə axşamı

İdman xəbərləri



## Qılıncoynadanımız qızıl medal qazanıb

***Qılıncoynatma üzrə milli komandamızın lideri Anna Başta Belçikanın Gent şəhərində keçirilən 25-ci "Flemish Open Championships" beynəlxalq turnirində qızıl medal qazanıb.***

Qrup mərhələsini mütləq nəticə (6 qələbə) ilə başa vuran Anna qadın sablyaçıların yarışında finala gedən yolda italiyalı Marqarita Collonna (15:7), Fransa sablyaçısı Şarlott Lembax (15:8) və Luise Kleyn (15:7), Böyük Britaniya təmsilçisi Maksvell Caitlini (15:14) mübarizədən kənarlaşdırıb. Finalda qadın sablyaçıların dünya reytinqində dördüncü olan Yunanıstan qılıncoynadanı Despina Georgiadonu 15:4 hesabı ilə məğlub edən təmsilçimiz yarışın qızıl medalını qazanıb.

## Tamblinq yığmamızdan Parisdə uğurlu çıxış

***Azərbaycanın tamblinq üzrə milli komandası Parisdə keçirilən "Tumbling French Cup" turnirində qızıl medal qazanıb.***



Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, Tofiq Əliyev, Adil Hacızadə və Mixail Malkin komanda hesabında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar.

Fərdi proqramda isə M.Malkin birinci, A.Hacızadə ikinci olub.

## Şamaxıda futbol festivalı keçirilib

***AFFA-nın təşkilatçılığı, UEFA-nın dəstəyi ilə UEFA Kütləvi Futbol Həftəsi çərçivəsində Şamaxı şəhər stadionunda 10-12 yaşlı uşaqlar üçün futbol festivalı keçirilib.***



100-dən çox uşağın qatıldığı festivalda iştirakçılar futbol oynayıb, əylənceli vaxt keçiriblər.

Festivalın sonunda hər bir uşağa UEFA tərəfindən göndərilən toplar hədiyyə olunub.

***Leyla SABİRQIZI***
***XQ***

Mədəniyyət

# Turan sevdasından doğulmuş Turan Cavid

**Bu il Turan Cavidin anadan olmasının 100 illik yubileyi qeyd olunur. Bu münasibətlə Milli Kitabxanada "Turan Cavid" adlı virtual sərgi hazırlanıb. Kitabxanadan bildirilib ki, virtual sərgidə fotolar, Turan Cavid haqqında məqalələr, kitablar, tərtib etdiyi kitablar nümayiş olunur.**




Qeyd edək ki, Turan Cavid 1923-cü il oktyabrın 2-də dahi Azərbaycan şairi və mütəfəkkiri Hüseyn Cavidin ailəsində dünyaya gəlib. O, 1991-ci ildən ömrünün sonunadək Hüseyn Cavidin Bakıdakı ev-muzeyinin direktoru olub.

Turan Cavid ədibin ev-muzeyinin qurucusu, əsərlərinin naşiri kimi öz övladlıq borcunu layiqincə yerinə yetirib. O, Cavidin Azərbaycan ədəbiyyatını zənginləşdirən ölməz əsərlərinin son mükəmməl nəşrini hazırlayaraq, Cavidə, onun ailəsinə məxsus əşyaları, sənədləri illərin sınağından çıxarıb, ev-muzeyinə təhvil verməklə Azərbaycan xalqına qiymətli miras qoyub.

Turan xanım Hüseyn Cavidin 120 illik yubileyi ərəfəsində onun əsərlərinin öz qələmindən çıxan kimi, onun üslubunda latın qrafikası ilə nəşr edilməsi üçün böyük zəhmət çəkib.

Turan Cavid 2004-cü il sentyabrın 12-də vəfat edib və Naxçıvanda cavidlərin uyuduğu məqbərədə dəfn olunub.

***XQ***

Məşhurlar

# Van Damın azərbaycanlı gəlini

**Hollivud ulduzu Jan Klod Van Damın oğlu Kristofer Van Damla ailə quran azərbaycanlı pianoçu Suada Hacızadə qayınanası Qledis Portiqesla bağlı paylaşım edib.**



Suada qayınanası ilə fotosunu sosial media hesabında paylaşaraq onu doğum günü münasibəti ilə təbrik edib: "Heç vaxt təslim olmayan, sevgi dolu gözəl ürəyə sahib, nə olursa-olsun, həmişə uşaqlarının, ailəsinin yanında olan gözəl və güclü qadın, ad gününüz mübarək. Həyat çoxlu enişli-yoxuşlu, yaxşı və pis günlərlə dolu bir bağlama ilə gəlir. Lakin o, həmişə həmin günlərin keçməsini, günəş işığını içəridə saxlamağı, davam etməyi və irəli getməyi seçir. Bu, onda sevdiyimiz cəhətdir. İçindəki güc, cəsarət və sevgi. O, həyatı boyu bir çox qadına ilham verib və hələ də buna davam edərək onlara kömək olur....

Qoy, həyatınız sakit yay günündə sevdiyiniz okean kimi olsun – hamar, sakit, günəşin əksində parıldayan, sizin kimi gözəl. Biz səni sevirik".

***XQ***

Elm

## COVID-19-a görə Nobel mükafatı




**Fiziologiya və tibb sahəsində Nobel mükafatı laureatının adı açıqlanıb.**

Stokholmdakı Karolinsk İnstitutunun Nobel Komitəsi macar alimi Katalin Kariko və amerikalı Dryu Vaysmanın 2023-cü il üzrə fiziologiya və tibb sahəsində Nobel mükafatına layiq görüldüyü elan edib.

Alimlər bu mükafata "COVID-19-a qarşı effektiv mRNT vaksinlərinin hazırlanmasına imkan verən nuklein turşusu əsaslarının modifikasiyası sahəsində kəşflərinə görə" layiq görülüblər.

***XQ***

Maraq dünyamız

## Dahilərin qəribəlikləri



**Dahi rəssam Leonardo da Vinçi mühəndis və memar olaraq da fəaliyyət göstərmişdir.**

Görkəmli alim Nikola Tesla hələ 6 yaşında ikən özünə su çarxı hazırlamışdır.

Albert Enşteynin yaddaşı zəif olub. Belə ki, o, telefon nömrələrini, tarixləri, hətta adları xatırlamaqda çətinlik çəkirmiş. Yeri gəlmişkən, Eynşteyn skripkada çalmağı çox sevirmiş. O, bunu beş yaşında öyrənib.

Fransız yazıçısı Onore de Balzak kofeni çox sevirmiş. Deyilənə görə, dahi yazıçı 5–6 fincan kofe içmədən yazmağa başlamırmış.

***H.ZƏRİFƏ***
***XQ***

# Yoxa çıxmış xalq tapılıb

**Alimlər Namib səhrasında 50 il əvvəl yoxa çıxdığı güman edilən xalqı aşkar ediblər. Bu barədə "SciTechDaily" məlumat yayıb.**

Antropoloqlar hesab edirdilər ki, bölgədə danışılan dillər yox olduqdan sonra xalq yoxa çıxıb. Bununla belə, ekspertlər aydınlaşdırıblar ki, bu qrup ana dili yox olanda öz genetik kimliyini qoruyub saxlayıb.

Tədqiqatçı Anna-Mariya Fehn bildirib ki, Afrikanın cənubundakı Namib səhrasında yaşayan qruplardan biri olan Kvepelər Kvadi dilində danışıblar: "Kvadi, Cənubi Afrikada ovçular və çobanlar tərəfindən danışılan Ho dilləri ilə bir çox oxşarlığı olan dil idi. Mütəxəssislər DNT araşdırmasından istifadə edərək Kvadi dilində danışan insanların nəslini tapıblar".

Tədqiqatçı Mark Stoneking isə vurğulayıb ki, Kalahari səhrasının ovçuları ilk olaraq bütün digər insanlardan ayrılan əcdadların nəslindəndir. Onun sözlərinə görə, Kvadi xalqı Bantu dillərində yalnız bu yaxınlarda danışmağa başlayıblar.



***P.ƏFƏNDİ***
***XQ***

Sağlamlıq

# Şirniyyatın acılıqları

**Süni rəng, dadlandırıcı və aromatizatorlar qatılmış hazır qidalar, paket ərzaqlar, kremli, rəngli şirniyyatlar mədəaltı vəzi sıradan çıxarır.**

Endokrinoloq Yekaterina Yanq bu zərif orqanın heç sevmədiyi qida ələvəsini açıqlayıb. Bildirib ki, bu 2 maddə – süni rəng və dadlandırıcı, deməк olar, bütün müasir qidalarda var. Rasiondan tərkibində yağdan əlavə bütün qidaları çıxarmaq lazımdır.

O bildirib ki, tərkibində şəkər, karbohidrat olan qidalar bu vəzin funksiyasını zəifledir. Mayalı ağ çörək, digər un məmulatları, bulka, tortlar, müxtəlif konfetləri ayda bir – iki dəfə yemək olar. Mədəaltı vəz şirniyyatı sevmir.

Həkim qeyd edib ki, sosis və kolbasalarda olan rəng və dadlandırıcı da mədəaltı vəzə ziyandır.



***Z.HÜSEYNLİ***
***XQ***

Hava




***Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin axşama doğru bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-qərb küləyi axşama doğru arabir güclənəcək.***

Havanın temperaturu gecə 15-19° isti, gündüz 22-26° isti olacaq. Atmosfer təzyiqi 758 mm civə sütunundan 763 mm civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-90 faiz, gündüz 60-70 faiz olacaq.

Azərbaycanın bəzi rayonlarında arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Şimal-qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 15-18° isti, gündüz 21-26° isti, dağlarda gecə 3-8° isti, gündüz 8-13° isti olacaq.

***Q.QƏZƏNFƏR***
***XQ***

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Turizm və Menecment Universitetinin rektoru İlham Mədətov və universitetin kollektivi professor Qəzənfər Paşayevə və ailəsinə əzizləri Azərbaycan Respublikası Milli Məclisinin Mədəniyyət komitəsinin sədri

**QƏNİRƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Şirvan şəhərindən İlqar Abbasov Milli Məclisin Mədəniyyət komitəsinin sədri

**QƏNİRƏ PAŞAYEVANIN**

vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verir.

***✓ Buzovna qəsəbəsində fərdi yaşayış evinin tikintisi üçün 0.10 hektar torpaq sahəsinə Cabbarov Rauf Mirağa oğlunun adına verilmiş Abşeron Rayon İcra Hakimiyyətinin 15 aprel 1999-cu il tarixli 096 nömrəli sərəncamından çıxarış və Azərbaycan Respublikası Prezidenti İşlər İdarəsinin Kənd Təsərrüfatı Müəssisəsinin 21 may 2003-cü il tarixli əmrindən çıxarışı itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4819
SİFARİŞ 2559
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00